


**Əli Xeybər oğlu Cabbarov**

*İqtisad üzrə fəlsəfə doktoru, dosent*


*1970-ci ildə Şahbuz rayonunun Kükü kəndində müəllim ailəsində anadan olub. 1995-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. 2000-ci ildən Naxçıvan Dövlət Universitetində, 2006-cı ildən "Naxçıvan" Universitetində elmi-pedaqoji fəaliyyətini davam etdirir. 2011-ci ildən Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabinetinin orqanı olan "Şərq qapısı" qəzetində çalışır. 2020-ci ildən www.mia.az xəbər portalının köşə yazarıdır.*

*Doqquz kitabın, 90 elmi və "Azərbaycan", "Xalq qəzeti", "Respublika", "Şərq qapısı" qəzetlərində və www.mia.az saytında dərc olunmuş, ümumilikdə, 1300-ə yaxın publisistik məqalənin müəllifidir.*



ZƏNGƏZURA *salam olsun*

Əli Cabbarov

Əli Cabbarov

# ZƏNGƏZURA
## *salam olsun*



**Əli Cabbarov**

# ZƏNGƏZURA

*salam olsun*

Naxçıvan-2023

*“**Heydər Əliyev İli**”nə töhfə olaraq hazırlanmış bu kitabda müəllifin son illərdə erməni faşizminin və onu bəsləyən qüvvələrin ifşası, həmçinin Qarabağ, Zəngəzur, Qərbi Azərbaycan motivləri üzərində “Respublika” və “Şərq qapısı” qəzetlərində, həmçinin www.mia.az saytında dərc olunmuş publisistik məqalələri toplanmışdır.*

**Əli Cabbarov. Zəngəzura salam olsun.** *Naxçıvan-2023“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi, 120 səh.*

4700000000
053-2023

**© “Əcəmi” 2023**


HEYDƏR ƏLİYEV
100 il

# Ön söz

Bizim dağlarımızın çox qərib bir hekayəsi var. İlk baharda havalar qarışıb, ildırımlar nərə çəkəndə bir ananın övladları kimi qucaqlaşıb, bir-birinə sığınan qoca dağlar yayda sərin bulaqların suyunu bölüşəndə, – *hər kəsin öz qisməti var,* – deyib zirvəsindən iki səmtə paralanar, sonra da qışın yalquzaq yellərində yenidən bir-birinə həsrətlə baxarlar. Amma gözünün yaşını sıxdısa, ümmanından Arpaçayı, Həkərini, Bərgüşadı, Bazarçayı coşdurub Arazı suya qərq edən dağlarımız, əslində, çox mərd, dosta vəfalı, aşiqə sevdalıdır. Şuşadan Naxçıvana qədər bütün bu yaylaqlarda kimdən soruşsanız bizim dağların polad kimi əyilməz biləyi, qonaq-qaralı süfrəsi, ağ gəlinlikli şəlalələri dillər əzbəri olacaq. Əgər yolunuzu Laçından salsanız Dərələyəzin bir addımlığındakı Batabatın yamyaşıl hüsnünü heç vaxt unutmayacaqsınız. Şahbuzadan Qubadlıyadək uzun bir yoldakı karvana qoşulsanız sizin bir ömrə yetəcək saz-söz boğçanızı Məmməd Arazın küskün şeirləri bəzəyəcək. Dağların qaşını çatdırıb, daşların üzünə sərin meh təravətli şeh gilələri səpələyən şair sözləri yol-riz tanımadan küləklə yoldaş olub, sonunda ürəyinə yatanı yuxusundan edəcək. Beləcə, səhərin hər sübhündə Cünəşlə boylanıb Haçadağın məğrur duruşuna məst olan Zəngəzur dağları mavi Xəzərdən ağsaçlı Ağrıyadək hər yerdə **BÖYÜK AZƏRBAYCANA** salam olsun deyəcək.

**Salamın mübarək Azərbaycan!**
**Salamın mübarək Zəngəzur!**

***Şəlalə  Cabbarova***
***Naxçıvan şəhər Heydər Əliyev adına məktəbin***
***dil-ədəbiyyat müəllimi***

# Azərbaycanın şanlı Zəfər yolu

Müasir dünyanın mənzərəsinə baxdıqda qloballaşma prosesləri ilə yanaşı, planeti bürüyən böhranlı vəziyyət



qarşısında bir sıra beynəlxalq təşkilatların o qədər də effektli olmayan cəhdləri fonunda cərəyan edən mürəkkəb hadisələrin şahidi oluruq. Hələ də mövcud olan qlobal problemlər, bununla paralel olaraq dünya üzrə təchizat zəncirinin qırılmasından qaynaqlanan pozulmuş dünya iqtisadiyyatı problemləri gündəmdəki yerini qorumaqdadır. Əgər bütün bunlara böyük dövlətlərin bitmək bilməyən intriqalarını, xaotik miqrasiya, ekoloji böhranlar, enerji və qida təhlükəsizliyi kimi mühüm gündəlik problemləri də əlavə etsək, dünya düzəninin nə qədər ciddi çətinliklərlə üz-üzə qaldığını söyləmək olar.

Şübhəsiz, elm, texnologiya və həyat standartları səviyyəsinin yüksəlməsi fonunda bunların bir qisminin birgə səylərlə həll olunduğunu deyə bilərik. Ancaq, sadəcə, son 100-150 illik bir tarixə nəzər saldıqda daha kəskin elə ciddi problemlərin mövcud olduğunu görürük ki, bunların dövrümüzə qədər uzanması artıq XXI əsrin mədəni cəmiyyəti üçün, sözün əsl mənasında, baş ağrısından başqa bir şey deyildir. Bu mənada, bu gün planetimizin başda ermənilər olmaqla, başqa millətlərə qarşı kin-nifrət hissləri ilə doğulan faşizm ünsürlərindən, gözü doymayan torpaq hərislərindən, böyük dövlətlərin arxasınca qaçıb hoqqabazlıqla siyasi divident və maddi nəmər arxasınca sürünənlərdən təmizlənməsi bütün sivil bəşəriyyətin qarşısındakı müqəddəs savaşlardan biridir. İnanırıq ki, ötən ilin payızında 44 günlük

şanlı Vətən müharibəsində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun qalibiyyətindən sonra başlanan tarixi missiya təkcə Cənubi Qafqazda deyil, bütün dünyada rast gəlinən belə faşist və revanşist, insanlığa yad olan bütün ünsürlərdən tam təmizlənənə qədər uğurla davam etdiriləcək. Çünki bu, yaxın keçmişdə erməni faşizmindən ən çox əziyyət çəkmiş Azərbaycandan başlanan Zəfər yoludur.

2020-ci ildə Azərbaycanın başlatdığı, xan Arazın minillik keşikçisi Xudafərindən mədəniyyət paytaxtımız Şuşaya qədər uzanan Zəfər yolu üzünü dədə-baba yurdumuz Zəngəzura doğru çevirərək bütün Türk dünyasını qovuşdurmağa doğru tələsir. Artıq ötənilki məğlubiyyətindən sonra hələ də özünə gəlməyib, sağa-sola çırpınan erməni cəmiyyətinin və eləcə də onların hay havadarlarının da Azərbaycanın diktə etdiyi yeni reallığı qəbul etməkdən başqa çarəsi qalmayıb. Belə ki, acgözlüyündən özünü düşürdüyü yoxsulluq və səfalət bataqlığında boğulan bu etnos ya "erməni xəstəliyi" simptomları ilə yatağa düşüb bir gün tamamilə məhv olacağını, ya da qonşuları ilə normal münasibət yaradıb əvvəllər olduğu kimi, onların hesabına normal dolanışıq qurmaqdan başqa bir yolunun olmadığını indi daha yaxşı bilir. Hər halda Ermənistan ordusunun və iqtisadiyyatının yox olması dərəcəsində başlarına dəyən dəmir yumruğun gücü bundan artığına da yetərdi. Ancaq Azərbaycan xalqı, onun uzaqgörən lideri məhz uzaq gələcəyi, strateji hədəfləri əsas götürərək bir an öncə bu regionda qan tökülməsinin qarşısının alınması, dinc quruculuq işlərinə başlanılması, yaranmış regional və qlobal əməkdaşlıq perspektivlərində tarixi öncüllük missiyasına başladı. İndi heç kimdən asılı olmayan, müstəqil Azərbaycan Respublikası qarşısında daha ali, daha dünyəvi məsələlərin həlli dayanır.

Bu gün erməni faşizminin belini qıran Azərbaycanı dünyada hamı tanıyır. Nümunə üçün, dünyada ölkəmizdən

ərazi və əhali ehtiyatlarına görə daha böyük olsa da, yalnız keçirilən idman yarışları və ya kəskin dəyişən hava şəraiti ilə gündəmə gələn bir sıra dövlətlərlə müqayisədə bu gün Azərbaycan deyəndə, Avropanın enerji təhlükəsizliyində mühüm yer tutan, partnyorluq müqavilələrində bir kəlmə sözünün belə, arxasında dayanan, qlobal əməkdaşlıqda, xüsusən humanitar məzmunlu bir sıra beynəlxalq layihələrdə böyük dövlətlərə belə, örnək göstərilən, dayanıqlı inkişaf prinsipləri ilə əhalisinin sosial müdafiəsi, həyat səviyyəsi məsələlərini daim gündəmdə saxlayan, söz, mətbuat azadlığı, insana verilən dəyərlə hamının yaşamaq arzusunda olduğu Günəşli bir ölkə başa düşülür. Ölkəmizin qlobal əməkdaşlıq kontekstində üzərinə düşən tərəfdaşlıq öhdəliklərini davamlı olaraq icra etməsi və diplomatik sahədə həyata keçirdiyi qətiyyətli tədbirlər ölkəmizin müsbət imicini daha da möhkəmləndirən mühüm nailiyyətlərdəndir. Bütün bunlar isə 30 ilə yaxın müddətdə torpaqlarının 20 faizi erməni işğalında olmuş, 1 milyon qaçqın və köçkün vətəndaşının problemləri ilə üz-üzə qalmış, hazırda isə tarixi Qələbədən sonra Qarabağa böyük qayıdış üçün bütün qolların çirmələnib erməni vandallarının izlərinin silinməsi üçün gecə-gündüz çalışıldığı, ərazilərimizin xain düşmən minalarından təmizlənməsindən tutmuş yeni yolların çəkilməsi, müasir hava limanlarının tikilməsi, yeni növ sosial-mədəni həyat göstəriciləri olan yaşıl enerji və ağıllı kənd layihələrinin həyata keçirilməsi, erməni vandalizminin qurbanı olmuş tarixi abidələrimizin bərpası kimi genişmiqyaslı işlər fonunda aparılır. Qarabağ münaqişəsi bitsə də, hələ davam edən informasiya savaşında yenə də Müzəffər olan ölkə başçısı keçirdiyi hər görüşdə, qatıldığı hər mötəbər beynəlxalq tədbirdə, verdiyi hər müsahibədə bütün bunların xalqının dəstəyi ilə qazandığı Böyük Zəfərin davamı olduğunu dilə gətirir, Azərbaycanın strateji maraqlarına cavab verən bütün hədəflərə hansı yollarla olursa-olsun, mütləq çatacaqlarını sərrast şəkildə ifadə edir. İndi bütün dünya

siyasət və hərb tarixinə yeni terminlər gətirmiş Azərbaycan liderinin verəcəyi hər qərarı maraqla gözləməkdədir. Çünki bu qərarlar dünyada Xeyirin Şər üzərində tam zəfər çalması üçün verilən qərarlardır.

Azərbaycan 2022-ci ilə böyük uğurlarla qədəm qoyur. Yola saldığımız günlərə qısa bir nəzər saldıqda ölkəmizdə yeni cəmiyyət quruculuğunda, insanların daha xoşbəxt, daha firavan yaşayışı naminə nə qədər böyük işlər görüldüyünün şahidi oluruq. Bütün bunlar isə tariximizin qızıl səhifələrinə yazılacaq geniş və gələcək üçün taleyüklü məsələlərdir. Dünyada və regiondakı geostrateji şərtlərin 180 dərəcə çevrilərək Azərbaycanın xeyrinə işlədiyi bir dövrdə ölkəmizin günbəgün artan nüfuzunun, güclənən iqtisadiyyatının və yenilməz şanlı ordusunun qələbələrinin əsasında Prezident cənab İlham Əliyevin başlatdığı uğurlu yol vardır.

***Bu, Azərbaycandan başlanan Zəfər yoludur.***

***"Şərq Qapısı" qəzeti, 1 yanvar 2022-ci il***

***http://85.132.16.133/index.php/idztimai-siaysi/33619-azaerbaydzandan-bashlanan-zaefaer-yolu.html***

## Naxçıvanın turizm marşrutları

### *Dünən, bu gün, sabah*

Mürəkkəb sosial-iqtisadi proseslərin məcmusu olan turizm ölkəmizdə uğurla həyata keçirilən qeyri-neft sektorunun inkişaf strategiyasında mühüm yer tutur. Ölkəmizi dünyaya tanıtmaqla yanaşı, turizm regional inkişafın da mühüm vasitəsi kimi yeni iş yerlərinin açılması, ucqarlarda əhali məskunlaşması və bir sıra sosial-iqtisadi problemlərin həllinə kömək edən dövlət siyasətinə xidmət edir. Məhz bu xüsusiyyətlərinə görə turizmin inkişafı yeni dövrdə ölkəmizin


Naxçıvanın turizm marşrutları
Dünən, bu gün, sabah

ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası üçün prioritet istiqamətlərdən biridir. Ötən dövrdə Naxçıvanın turizm potensialının artırlması istiqamətində həyata keçirilmiş mühüm dövlət tədbirləri, yerinə yetirilmiş infrastruktur layihələri muxtar respublikada mövcud turizm marşrutları üzrə səyahət edən həm əcnəbi, həm də yerli turistlərə mənalı sosial-mədəni xidmətlər göstərməyə imkan verir.

Naxçıvan Muxtar Respublikası istər turizm marşrutları yaradılması və istərsə də ümumən asudə vaxtın təşkili baxımından olduqca unikal bir məkandır. Tarixi ədalətsizlik nəticəsində Azərbaycanın əsas hissəsindən ayrı düşməsinə baxmayaraq, Naxçıvanın yerləşdiyi coğrafi mövqe, buradakı landşaft müxtəlifliyi, zəngin tarixi-mədəni potensial və müasir inkişaf səviyyəsi mövcud olan və yaradılacaq turizm marşrutlarının cazibədarılğına öz təsirini göstərir. Belə ki, regionun sahib olduğu təbii, tarixi-mədəni və antropogen mənşəli turizm ehtiyatları burada dini ziyarət, müalicə, mədəni tanışlıq, ekoturizm, etnik, kənd-yaşıl və tranzit turizm növləri üzrə turistlərin cəlb olunmasına imkan yaradır.

Bu gün Naxçıvan Muxtar Respublikasında mərkəz Naxçıvan şəhəri olmaqla, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Batabat, Naxçıvan-Ağbulaq, Naxçıvan-Ordubad, Naxçıvan-Əlincəqala və Naxçıvan-Qarabağlar kimi istiqamətlərdə əsas turizm marşrutları fəaliyyət göstərir. Bununla yanaşı, bu marşrutların sayının daha da artırılması və yeni istiqamətlərdə satışa çıxarılan turların turistlərə təqdim olunması da mümkündür. Belə ki, gələcəkdə Naxçıvan-Kükü-Gurbulaq, Naxçıvan-Nehrəm, Naxçıvan-Sədərək, Naxçıvan-Çənnəb, Naxçıvan-Keçili, Naxçıvan-Badamlı, Naxçıvan-Haçadağ, Naxçıvan-Dırnıs, Naxçıvan-Şahbulaq, Naxçıvan-Gəmiqaya, Naxçıvan-Ordubad-Göygöl kimi perspektiv marşrutlar da turistərin marağını cəlb etməkdədir. Ayrıca olaraq, Zəngəzur dəhlizinin açılması ilə yaxın gələcəkdə tarixi torpaqlarımız

olan Qərbi Zəngəzurdan keçməklə də turizm marşrutları yaradılacaq.

Naxçıvanda turizm marşrutlarının, eləcə də ümumilikdə turizmin inkişafına bir sıra amillər təsir etmişdir. Belə ki, keçmiş sovet dönəmində Naxçıvan Muxtar Respublikasının sərhədyanı bir bölgə kimi xarici turistlərin üzünə bağlı qalması, daha sonrakı dövrlərdə düşmən blokadasının ilk illərindəki ağır sosial-iqtisadi vəziyyət Naxçıvanda turizmin inkişafına mənfi təsir göstərmişdi. Bununla yanaşı, ölkəmizin bu mühüm geostrateji regionu hələ ümummilli lider Heydər Əliyevin 1990-cı illlərin əvvəlində buradakı fəaliyyəti dövründə dünyanın diqqətini cəlb etmiş, müxtəlif ölkələrdən, xüsusən qardaş Türkiyədən bölgəyə gələn tanınmış siyasətçilər, media nümayəndələri, işgüzar insanlar Naxçıvanın ilk turistləri olmuşdular. Daha sonrakı dövrdə dahi şəxsiyyətin Naxçıvana olan daimi diqqəti və ölkə başçısı cənab İlham Əliyevin muxtar respublikanın hərtərəfli inkişafı ilə bağlı verdiyi mühüm qərarlar digər sahələr kimi turizmin də inkişafını təmin etmişdir. Hazırda Naxçıvan Beynəlxalq Hava Limanı və üç gömrük-keçid məntəqəsi vasitəsilə regiona gələn turistlər buradakı turizm sənayesinin xidmətlərindən istifadə etməklə qədim diyar haqqında məlumat alırlar.

Bu gün Naxçıvana ilk dəfə səyahət edən hər bir turist üçün dünya tufanının izlərini yaşadan Haçadağın məğrurluğu nəzərdən qaçmır. Əsrlərin mübarizəsinə şahidlik etmiş Əlincəqala ilə birlikdə sanki bu torpağın daimi keşiyində dayanmış Naxçıvan dağları heç zaman, heç kimə boyun əymədən bu gün də öz əzəmətini saxlayır. Naxçıvan şəhərinin harmoniyası ilə qısaca tanış olub, ilk ziyarətini müqəddəs Əshabi-Kəhfə edən turistlər burada hər kəsin qəlbini rahatladacaq səbir, hüzur dolu saatlar yaşayır, Uca Allahın sonsuz ədalətinə sığınaraq bir gün hər cür zülmdən qurtulmağın rəhmətinə qovuşurlar. Daha sonra Ordubada

hərəkət edən turist qrupunu burada unikal bir məkan gözləyir. Ordubadın qədim küçələrinin aurası, onların yüz il əvvəl olduğu kimi, indiyə qədər qalması və üzərinə heç bir əlavə olunmaması buradakı turizm ehtiyatlarımızın tanışlıq dəyərini artırır. Ordubada xas qədim qonaqpərvərlik elementlərimiz heç bir yamaq götürmədiyi kimi, Ordubadda və Naxçıvanın digər yerlərində indiyə qədər ***"əl gəzdirilməmiş"*** qalan tarixi məkanlar da turistlər tərəfindən dərin maraqla qarşılanır.

Səyahətin növbəti günündə yolunu Şahbuzun yaşıl çəmənlərinə salan turistlər təbiət gözəli Batabat, Qanlıgöl, Gurbulaq şəlaləsi, Ağbulaq dolaylarına doyunca tamaşa edib, Zorbulağın bumbuz suyundan içmək həyəcanını yaşayır, bölgəyə məxsus ləziz Naxçıvan nemətlərindən dadmaq, mineral suları yerində içmək fürsəti qazanırlar. Şəhərə qayıtdıqda Naxçıvan Duzdağı ilə tanışlıq turistlərin böyük Vətənimizin nə qədər zəngin təbii resurslara və qədim tarixə malik olduğu haqqında təəssüratlarını daha da dərinləşdirir.

Muxtar respublikadakı turizm marşrutlarının başlanğıc nöqtəsi olan Naxçıvan şəhəri sadə insanların qonaqpərvərliyi, xidmət sektorunun dürüstlüyü ilə turistlərin diqqətini cəlb edir. Şəhərin geniş küçələri və böyük şəhərlərə xas olmayan hərəkət seyrəkliyi turistlər üçün buradakı abidələr, muzeylər, kəhrizlər və mədəniyyət obyektləri ilə tanışlıq baxımından əlverişlidir. Şəhərdəki, özəl sektora aid kiçik xidmət müəssisələrinin sayı artıb, dünya təcrübəsi mənimsəndikcə müştəri məmnuniyyəti baxımından daha yaxşı servislər təqdim edib, turizmdən daha yaxşı gəlirlər əldə etmək mümkün olacaqdır.

Növbəti turizm mövsümü, qarşıdakı dövr turizm marşrutlarının daha da təkmilləşdirilməsi, ümumilikdə Naxçıvanda turizmin inkişafı istiqamətində ən əlverişli və ən məsuliyyətli dövr olacaq. Bütün dünyada turizmə ciddi zərər vurmuş məcburi məhdudiyyətlərin yumşaldığı və regionda mövcud olmuş ***gərəksiz qadağaların*** artıq acı bir tarix olduğu

bir dövrdə Naxçıvanda turizm ehtiyatlarımızın cazibə gücünün daha dərindən öyrənilməsi, keçmişdən dərs çıxarılmaqla dövlətin ali maraqları və yerli əhalinin mənafeləri nəzərə alınmaqla, sahibkarlığa geniş meydan verilməsi turizm inkişafı baxımından qarşıda duran əsas vəzifələrdəndir. Beləcə, qardaş Türkiyə ilə həmsərhəd olan Naxçıvanın indiki tranzit imkanlarının da gələcəkdə genişlənərək Zəngəzur dəhlizi ilə bütün Türk dünyasına da inteqrasiya olunması onu bütün dünyaya daha yaxından tanıdacaq, insanların xoş rifahı üçün əlavə imkanlar yaranacaq.

Sabah daha gözəl olacaq!

***"Respublika" qəzeti, 12 yanvar 2023-cü il***
***https://respublika-news.az/news/naxcivanin-turizm-marsrutlari***

## Zəngəzurun turizm potensialı

Otuz ilə yaxın bir müddətdə davam etmiş mənfur erməni işğalına son qoymuş qalib Azərbaycan xalqı bu gün özünün zəfərlərlə dolu tarixinə yeni bir səhifə ilə başlayır. Tarixi Azərbaycan torpaqları olmuş Qərbi Azərbaycana bir gün mütləq qayıdacağımızı, bunun üçün nə lazımsa ediləcəyini bəyan edən ölkə başçımızın qətiyyəti sayəsində bir gün bu səhifənin də son nidası qoyulmaqla bizim qələbəmizlə yekunlaşacağına əminik. Zəngəzurdan Dilicana, Dərələyəzdən Dağ Borçalıyadək bütün İrəvan mahalı, Qərbi Azərbaycan torpaqları özünün zəngin tarixi-mədəni sərvətləri, təbii gözəllikləri ilə birlikdə xalqımızın sərvəti olmaqla bizi özünə səsləyir.

Qarabağın düşmən işğalından azad edilməsi ilə pozulmuş ədaləti bərpa edən Azərbaycan dövləti münaqişədən sonrakı dövrdə Cənubi Qafqazda davamlı sülhün bərqərar olunması üçün bütün vasitələrlə öz gücünü ortaya qoyur. Bu mənada, qarşıdakı dövrdə bütün kommunikasiyaların bərpa

olunması ilə iqtisadi əlaqələrin yaradılmasında turizmin də rolunu qeyd etmək olar. Belə ki, turizm bütün dünyadakı postkonfliktlər dövründə ən yaxşı sabitləşdirici əhəmiyyət daşımaqla gələcəkdə bütün bölgənin humanitar inkişafında mühüm rol oynayacaq, Zəngəzur dəhlizi boyunca ölkələrin iqtisadi-mədəni əlaqələrində açar mövqeyə malik olacaq. Odur ki, gələcəkdə Bakıdan Təbrizə, Ərdəbildən İrəvana, Urmiyədən Dərbəndə qədər böyük Azərbaycanın hər yerindəki bütün tarixi-mədəni sərvətləri və təbii zənginlikləri tanımaq və tanıtmaq sülhsevər insanların dünyagörüşünü artıran, onların təəssüratlarını zənginləşdirən mühüm təbliğat vasitəsi kimi qarşıda durur. Tarixi ədalətsizlik nəticəsində Azərbaycandan ayrı düşmüş Qərbi Zəngəzur torpaqlarındakı bənzərsiz turizm ehtiyatlarımızı öyrənmək bu baxımdan maraq doğurur.


RESPUBLİKA

Zəngəzurun turizm potensialı

Zəngəzur özünün yerləşmə mövqeyi, qeyri-adi təbiəti və tarixi-mədəni zənginlikləri ilə hər kəs üçün cazibədardır. Cənubi Qafqaza ilk dəfə səyahət edən çox sayda əcnəbi üç parçaya bölünmüş tarixi böyük Azərbaycan arasındakı bu dilimin xəritədə nədən başqa rəngdə olmasını çox çətin başa düşür. Eləcə də Naxçıvana ilk dəfə səyahət edən turistlər də nəyə görə bu ərazinin Azərbaycanın əsas hissəsindən aralı düşdüyünü anlamaqda çətinlik çəkirlər. Doğrudan da, son min il ərzində baş vermiş tarixi prosesləri bir tərəfə qoyub, hətta mövcud xəritəyə belə diqqətlə baxdıqda Bişkekdən Çanaqqalaya, Xəzərdən Kərkükə qədər hər tərəfdən Türk-Oğuz yaşayış məskənləri ilə əhatə olunmuş bu torpaqların nəyə görə indi ermənilərin əlində olduğu barədə hər kəsdə

haqlı suallar yaradır. Hər halda tarixi ədalət olsaydı, bu, belə olmamalıydı!

Tarixi Azərbaycan torpağı Zəngəzurun turizm marağı baxımından öyrənilməsi nostaljiyə qayıdış və gələcək iqtisadi-humanitar inkişaf perspektivləri baxımından çox əhəmiyyətlidir. Keçmişə qayıdış ona görə vacibdir ki, yeni dövrdə Zəngəzura səyahət edə biləcək hər bir şəxs, xüsusən, gələcək nəsillər bu torpağın əsl sahibləri haqqında təsəvvürlər əldə edə biləcək, indiki qurama Ermənistanın bir dövlət kimi düzəldilməsi zamanı baş vermiş bütün hadisələrin gerçək üzü ilə tanış olacaqlar. İndiki dövrdə emənilər hər nə qədər buradakı yerləri erməniləşdirilmiş adları ilə dünyaya tanıtmağa çalışsalar da, Zəngəzurun təbii gözəllikləri, eləcə də ermənilərin buraya köçürülməsindən min il əvvəllər mövcud olmuş tarixi abidələrin yerlərinə, türkmənşəli yaşayış məntəqələrinə qayıda bilmək, bu baxımdan, hər bir azərbaycanlının arzusudur. Qərbi Azərbaycanda indiki erməni əhalisinin dörddə üçünün təxminən 200 il əvvəl, yəni 1828-ci il Türkmənçay müqaviləsindən sonra buraya köçürülməsi ilə yarandığını və onların heç zaman burada aborigen insanlar olmadığını öyrənən turistlərdə, o zaman Qərbi Zəngəzurun və digər mahalların da türkmənşəli yaşayış məntəqələri, qədim mədəniyyət nümunələrinə maraq yaranacaq. Belə yaşayış məntəqələri isə çox da uzaq olmayan keçmişdə yüzlərlə və daha çox olub. Belə ki, 1932-ci ildə, yəni Sovet hakimiyyətinin kifayət qədər gücləndiyi bir dövrdə Tiflisdə dərc olunmuş “Sovet Ermənistanın əhalisi” adlı nəşrdə ermənilərin özləri tərəfindən bu ölkədəki 2310 kənddən 2000-nin adının türkmənşəli olduğu göstərilir. Ermənistandakı 36 rayondan 33-də azərbaycanlıların yaşaması da tarixi sənədlərdə çox ciddi şəkildə əks olunmaqdadır. Qərbi Zəngəzura gəldikdə isə XX əsrin əvvəllərində bu mahaldakı 7 rayonda 240 azərbaycanlı kəndi olub ki, bu da ermənilər yaşayan məntəqələrin sayından 3 dəfə artıq idi.

Qərbi Zəngəzurun tarixi çox keşməkeşli olub. Hələ VII əsrdə ərəblərin istilasına məruz qalmış Zəngəzur daha sonra xronoloji olaraq Şəddadi, Səlcuqlu, Monqol, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Osmanlı dövlətlərinin tabeliyində olub. Nadir şahın ölümündən sonra Azərbaycanda xanlıqların yaranması ilə Zəngəzur mahalı əsasən Qarabağ xanlığının tərkibində olub. XIX əsrin əvvəlində Cənubi Qafqaza rusların gəlməsi ilə başlayan qara günlər Zəngəzurdan da yan keçməmişdir. Əvvəllər Qarabağ əyalətinin tərkibində Həkəri və Bərgüşad çayları hövzəsindən tutmuş Zəngəzur dağ silsiləsinədək böyük bir mahalı tutan bu torpaqlar 1841-ci ildə Zəngəzur və Mehridən ibarət olmaqla iki yerə bölünmüşdür. Daha sonrakı dövrlərdə Zəngəzurun taleyi daha da mürəkkəb olsa da bu ərazinin Qafqaz Albaniyası dövründə olduğu kimi, yenə də Azərbaycanın tərkib hissəsi olduğu tarixi sənədlərdə qəti şəkildə öz əksini tapıb. Buna görə də xalqımızın Zəngəzura olan marağı hər bir azərbaycanlının min illər ərzində formalaşmış yaddaşından süzülüb gələn Vətən sevgisinin məhsulu kimi dəyərləndirilməli və bütün dünya da bunu belə qəbul etməlidir.

Yüz illər əvvəlki kimi indi də Zəngəzurda zəngin tanışlıq və təbii-rekreasiya ehtiyatları vardır. Təəssüf ki, buradakı təbii və tarixi-mədəni turizm ehtiyatları hazırda Ermənistan tərəfindən istismar olunub, bu ölkə iqtisadiyyatına külli miqdarda gəlir qazandırır. Ona görə də bunların Azərbaycana məxsus ehtiyatlar kimi tanınması və tanıdılması baxımından, gələcəkdə Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutunun da mühüm əhəmiyyəti olacaq. Ermənilər 30 ilə yaxın bir dövrdə işğal etdikləri Qarabağ torpağından qovulduqdan sonra onların Azərbaycanın nə qədər sərvətlərini talan etdiyini görən dünya bundan sonra Zəngəzurda və eləcə də indiki Ermənistanda nə qədər sayda tarixi Azərbaycan kənd və şəhərlərini erməniləşdirdiyini, alban kilsələrini

qriqoriyanlaşdırıb erməni abidəsi kimi istismar olunduğunu, azərbaycanlıların təkcə XX əsrdə dörd dəfə deportasiyaya məruz qoyulduğunu, məskənlərini necə yox edildiyini səyahətlər zamanı öz gözləri ilə görəcək. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı İlham Əliyevin dediyi kimi: ***Ermənistan bunu istəsə də, istəməsə də!***

Yolunu Qərbi Zəngəzurdan salan turistlər ilk olaraq Mehri rayonu ilə tanışlıq imkanı əldə edirlər. Azərbaycanlılar üçün bu bir növ daxili turizm marşrutu olsa da, gələcəkdə Zəngəzur dəhlizindən istifadə edəcək olan əcnəbilər üçün bu yol çox maraqlı beynəlxalq turizm marşrutu kimi yaddaşlarda qalacaq. Adının heç cür sona qədər erməniləşdirilə bilinmədiyi Mehri cənubda Araz çayı vasitəsilə İranla, qərbdə Ordubad, şərqdə Zəngilan və şimalda Qafan rayonları ilə həmsərhəddir. Ərazisi təxminən 660 kvadratkilometr olub, yüksək dağlıq landşafta malikdir. Sovet dövründə rayon ərazisindən Araz çayı boyunca Azərbaycanın mülkiyyətində olmuş dəmir yolu keçirdi. 1988-ci ildən ermənilərin başlatdığı münaqişədən sonra bu dəmir yolu da istifadəsiz qalmış, yol infrastrukturu dağıdılmış, hətta polad relslər belə metal parçası kimi qonşu ölkəyə satılmışdır. Mehri rayonu ərazisində sonradan adları erməniləşdirilərək eybəcər hala salınmış çox sayda azərbaycanlı kəndləri vardır. Hazırda beş min nəfərdən də az əhalisi olan Mehri şəhəri ilə yanaşı, rayondakı irili-xırdalı cəmi 13 kənddən adları Aynazur, Əlidərə, Əmrah daşı, Bənövşəbuşt, Qul, Maralzəmi, Mülkü, Nüvədi kimi qədim türklərə aid yurd yerlərini misal göstərmək olar ki, müasir Ermənistandakı acınacaqlı demoqrafik vəziyyət ucbatından onların da əksəriyyəti tamamilə boşdur.

Mehri özünün yüksək dağ aşırımı ilə seçilir. Şimaldan 2500 metrdən yüksək olan dağ aşırımı və cənubdakı Mehri qalası diqqəti cəlb edir. Zəngəzura köçürülmüş ermənilər bir

qayda olaraq, alban kilsələrinin özləşdirilməsi ilə məşğul olduğundan Mehri qalası qalıqlarının erməniləşdirilməsinə imkan tapmamışlar. Əvəzində, Mehriyə gəlmiş turistlərin yol qeydlərindən və fotoşəkillərdən buradakı tipik erməni həyat tərzi elementləri diqqəti cəlb edir. Belə ki, Qarabağdan fərqli olaraq, yaxın keçmişdə bu torpaqlarda döyüşlər olmasa da, dağıdılmış infrastruktur, primitiv sosial-mədəni şərait və Anadolu türklərinin ifadəsi ilə desək "Hacı Murad dönəmi"ndən qalmış nəqliyyat vasitələri və yaşayış binaları Mehridə açıqca nəzərə çarpır. Tarixi-nostalgiya baxımından Zəngəzura səyahət edən turistlər üçün Mehridə ən cazibədar yaşayış məntəqələrindən biri şübhəsiz, Nüvədi kəndidir.

Belə ki, 1920-ci ildə Moskvanın təzyiqi ilə Zəngəzurun Ermənistana verilməsindən sonra Nüvədi kəndi əvvəlcə Zəngilanda qalmışdır. Lakin 1969-cu ildə rəsmi olaraq Mehri rayonuna hədiyyə olunmuş Nüvədi kəndi Sovet hakimiyyəti dövründə də bu respublikada azərbaycanlılara qarşı həyata keçirilmiş mənəvi terror və diskriminasiyaya qarşı inadla müqavimət göstərmiş, burada güclü təsərrüfat qurulmuş və əhali öz vəsaitləri hesabına sosial-mədəni həyat şəraiti – məktəb, klub, kitabxana, həkim ambulatoriyası yaratmış, 30-dan artıq alim yetişdirmişdir. 1988-ci ilin sonuna yaxın artıq Ermənistandan 250 min nəfər soydaşımızın deportasiyası tamamlansa da, Nüvədi azərbaycanlıların son qala statusunu qoruyub saxlayaraq yalnız 1991-ci ilin avqustunda rus əsgərlərinin də dəstəyinə arxalanan ermənilər tərəfindən işğal olundu və kəndin 2 minə yaxın sakini qaçqın düşdü. Buna görə də gələcəkdə hər bir azərbaycanlının Nüvədi faciəsi ilə yerində tanış olması, bu kənddə qalmış həyat izlərini öz gözləri ilə görmək istəyi olacaqdır. Belə ki, Zəngəzurun hər yerində olduğu kimi, Mehrinin Nüvədi kəndində də qədim türk tayfalarının izlərinə rast gəlmək olar. Nüvədi yaxınlığındakı Qarqadaş dağındakı Göytürk qayaüstü

rəsmlərini xatırladan peiroqliflər qədimdə burada yaşamış olan Qar-qar tayfalarından xəbər verir.

Qafan Zəngəzurun böyük rayonlarından biri olub, cənubda Qubadlı və Zəngilan, şərqdə Sisiyan və Gorus, cənub-qərbdə Mehri rayonları ilə həmsərhəddir. Ərazisi Mehri rayonundan təxminən 2 dəfə çox – 1345 kvadratkilometrdir. Əsasən dağlıq əraziyə malik olub, ən yüksək zirvələri Qapıcıq və Xusdub dağlarıdır. Rayonda Azərbaycanın mülkiyyəti olmuş dəmir yolu xətti vardır. Maraqlıdır ki, Qafan Bakı və İrəvan şəhərlərindən təxminən eyni məsafədədir.

Qafana tarixi nəzərdən baxdıqda, *(erməni sovet ensiklopediyasında da bu fakt təsdiqlənir)* bütün Zəngəzurda olduğu kimi bu qədər böyük ərazinin V əsrdən 1920-ci ilə qədər heç bir erməni dövlətinin tərkibində olmadığını görürük. Zəngəzurla ilk dəfə tanış olanlar üçün təkcə Qafan rayonunda 200-dən artıq kənd, çay, göl, dağ zirvəsi adlarının türkmənşəli olduğunu bilmək çox maraqlı faktlardır. Nə qədər erməniləşdirilməyə çalışsalar da, müasir Ermənistan xəritəsində hələ də belə adları görmək mümkündür. “Kitabi-Dədə Qorqud” dastanında da xatırlanan belə yurd yerlərimizə Qafanda da rast gəlinməkdədir. Qafanda 1988-ci ilədək 40-a yaxın kənddə sırf azərbaycanlılar yaşamışdır. Lakin 1918-ci ildə bu kəndlərdə, xüsusən, 5 mindən çox əhalisi olmuş Qatar, 2 mindən çox əhalisi olmuş Oxçu kəndlərində baş vermiş qırğınlar nəticəsində azərbaycanlılara qarşı kütləvi cinayətlər törədilib.

Qafana getmək üçün səyyahlar Mehri-Qacaran yolunu seçə bilərlər. Araz qırağından təxminən 50 kilometr məsafədə, Oxçuçayı yatağında yerləşən və keçmiş adı Oxçu olmuş bu şəhər özünün mis-molibden mədənləri ilə tanınır. Buradan təxminən 30 kilometr məsafədəki Qafan şəhərinə 40 dəqiqəyə çatmaq olar.

Qafan Zəngəzurun böyük şəhərlərindən biridir. Ermənistanda törədilmiş ən son etnik təmizləmədən sonra

1991-ci ildə şəhərin adı da mənəvi terrora məruz qalaraq rəsmi qərarla "Kapan" adlandırılmışdır. Halbuki, "Qaf" dağı haqqında Azərbaycandakı mövcud əfsanəyə görə, Qapıcığa ən yaxın böyük şəhərin adının onunla bağlı olması da daha məntiqli səslənir. Oxçuçayın orta axarındakı Qafan cənub-şərqdən Bərgüşad, cənubdan Mehri dağ silsiləsi, qərbdən Xustub zirvəsi ilə əhatə olunmuşdur. Qafanın təkrarsız təbiəti və florası çox qədimlərdən səyyahları özünə cəlb etmişdir. Qafan Zəngəzurda meşələrlə zəngin olan bir rayondur. Burada Oxçuçay hövzəsinin yuxarı hissəsində "Turşsu" deyilən məşhur mineral bulaqlar vardır. Qazangöl və Yaşılgöl gölləri də Qafanda yerləşir.

Qafanın zəngin tarixi keçmişi vardır. Hələ eramızdan yüz illər əvvəl insan məskənləri kimi adıçəkilən Qafan Qafqaz Albaniyasının bir hissəsi kimi burada baş verən hadisələrin mərkəzində olub. Yaşanılan tarix, istər qədim Alban dövlətləri, istər ondan sonrakı dövrdə burada mövcud olmuş müxtəlif dövlətlərin təsiri nəticəsində yaradılmış mədəniyyət nümunələri burada heç bir zaman erməni kökənli insanların izlərinə dair ipucları vermir. Bölgənin təbii, tarixi-mədəni zənginliyi qədim türk dillərində də ifadə olunduğu kimi, sırf milli morfoetnik mənşəyimizi əks etdirir. Bu baxımdan, təkcə Mehri və Qafan nahiyələri arasındakı Mehri və Xusdub dağlarının arasındakı yerləri xatırlamaq kifayətdir – "Ördəkli yurdu", "Darbərə yaylağı", "Qaraçılar yurdu", "Qoşa nov yaylağı", "Xankəndi yaylağı", "Bəsitçay" və sair kimi yerlər, yaxud, Qazançı, Ağkənd, Mahmudlu, Daşbaşı, Kürkənd, Çiriş, Şəhərçik və sair kimi çox sayda türk toponimləri buranın əzəli sakinlərinin kimliyindən xəbər verir.

***"Respublika" qəzeti, 18 yanvar 2023-cü il***
***https://respublika-news.az/news/zengezurun-turizm-potensiali***

# Zəngəzurun turizm potensialı (II hissə)

Təkcə Şəhərcik kəndinin tarixçəsinə baxsaq, bu gün ermənilər Qafanda Njde və Andronik kimi cəlladlara abidə qoyub, bununla dünyaya meydan oxuduqları bir vaxtda, bir zamanlar, yəni 1918-ci ildə Zəngəzurda tüğyan edən erməni terroruna qarşı kənd sakinlərinin əfsanəyə dönmüş müdafiəsini yada salmaq kifayətdir. Hafizələrdə yaşayan tarixə əsasən, o dövrdə kəndi qoruyan 140 nəfər könüllü ilyarım ərzində son nəfəsə qədər döyüşüb, Andronikin qoşunlarına ağır zərbələr vurublar. Tarixi mənbələrə görə könüllülərin komandirlərindən olmuş Səhlalı Orucəli oğlu ağır yaralı halda ermənilərə əsir düşməmək üçün öz anasından onu evində yandırmağı istəyib. Erməni toplarının atəşi altında qalan kəndin son sakinləri Zəngəzur silsiləsinin çətin keçilən aşırımlarından çətinliklə adlayıb Ordubad kəndlərinə sığınıblar. Sovet hakimiyyətinin qurulmasından sonra öz doğma kəndlərinə qayıda bilən 600-ə yaxın şəhərcikli burada təsərrüfat və sosial həyat qursalar da daim mənəvi terrora məruz qalıblar. Belə ki, sovet dövründə Ermənistanın hər yerində olduğu kimi, təhsil sahəsində azərbaycanlılara qarşı göstərilən diskriminasiya burada özünü göstərib. 1960-cı illərdə belə Şəhərcikdə dərslər məscid binasında, sonra isə kolxozun öz hesabına tikilmiş dördotaqlı binada gündə iki və üçnövbəli olmaqla keçilib.

Təbii ehtiyatlar baxımından Qafan təkcə Zəngəzurun deyil, bütün Ermənistanın ən zəngin yerlərindəndir. Əlvan metal filizləri ilə zəngin olan Zəngəzurun bu bölgəsi XIX əsrdə Qərbi Azərbaycanın bütün gəlirinin yarıdan çoxunu təşkil edib. Şübhəsiz, bu sahədə qazancları Qarabağın işğalı dövründə Kəlbəcərin və Zəngilanın da mis və qızıl sərvətlərinin qarət edilməsi üçün onların iştahını artırıb, Azərbaycana milyardlarla dollar ekoloji və maddi zərər vurublar. Qafandakı mineral ehtiyatları mənimsəməklə yanaşı, ermənilər sənaye tullantılar ilə Araz çayı hövzəsini də

çirkləndiriblər. Turizm ehtiyatlarına gəldikdə isə Qafan bölgəsində Oxçuçay dərəsinin bənzərsiz landşaftı, bolsulu çaylar, Göygöl gölü, Oxtar çayı, buradakı fauna və flora, həmçinin Qafan qalası, Qazan xanın məskən saldığı yerlə bağlı olan Qazan düşən adlı yer, adı Babək hərəkatı ilə bağlı olan Darvaz qalası, Govurqala, xalq qəhrəmanı Babəkin ustadı olmuş Cavidanın adı ilə bağlı olan Pircavidan məqbərəsi, Kığı çayının sahilində yerləşən Hacat kəndindəki abidələr Qafanın görməli yerlərindəndir.


ZƏNGƏZURUN
TURİZM POTENSİALI
Qarakilsə, Şəki şəlaləsi
Gorus, Xınzırək mağaraları

Çar Rusiyası dövründə Zəngəzurun mərkəzi olmuş Gorus unikal təbii gözəlliklərə malikdir. 20 min nəfərdən artıq əhalisi olan Gorus şəhəri ətraf landşaftına görə çox cazibədardır. Bu şəhər Zəngəzurun və eləcə də Qarabağa gedən yolun kəsişmə nöqtəsində olub, mühüm tranzit mövqeyindədir. Gorusa Qafandan və Qarakilsə-Laçın dəhlizindən keçməklə çatmaq olar. Zəngəzurun ən gözəl və ən böyük su hövzəsi sayılan Qaragölün böyük bir hissəsi Gorus rayonunun ərazisindədir. Gorus təkcə Zəngəzurun deyil, bütün Qərbi Azərbaycanın ən yağıntılı bölgələrindəndir. Yayın ortasında burada havanın orta temperaturu 20 dərəcəyə yaxın olur ki, bu da şəhərdən gəlmiş turistlər üçün çox

cazibədardır. Təbiət baxımından Gorus şəhəri ətrafındakı Daş meşə olduqca turistik cazibə gücünə malikdir. Vulkanik proseslər nəticəsində formalaşmış qara və qəhvəyi rəngli daş sütunlar fotoqraf həvəskarları üçün sevimli yerdir. Hər il Ermənistan bu resursların istifadəsindən də külli miqdarda valyuta qazanır.

Gorusun digər görməli yerlərindən biri olan və XIII əsr tarixçisi Stepanos Orbelinin əsərlərində adıçəkilən, qədim Azərbaycan dilində "varlı" mənasını verən Xınzirək kəndi özünün daş mağaraları ilə çox cazibədardır. Bu böyük kəndin adını ermənilər özlərinə xas olan tərsliklə dəyişdirərək çətin tələffüz edilən bədnam "Xndzoresk" qoymuşlar. Əslində bununla bir şey dəyişməsə də, dəyişilən bu yaşayış yerinin əhalisinin ötən əsrin əvvəllərinə görə kəskin azalmasıdır. Belə ki, erməni mənbələrinə əsasən XX əsrin əvvəllərində burada 8 mindən çox əhali olsa da, 50-ci illərdə bu rəqəm 3 minə, hazırda isə 2 minə qədər azalıb ki, burada da azərbaycanlıların deportasiyasının izləri açıq görünməkdədir. Xınzirək kəndindəki daş mağaralar həm tarixi əhəmiyyəti, həm də təbii gözəllikləri ilə turistlərin diqqətini cəlb etsə də, təəssüf ki, müasir dövrdə ermənilər bu mağaraların üçdə ikisindən, özlərinə xas həyat tərzinə uyğun olaraq, təsərrüfat və ferma məqsədilə istifadə edir, mal-qara saxlayırlar ki, bu faktlara da turistlərin qeydlərində və fotolarında rast gəlinir.

Zəngəzurun digər bölgələri kimi, Gorus da zəngin tarixi keçmişə malikdir. Gorus toponimi türkmənşəli Qorus tayfasının adı ilə bağlıdır. Rayonda çox sayda türkmənşəli toponimlərə rast gəlinir. Belə ki, 1918-ci ilə qədər Gorus ərazisində 45 azərbaycanlı kəndi olmuşdur. 1988-ci ildə isə bu rayonda cəmisi 5 azərbaycanlı kəndi qalmışdır ki, onların da əhalisi həmin ilin sonunda deportasiya edilmişdilər. Onlardan hazırkı dövrdə adı tez-tez çəkilən Şurnux kəndi Gorus rayonunun ən böyük azərbaycanlı kəndi idi. Gorus şəhərindən 17 kilometr cənubda, Qafan-Gorus magistral yolunun

kənarındakı bu kənddə ən qədim zamanlardan 1989-cu ilədək yalnız azərbaycanlılar yaşamışdır. Hələ 1979-cu ilin əhali siyahıyaalınmasına görə, Gorusun bu ən böyük kəndində 120 təsərrüfat və 600-ə yaxın sakin olub. 1988-ci ilin sonunda burada yaşayan azərbaycanlıların köçürülməsindən sonra 80 erməni ailəsinin buraya köçürülməsi haqda, hətta İrəvanda çıxan "Kommunist" qəzetinin yaydığı xəbər də vardır.

Gorusun turizm cazibə elementlərindən ən mühümü şübhəsiz, burada bazalt qayalıq üzərində tikilmiş Tatev alban kilsəsidir. Gorusa 30 kilometr məsafədə, tarixi IX əsrdən məlum olan bu unikal memarlıq abidəsi orta əsrlərdə Zəngəzuru özünə tabe etdirmiş müxtəlif dövlətlər tərəfindən ələ keçirilib. Zəngəzura ermənilərin köçürülməsindən sonra burada saxta erməni mədəniyyətinin təbliğinə çalışılmış, hətta 1921-ci ildə burada Sovet hakimiyyətini tanımayan oyuncaq Dağlıq Ermənistan Respublikası da elan olunmuşdur. İndinin özündə də ermənilər Tatev kilsəsini bütün dünyaya özlərininkiymiş kimi tanıtmağa çalışaraq, burada geniş turizm infrastrukturu da yaratmağa çalışmışlar. Ancaq belə alban məbədləri təkcə Zəngəzurda deyil, bütün Qarabağda, o cümlədən Azərbaycanın digər yerlərində də vardır. Bərdə, Şəki, Qəbələ və digər rayonlarla yanaşı, Kəlbəcər rayonundakı XIII əsr Xudavəng memarlıq kompleksi, Laçın rayonunun Kosalar kəndindəki IX əsr Ağoğlan məbədi, Xocavənd rayonu Sos kəndindəki IV əsr Amaras monastırı, rayonun Tuğ kəndindəki X əsr Qırmızı məbəd alban memarlığının dövrümüzə qədər çatmış ən gözəl nümunələridirlər.

Ümumi ərazisi 4505 kvadratkilometr olan Zəngəzurun üçdəbir hissəsindən çoxu Qarakilsə (Sisiyan) rayonunun payına düşür. Rayon, eyni zamanda Qərbi Azərbaycanın da ən böyük rayonudur. Cənub-şərqdən Gorus, cənubdan Qafan rayonu, şimal-qərbdən Dərələyəzin ən yüksək zirvəsi olan Şahbuz rayonunun Kükü dağı ilə həmsərhəd olub, dörd

tərəfdən Zəngəzur və Bərgüşad silsilələri ilə əhatə olunub. Zəngəzurun ən bolsulu çayı olan Bazarçay bu rayonun ərazisindən keçir. Bazarçay axarı boyunca dar dərələrdən keçərək müxtəlif yerlərdə gözəl şəlalələr əmələ gətirir. Cənubi Qafqazdakı ən gözəl şəlalələrdən biri, 18 metr hündürlükdən tökülən Bazarçayın üzərində Şəki şəlaləsi də Qarakilsədədir.

Ermənilər Qarakilsəyə "Sisian" desələr də əslində, "Sisian" adı ilkin yazılı mənbələrin əksəriyyətində "Sisakan" kimi qeyd olunur. Bu ad ərəb, fars mənbələrində "Sisəcan", "Sisiyan", "Sisakan" şəklində çəkilmişdir. Sisiyanda rast gəlinən eradan əvvəl II-III minilliyə gedib çıxan qayaüstü rəsmlərin Krım və Qazaxıstan kurqanlarında tapılan rəsmlərə, Qobustan və Gəmiqaya abidələrinə oxşaması bu ərazilərin aborigen əhalisinin məhz türkdilli tayfalar, o cümlədən saklar olduğunu göstərir. Saklar isə ən böyük türk tayfalarından olub, eradan öncə IV-III minilliklərdən başlayaraq Çinin şimalından, Tibetdən Qazaxıstana, Krıma, Qara dəniz sahillərinə, eradan öncə I minillikdə isə Qafqaza qədər yayılmışlar. Başqa sözlə, tarixi mənbələrə əsasən, X əsrə qədər Zəngəzurda bir nəfər də erməni olmamışdır.

Qarakilsə erkən orta əsrlərdən başlayaraq müxtəlif müharibələrin mərkəzində olmuşdur. Ərəblərə qarşı Babəkin son döyüşlərinin aparıldığı Urud qalası və Babəkin tutularaq xilafətə təhvil verildiyi Şəki qalası da Qarakilsə rayonunun ərazisindədir. Qala Bazarçayın sahilində, Darvaztəpə dağının zirvəsində yerləşir. Şəki qalası Azərbaycanda eramızdan əvvəl VII-V əsrlərdə məskunlaşan Saka adlı türk tayfasının adını qoruyub saxlayıb. Şəki qalası həm də Qızıl Arslanla Nizami Gəncəvinin görüş yeridir.

1828-30-cu illərdə buraya da xeyli sayda erməni ailələri köçürülüb, Qarakilsənin müxtəlif kəndlərinə yerləşdirilib. Ancaq bununla yanaşı, rayondakı 58 yaşayış məntəqəsinin 53-də azərbaycanlılar yaşamışdır. 1918-ci ildə Andronikin terror dəstəsi burada yaşayan 12 min

azərbaycanlıdan 5 minə yaxınını qətlə yetirmiş, sonrakı dövrlərdə də soydaşlarımız burada təzyiqlərə məruz qalmışdır. Nəticədə 1988-ci ilə qədər Qarakilsənin yalnız 11 yaşayış məntəqəsində azərbaycanlılar yaşayırdı. Qızılcıq, Sofulu, Murğuz, Şıxlar, Ağüdü, Bağüdü, Urud, Ərəfsə, Comərdli, Dəstəgird, Şəki burada min illər boyu yaşamış azərbaycanlıların son yurd yerləri olub. 1988-ci ilin sonlarında bu kəndlərin sakinləri də zorla köçürülüblər. Halbuki bu kəndlərin əhalisi bir zamanlar Qarakilsədə mədəni həyat sürüb, təsərrüfatla məşğul olublar. Belə ki, təkcə 2 min nəfərin yaşadığı Ağüdü kəndində 1988-ci ilə qədər 300 yerlik müasir mədəniyyət evi, 700 şagirdin təhsil aldığı məktəb olub.

Comərdli Qarakilsənin azərbaycanlılar yaşamış dağ kəndlərindən biridir. Kənddən keçən Xırda çayı Qarakilsənin Ərəfsə kəndindən keçən Dəli çaya qovuşur və Bazar çaya tökülür. "Comərdli" kəlməsi kəndin əsasını qoymuş Comərd adlı kişinin adı ilə bağlıdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin ata yurdu olan Comərdli kəndində rəsmi statistikaya görə, 1988-ci ilə qədər 800 nəfərdən çox sakin yaşamışdır. 1918-ci ilin yayında Andronikin daşnak qoşunu Comərdli kəndinə də hücum etmiş, lakin sakinlərin sərt müqaviməti ilə rastlaşmışdır. Sovet dövründə Comərdlidə yaşayan azərbaycanlılar buradaki Şırran bulaq, Əli bulağı, Sarı bulaq, Xırda çay, Təknə göl, Laləli bulağı, Sandıq daş, Qoyun dağılan, Çala yurd, Dəvə boynu, Ərzurum, Gamışuçan, Vənlidərə, Sallıq, Qaravışdaşı, Əhmədyoxuşu, Səlimgədiyi kimi türkmənşəli adları qoruyub saxlamışlar. 1988-ci ilin dekabr ayında çox sayda tanınmış elm və ictimai xadimlərin vətəni olmuş Comərdli kəndini də ermənilər işğal və talan etdilər.

Qarakilsənin Şəki kəndi Zəngəzurun ən qədim və ən böyük azərbaycanlı kəndlərindən biridir. Kənd özünün bulaqları ilə çox tanınır. Kəndin iki min ildən çox yaşı olduğu güman edilir. Kənddə Sovet hökuməti qurulana qədər böyük

ruhani məktəbi olub. 1988-ci ildə bu kəndin 1700 nəfərə yaxın sakini də təzyiqlərə məruz qalıb, həmin ilin noyabrın 24-dən 25-nə keçən gecə Şəki camaatı bir gecədə öz doğma yurdlarından çıxarılıblar. Eyni faciəvi hadisələr rayonun Urud, Dəstəgird və digər kəndlərində də baş verib.

Turizm baxımından Qarakilsədə mövcud olan ən mühüm tanışlıq obyekti buradakı Qoşundaş abidəsidir. Neolit dövrünə aid olduğu ehtimal edilən abidə dik dayanmış 200-dən artıq nəhəng daşlardan ibarətdir. Dairəvi formada düzülmüş daşların hündürlüyü təxminən 1,5-2,2 metr, eni 60-80 santimetrdir. Daşlarının bəzilərinin ağırlığı 10 tona qədər olan bu unikal abidəyə ermənilər sonralar iyrənc ad yapışdıraraq onu turistlərə tanıdır, külli miqdarda qazanc əldə edirlər. Ümumilikdə, Qarakilsədə qayaüstü rəsmlər və daş qoç abidələr də geniş yayılıb ki, bunlar rayonun digər kəndlərində sıx rast gəlinməkdədir.

Yüz dəfə eşitməkdənsə, bir dəfə gedib görmək yaxşıdır. Gələcəkdə Qərbi Zəngəzurun turizm ehtiyatları özünün bənzərsiz cazibədarlığı ilə hər bir azərbaycanlı səyahətsevərin diqqətində olacaq. Bu marşrut üzrə turistlər üçün maraqlı olan turizm növlərindən biri, şübhəsiz, etnik turizm olacaq. Kifayət qədər uzun müddətdə öz ata-baba yurdlarından uzaq düşmüş azərbaycanlıların öz yaxınlarını və ya onların məzarlarını ziyarət etmək üçün çıxdıqları səyahət növü olan etnik turizm bu mənada Zəngəzur və eləcə də bütün Qərbi Azərbaycan torpaqlarını bir daha görmək istəyən turistləri özünə cəlb edəcək. Etnik baxımdan təəssüf ki, azərbaycanlıların burada yaşayan yaxınları daha qalmasa da, əvəzində hər kənddə, hər şəhərdə onlara doğma olan insanların məzarları vardır.

***"Respublika" qəzeti, 22 yanvar 2023-cü il***
***https://respublika-news.az/news/1674374077-zengezurun-turizm-potensiali***

# Dünyada ekofəallıq: onun təkamülü və fəlsəfi-sosioloji zəmini

Yaşadığımız dünyanın vahid bir parçası olduğunu dərk edən insan hələ çox qədim dövrlərdən ətraf mühitin mühafizəsi üçün müxtəlif yollar axtarmışdır. Buna görə də bu gün planetin bir çox yerində, o cümlədən doğma Qarabağda ekofəalların dinc aksiyasının mahiyyəti, əsl məqsədi və tarixi-sosioloji-fəlsəfi və həmçinin iqtisadi əhəmiyyəti barədə suallar maraq doğurur. Əslində, bütün ekoloji aksiyalar təbiət-insan vəhdətində sağlam düşüncənin qalib gəlməsidir. Tarixə qısa ekskursiya bunu deməyə əsas verir.


20 yanvar 2023-cü il RESPUBLİKA

Dünyada ekofəallıq: onun təkamülü və fəlsəfi-sosioloji zəmini



Tarixi mənbələrə əsasən, hələ qədim Roma dövründə havanın və suyun çirklənməsi kimi problemlərin insan həyatına təsiri ilə bağlı narahatlıqların olduğu, iki min il əvvəl Çində, Hindistanda torpağın qorunması üçün bir sıra addımlar atıldığı məlumdur. Avropada orta əsrlərdə baş vermiş epidemiyalar da o zamanlar ətraf mühitin çirklənməsinə qarşı mübarizəni gündəmə gətirmişdi.

İlk ekoloji hərəkat XIX əsrin sonlarında Avropada kənd yaşayış yerlərinin və ABŞ-da vəhşi təbiətin qorunması və təbii sənaye inqilabı zamanı çirklənmə ilə bağlı narahatlıqlardan yaranmışdır. O zamanlar insanlar düşünürdülər ki, hökumət iqtisadi problemlərin həlli ilə yanaşı, ətraf mühitin və təbii ehtiyatların qorunmasına da məsuliyyət daşımalıdır. Belə ki, ABŞ Meşə Xidmətinin ilk rəisi Gifford Pinchot (1865-1946) tərəfindən hazırlanmış resursların mühafizəsinin ilk fəlsəfi düşüncələri təbii

resurslardan ağıllı və səmərəli istifadəni özündə ehtiva edirdi. Daha sonra ABŞ-da həyata keçirilən digər ekoloji tədbirlər, toxunulmamış meşə ərazilərinin qoruma altına alınması, biosentrik fəlsəfənin əsasını qoydu. Beləliklə, təbiəti mühafizə işlərinin bioloji aspektləri ilə məşğul olan elmi təşkilatlarla yanaşı, əsasən vəhşi təbiətin mühafizəsi, sənayenin inkişafı və urbanizasiya nəticəsində yaranan və çirklənmə ilə məşğul olan orta səviyyəli lobbi qrupları da fəaliyyət göstərməyə başladı. Və bu sahədə də ABŞ dünyaya liderlik etsə də, Avropa və Okeaniyada da mühüm layihələr həyata keçirilmişdir.

1960-cı illərdən başlayaraq ətraf mühitin qorunması üzrə təkamül edən müxtəlif fəlsəfi istiqamətlər fəal qeyri-hökumət təşkilatları və ekologiyayönümlü siyasi partiyalar şəklində "yaşıl" siyasi hərəkatların yaradılması üçün özündə güc tapdı. Bu hərəkatların müxtəlifliyinə baxmayaraq, onları birləşdirən ana xətt ətraf mühitin qorunması, bu istiqamətdə qərarların verilməsində demokratiya, sosial ədalət və zorakılığa qarşı birgə mübarizə idi. Onların bu hərəkatına ekoterrorizmə, ağacların kəsilməsinə və mədən sənayesi tərəfindən təbiətin korlanmasına (hazırda Qarabağda və Almaniyadakı kimi) qarşı haqlı mübarizə kimi baxılırdı. Həmçinin, ekoaksiyalar cəmiyyətdə insanların ən təməl demokratik haqqı kimi də qəbul olunur və dəstəklənir. Bütün bunların əsasında isə insanın təbiətə kobud müdaxiləsindən sonra onun ilkin, əvvəlki görüntüsündən uzaqlaşması və bugünkü açıq görünən fəsadların yaranması dayanırdı.

Buna misal olaraq 1970-ci və 1980-ci illərdə Tasmaniyada Pedder gölünün daşmasının və Franklin çayının bəndinin qarşısını almaq üçün keçirilən etiraz kampaniyalarını, 28 mart 1979-cu ildə ABŞ-dakı Üç Mil adasında və 26 aprel 1986-cı ildə Çernobıldа baş vermiş atom qəzalarından sonra ABŞ və Qərbi Avropada nüvə enerjisinin inkişafına qarşı etirazları, Avstraliyanın şimalında, o cümlədən Cabiluka mədənində uran hasilatı ilə bağlı aborigen

xalqların həyatına yaranan problemlərlə əlaqədar onilliklər boyu davam edən etirazları göstərmək olar. İndoneziyada və Braziliyanın Amazon hövzəsində meşələrin qırılmasına qarşı etirazlar, insan fəaliyyəti nəticəsində havaya buraxılan istixana qazlarının törətdiyi iqlim dəyişikliyi ilə əlaqədar Azərbaycanın da fəal olduğu hərəkatlar bu qəbildəndir.

Bütün bunlara əsaslanaraq ekoaksiyaların humanitar məqsədini insan hüquqlarının qorunması kimi də izah etmək mümkündür. Belə ki, Hindistanda meşələrin mühafizəsini qadınların hüquqları ilə əlaqələndirən Çipko hərəkatını və insanların ətraf mühit və inkişaf məsələlərində iştirak etmək hüququ uğrunda mübarizə aparan Taylanddakı koalisiya tipli Yoxsullar Assambleyasını qeyd etmək olar.

İnkişaf etmiş ölkələrdə isə ekohərəkatlar siyasi mübarizə zəminində seçki elektoratı toplamaq, əhalinin bu sahədə həssas təbəqəsinin səslərini qazanmaq üçün güclü bir vasitə kimi indi də istifadə olunur. Yaradılan "yaşıl" partiyalar öz siyasətini müəyyənləşdirərkən ekoloji fəlsəfənin dəyərlərini ölkələrinin qarşısında duran bütün məsələlərə, o cümlədən xarici siyasət, müdafiə, sosial və iqtisadi siyasətlərə tətbiq etməyə çalışırlar. 1970-ci illərin əvvəllərində seçkilərdə ekoloji düşüncəli namizədlərin də irəli sürülməsi və "yaşıl" siyasi partiyaların qeydiyyata alınması bunun bariz nümunəsidir. Bu partiyalar ətraf mühitin mühafizəsi hərəkatını bilavasitə hökumətin icra mexanizminə daxil edərək ətraf mühitin qorunmasını dövlət siyasətinin mərkəzi məsələsinə çevirəcək və dövlət institutlarını daha demokratik hala gətirəcək yeni bir siyasi təşkilatlar kimi formalaşmışdır. Bu baxımdan, dünyanın ilk "yaşıl" partiyaları kimi Yeni Zelandiyada milli əsaslı partiya olan Dəyərlər Partiyası və Avstraliyanın Tasmaniya əyalətində təşkil edilən Birləşmiş Tasmaniya Qrupunu misal göstərmək olar. Daha sonra 1979-cu ildə İsveçrədə milli qanunverici orqanına ilk açıq fikirli "yaşıl üzv" seçildi. 1990-cı illərin ortalarında "yaşıllar"

Dublin və Roma kimi Avropanın paytaxt şəhərlərində mer vəzifəsinə də iddia etdilər. 1981-ci ildə isə dörd "yaşıl üzv" Belçikada qanunverici orqanda müxtəlif yerlər qazandı. Avropada ən uğurlu ekoloji partiya isə 1980-ci ildə qurulan Almaniya Yaşıllar Partiyası (die Grünen) olmuş, 1998-ci ildə onlar Sosial Demokrat Partiyası ilə hakim koalisiya yaradaraq partiyanın lideri Yoşka Fişer ilə ölkənin xarici işlər naziri vəzifəsini də qazanmışdılar.

1980-ci illərin sonlarından başlayaraq ekofəallıq bütün dünyada həm qlobal, həm də milli siyasi qüvvəyə çevrildi. Bəzi ekoloji qeyri-hökumət təşkilatları, məsələn, "Greenpeace", "Yer Dostları" və "Ümumdünya Vəhşi Təbiət Fondu" öz lobbiçilik kampaniyalarını koordinasiya etmək üçün bütün dünyada ofislər və mərkəzləşdirilmiş qərargahlar yaradaraq əhəmiyyətli beynəlxalq qurumlar kimi, sivil dövlətlər və onların hökumətləri ilə əlaqəli şəkildə işləməyə başladılar. Buna təsir edən mühüm faktorlardan biri isə şübhəsiz ekodüşüncənin artıq beynəlxalq səviyyədə dəstəklənməsi olmuşdur. Belə ki, 1972-ci ildə Birləşmiş Millətlər Təşkilatının Stokholmda keçirilən İnsan Ətraf Mühit Konfransından sonra dünyada çoxtərəfli ekoloji sazişlərin bağlanılması və öhdəliklərin götürülməsi daha da sürətləndi. Nəticədə, 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən 180-ə yaxın ölkənin və müxtəlif biznes qruplarının, qeyri-hökumət təşkilatlarının iştirak etdiyi Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit və İnkişaf üzrə Konfransı (Yer Sammiti) ətraf mühitlə bağlı ictimai müzakirələrin xarakterini dəyişərək ona tamamilə yeni bir mahiyyət verdi. 1997-ci ilin dekabrında Yaponiyanın Kyoto şəhərində qlobal iqlim dəyişikliyinə qarşı birgə tədbirlərin keçirilməsi məqsədilə 192 ölkənin bağladığı müqavilə, bundan sonra həmin istiqamətdə BMT səviyyəsində keçirilən sammitlər, həmçinin, 2008-ci ildə təsis olunmuş və dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, sərmayəçiləri, iş adamlarını və

gəncləri aktual məsələlərin müzakirəsi üçün bir araya gətirən və ötən günlərdə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin də açılış mərasimində iştirak etdiyi Əbu-Dabi Dayanıqlılıq Həftəsi bu sahədəki ən mühüm beynəlxalq platformalardandır.

Göründüyü kimi, bütün bu mühüm beynəlxalq ekoloji məzmunlu mötəbər tədbirlər son 30 ildə daha böyük əhəmiyyət kəsb etmiş və SSRİ-nin dağılması ilə yeni üzvlərlə güc qazanmışdır. Onu da qeyd etmək yerinə düşər ki, özünün qeyri-ekoloji addımları, təbii resurslardan rasional deyil, hərc-mərcliklə istifadəsi ilə tarixdə qara ləkə qoymuş SSRİ-də və keçmiş sosialist blokunda bu sahədə inkişaf zəif olmuşdur. Bu baxımdan, bu gün həmin rejimin son tör-töküntüsü olan Ermənistanda hələ də fəaliyyətdə olan köhnə texnologiyalı və bütün bölgə üçün təhlükə yaradan Metsamor Atom Elektrik Stansiyasına, eləcə də Qərbi Zəngəzurdakı Qafan mis-molibden mədənlərinin vəhşicəsinə istismarına və Qarabağın yeraltı və yerüstü sərvətlərinin talanmasına göz yuman hayların ekoloji mədəniyyətsizliyi heç də təəccüb doğurmur.

Bəli, bu gün ekoloji prinsiplər cəmiyyətin dayanıqlı inkişafının əsas təməl sütunlarından biridir. Artıq coğrafi yerləşməsindən və inkişaf səviyyəsindən asılı olmayaraq bütün bəşəriyyət başa düşür ki, yaşadığımız Yer kürəsi hamımızın ortaq evidir. Ona görə də, bir gün Avropa İttifaqında olduğu kimi, bütün dünyada sərhədlər şərti olduğu zaman insanlar keçmişdə atılan ekoloji addımlara qiymət verəndə kimlərisə alqışlayacaq, kimlərəsə lənət oxuyacaqlar. Gəlin, elə addımlar ataq ki, həmişə alqışlanaq.

Bu gün Laçın-Xənkəndi yolundakı ekofəal gənc dostlarımız kimi...

***"Respublika" qəzeti, 20 yanvar 2023-cü il***
***https://respublika-news.az/news/dunyada-ekofealliq-onun-tekamulu-ve-felsefi-sosioloji-zemini***

## Münxen Təhlükəsizlik Konfransından dünyaya verilən ən sərrast ismarış

Bir ilə yaxın müddətdə Rusiyanın Ukraynaya qarşı davam edən birbaşa hərbi müdaxiləsi və qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələnin vurduğu yaraların sarılması fonunda gündəmə gələn 59-cu Münxen Təhlükəsizlik Konfransı dünyada, eləcə də Avropada davamlı sülh və əməkdaşlıq məsələləri baxımından önəmli bir diskussiya platforması kimi ötən həftənin önəmli hadisələrindən biri oldu. Qlobal güc mərkəzlərinin qanlı hesablaşmalarının hələ də davam etdiyi bir dövrdə təhlükəsiz dünyanın qurulması layihəsinə xidmət edən bu prestijli platformanın gündəmində Cənubi Qafqazın da gələcəyinin müzakirəsi istər ölkəmizdə, istərsə də dünyada böyük maraq doğurdu. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu önəmli beynəlxalq toplantıdan verdiyi ismarışlar Ermənistana və onun havadarlarına layiq olduqları yeri göstərmək, ölkəmizlə hansı dillə danışmağı bilmək və atdıqları addımların sabah nə verəcəyi baxımından önəmli bir hadisə oldu. Xüsusən revanşist ölkənin baş nazirini gülünc vəziyyətə salan "quş buraxmaları" ilə yadda qalmış 2020-ci ilin 15 fevralındakı birinci nokautdan və həmin ilin 10 noyabr kapitulyasiyasından da nəticə çıxarmayan erməni lider Paşinyan üçün bu toplantı Azərbyacan Respublikası Prezidentindən aldığı cavablar nəticəsində yaşamış olduğu üçüncü nokaut kimi tarixə düşdü.

Ancaq iştirakçı sayına görə ən çox liderin və tanınmış ictimai-siyasi xadimin qatıldığı Münxen Təhlükəsizlik Konfransının budəfəki toplantısı həm də region hegemonu Rusiyanın heç bir birbaşa təması olmadan üç Cənubi-Qafqaz ölkəsi liderinin bir yerə toplanması və eləcə də cənub qonşumuz İrandakı molla rejiminin yürütdüyü siyasətə qarşı dünyada formalaşdırılan yeni siyasi konfiqurasiyanın da aktiv mərhələyə keçməsi ilə yadda qaldı. Şübhəsiz, hər bir dövlətin

özünün maraqları və ölkəsinin qatıldığı beynəlxalq əməkdaşlıq platformalarında güddüyü milli mənafelər baxımından keçirilən belə tədbirlərin əhəmiyyəti əski dünyadakı acı təcrübələrdən dərs çıxarmaq və gələcəkdə insanların yalnız qorxulu təbii fəlakətlərə qarşı mübarizə aparmaq lazım gəldiyini görmək baxımından önəmli idi. Belə ki, bu gün bütün dünya qardaş Türkiyədəki zəlzələdə həlak olan 40 mindən artıq insanın həyatı üçün üzülüb, ona dəstək olduğu halda bir il davam edən Rusiyanın Ukraynaya hərbi təcavüzü nəticəsində hər iki tərəfdən 300 mindən artıq insanın həlak olması, Ukraynanın kritik infrastruktur obyektlərinə dəyən yüz milyardlarla zərərin daha da artmaması üçün praktik olaraq heç bir iş görülməməsi, sadəcə, təəssüf doğurur. Məhz buna görə də konfransda xalqlar arasında davamlı sülhün yaradılması üçün ƏDALƏT formulunun tapılması baxımından edilən səylər gələcək əməkdaşlıq baxımından əhəmiyyətli idi. Buna görə də dövlət başçımızın təkcə keçmişdə qalmış Qarabağ münaqişəsindən sonra məğlub Ermənistanla sülh müqaviləsinin bağlanılması, eləcə də Azərbaycanın etibarlı partnyor kimi Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına verdiyi töhfələr baxımından verdiyi açıqlamalar da bu konfrans iştirakçılarının və medianın ciddi marağına səbəb oldu. Bunun əksinə, hər dialoqda olduğu kimi, bu dəfə də sülh prosesini bilərəkdən uzatmağa, bunun üçün müxtəlif bəhanələr gətirib hələ də keçmiş xəyallarla yaşayan erməni liderinin moderatorun davam edən Rusiya-Ukrayna müharibəsi ilə bağlı sualını


**Münxen Təhlükəsizlik Konfransından dünyaya verilən ən sərrast ismarış**

Bir ilə yaxın müddətdə Rusiyanın Ukraynaya qarşı davam edən birbaşa hərbi müdaxiləsi və qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələnin vurduğu yaraların sarılması fonunda gündəmə gələn 59-cu Münxen Təhlükəsizlik Konfransı dünyada, eləcə də Avropada davamlı sülh və əməkdaşlıq məsələləri baxımından önəmli bir diskussiya platforması kimi ötən həftənin önəmli hadisələrindən biri oldu. Qlobal güc mərkəzlərinin qarşılıqlı hesablaşmalarının hələ də davam etdiyi bir dövrdə təhlükəsiz dünyanın qurulması layihəsinə xidmət edən bu prestijli platformanın gündəmində Cənubi Qafqazın da gələcəyinin müzakirəsi istər ölkəmizdə, istərsə də dünyada böyük maraq doğurdu. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu önəmli beynəlxalq toplantıdan verdiyi ismarışlar Ermənistana və onun havadarlarına layiq olduqları yeri göstərmək, ölkəmizlə hansı dillə danışmağı bilmək və atdıqları addımların sabah nə verəcəyi baxımından önəmli bir hadisə oldu. Xüsusən revanşist ölkənin baş nazirini gülünc vəziyyətə salan "quş buraxmaları" ilə yadda qalmış 2020-ci ilin 15 fevralındakı birinci nokautdan və həmin ilin 10 noyabr kapitulyasiyasından da nəticə çıxarmayan erməni lider Paşinyan üçün bu toplantı Azərbaycan Respublikası Prezidentindən aldığı cavablar nəticəsində yaşamış olduğu üçüncü nokaut kimi tarixə düşdü.

Ancaq iştirakçı sayına görə ən çox liderin və tanınmış ictimai-siyasi xadimin qatıldığı Münxen Təhlükəsizlik Konfransının budəfəki toplantısı həm də region hegemonu Rusiyanın heç bir birbaşa təması olmadan üç Cənubi-Qafqaz ölkəsi liderinin bir yerə toplanması və eləcə də cənub qonşumuz İrandakı molla rejiminin yürütdüyü siyasətə qarşı dünyada formalaşdırılan yeni siyasi konfiqurasiyanın da aktiv mərhələyə keçməsi ilə yadda qaldı. Şübhəsiz, hər bir dövlətin özünün maraqları və ölkəsinin qatıldığı beynəlxalq əməkdaşlıq platformalarında güddüyü milli mənafelər baxımından keçirilən belə tədbirlərin əhəmiyyəti əski dünyadakı acı təcrübələrdən dərs çıxarmaq və gələcəkdə insanların yalnız qorxulu təbii fəlakətlərə qarşı mübarizə aparmaq lazım gəldiyini görmək baxımından önəmli idi. Belə ki, bu gün bütün dünya qardaş Türkiyədəki zəlzələdə həlak olan 40 mindən artıq insanın həyatı üçün üzülüb, ona dəstək olduğu halda bir il davam edən Rusiyanın Ukraynaya hərbi təcavüzü nəticəsində hər iki tərəfdən 300 mindən artıq insanın həlak olması, Ukraynanın kritik infrastruktur obyektlərinə dəyən yüz milyardlarla zərərin daha da artmaması üçün praktik olaraq heç bir iş görülməməsi, sadəcə, təəssüf doğurur. Məhz buna görə də konfransda xalqlar arasında davamlı sülhün yaradılması üçün ƏDALƏT formulunun tapılması baxımından edilən səylər gələcək əməkdaşlıq baxımından əhəmiyyətli idi. Buna görə də dövlət başçımızın təkcə keçmişdə qalmış Qarabağ münaqişəsindən sonra məğlub Ermənistanla sülh müqaviləsinin bağlanılması, eləcə də Azərbaycanın etibarlı partnyor kimi Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına verdiyi töhfələr baxımından verdiyi açıqlamalar da bu konfrans iştirakçılarının və medianın ciddi marağına səbəb oldu. Bunun əksinə, hər dialoqda olduğu kimi, bu dəfə də sülh prosesini bilərəkdən uzatmağa, bunun üçün müxtəlif bəhanələr gətirib hələ də keçmiş xəyallarla yaşayan erməni liderinin moderatorun davam edən Rusiya-Ukrayna müharibəsi ilə bağlı sualını "Ukraynadakı münaqişə" kimi dəyərləndirməsi hayların Münxen kimi Avropanın orta göbəyində otursalar da, belə Kremlin şəbəkə xaricindən kənara çıxa bilmələrinin bir sübutu idi. Rusiyanın qorxusundan bu dəhşətli işğalı "Ukraynanın daxili münaqişəsi" kimi qələmə verməyə çalışan erməni liderin Azərbaycanın Qarabağ bölgəsinə hələ də burun soxması cəhdləri də onun sülh prosesinə nə qədər hazırlıqsız gəlməsini açıqca göstərirdi.

Erməni baş nazirin təkcə ingilis dilində deyil, bütün liderlik parametrlərində sinifdə qalması onun sahib olduğu erməni düşüncəsinin dəyişilməməsi və məsələyə ənənəvi olaraq "ermənicə" yanaşmasından qaynaqlansa da, moderatorun, bəlkə də, bilərəkdən provokativ suallar verməsindən cəsarətlənərək Zəngəzur dəhlizinin açılmaması ilə bağlı inad edərək kimlərə güvənməsi heç kimə sirr deyildi. İran! Bəli, özünün ermənipərəst siyasətini hər zaman Azərbaycan özünün dövlət müstəqilliyini elan edəndən sonra dərhal büruzə verən, bundan sonra Qarabağın işğalı dövründə azərbaycanlıların qəsb olunmuş əmlakını bazarlarında xırıd edən İran, hətta 44 günlük Vətən müharibəsində belə işğalçını açıqca dəstəkləməkdən çəkinmədi. Azərbaycan Ordusunun parlaq qələbəsindən sonra özünə gələ bilməyən Ermənistandan da pis mənəvi vəziyyətə düşən molla rejimi ölkəmizlə sərhəddə hərbi təlimlər keçirib, Araza ponton körpü salmağa cəsarət etdi. Tehrandakı Azərbaycan Respublikasının səfirliyinə təşkil olunmuş və bir nəfərin ölümü, iki nəfərin yaralanması ilə nəticələnmiş xain terror əməli isə molla rejiminin Azərbaycana qarşı tutduğu şovinist mövqeyi tamamilə ifşa edir. Özünün qədim dövlətçilik tarixi, siyasi təcrübəsi ilə öyünən bu rejimin bütün bu bədnam çılpaqlıqlar fonunda revanşist Ermənistanla yaxınlaşmasını isə təkcə liderlərinin qucaqlaşması səviyyəsində deyil, bəlkə də, "konyak diplomatiyası" kimi aşağı dərəcədə də düşünmək təəccüblü olmaz. Axı bu gün kasıb Ermənistana səfər edən iranlı turistlərin dilə gətirə bilmədiyimiz "əsas motivlərinin" nə olduğunu təkcə biz yox, bütün dünya bilir.

Bəs belə bir vəziyyətdə mövcud konyunktur nəyi vəd edir?! Azərbaycan tərəfi Laçın dəhlizi üzərindəki yolun tikintisini vaxtından qabaq, yüksək keyfiyyətlə tikdiyi kimi Zəngəzur dəhlizi üzrə bütün işləri də sürətlə aparmaqdadır. Ölkəmizin təbii sərvətlərinin talanmasının qarşısını almaq üçün davam edən ekoaksiyanın istəyimizə çatana qədər davam edəcəyini vurğulayan ölkə başçımız bu istiqamətdəki qətiyyətliliyini bu toplantıda bir daha ortaya qoydu. Qafandakı İran Konsulluğunun binasını təmir etməyə maddi imkanı olmayan Ermənistanın isə Türkiyədəki zəlzələdən əziyyət çəkənlərə yardım bəhanəsi ilə yeni bir siyasi həmlə işlətməsi, fikrimizcə, bu diskussiyada moderatordan başqa heç kimə səmimi gəlmədi. Çünki zaman-zaman cənublu, şimallı bütün "ağa"larına alət olmuş Ermənistanın bu zəlzələ qurbanları üzərindən də sağlam qonşuluq münasibətləri və sırf humanitar addımlar atacağına heç kim inanmırdı.

Və beləcə, yumşaq desək, üzərindəki işğalçı etiketindən utanmayıb, kapitulyant sözündən özünü təhqir olunmuş hesab edən Paşinyanın üçüncü nokautla üzləşdiyi Münxen Təhlükəsizlik Konfransının plenar iclasına son nöqtəni qoyan ölkə başçımız cənab İlham Əliyevin sözləri öz damğasını vurdu: ***"Azadlıq istəyən xalqı işğal etmək mümkün deyil. Necə ki biz 28 il gözlədik, onlar da gözləyə bilərlər. Lakin gün gələcək, onlar öz torpaqlarına qayıdacaq, işğalçını vurub çıxaracaq və öz bayraqlarını onlara aid olan bütün tarixi binalara sancacaqlar"***. Bu, əslində, bölgədə azadlıq mübarizəsi aparan xalqlara, onların liderlərinə göndərilən ən sərrast ismarış idi.

"Şərq qapısı"

“Ukraynadakı münaqişə” kimi dəyərləndirməsi hayların Münxen kimi Avropanın orta göbəyində otursalar da, belə Kremlin şəbəkə xaricindən kənara çıxa bilməmələrinin bir sübutu idi. Rusiyanın qorxusundan bu dəhşətli işğalı “Ukraynanın daxili münaqişəsi” kimi qələmə verməyə çalışan erməni liderin Azərbaycanın Qarabağ bölgəsinə hələ də burun soxması cəhdləri də onun sülh prosesinə nə qədər hazırlıqsız gəlməsini açıqca göstərirdi.

Erməni baş nazirin təkcə ingilis dilində deyil, bütün liderlik parametrlərində sinifdə qalması onun sahib olduğu erməni düşüncəsinin dəyişilməməsi və məsələyə ənənəvi olaraq “ermənicə” yanaşmasından qaynaqlansa da, moderatorun, bəlkə də, bilərəkdən provokativ suallar verməsindən cəsarətlənərək Zəngəzur dəhlizinin açılmaması ilə bağlı inad edərək kimlərə güvənməsi heç kimə sirr deyildi. İran! Bəli, özünün ermənipərəst siyasətini hər zaman Azərbaycan özünün dövlət müstəqilliyini elan edəndən sonra dərhal büruzə verən, bundan sonra Qarabağın işğalı dövründə azərbaycanlıların qəsb olunmuş əmlakını bazarlarında xuruş edən İran, hətta 44 günlük Vətən müharibəsində belə işğalçını açıqca dəstəkləməkdən çəkinmədi. Azərbaycan Ordusunun parlaq qələbəsindən sonra özünə gələ bilməyən Ermənistandan da pis mənəvi vəziyyətə düşən molla rejimi ölkəmizlə sərhəddə hərbi təlimlər keçirib, Araza panton körpü salmağa cəsarət etdi. Tehrandakı Azərbaycan Respublikasının səfirliyinə təşkil olunmuş və bir nəfərin ölümü, iki nəfərin yaralanması ilə nəticələnmiş xain terror əməli isə molla rejiminin Azərbaycana qarşı tutduğu şovinist mövqeyi tamamilə ifşa edir. Özünün qədim dövlətçilik tarixi, siyasi təcrübəsi ilə öyünən bu rejimin bütün bu bədnam çılpaqlıqlar fonunda revanşist Ermənistanla yaxınlaşmasını isə təkcə liderlərinin qucaqlaşması səviyyəsində deyil, bəlkə də, “konyak diplomatiyası” kimi aşağı dərəcədə də düşünmək təəccüblü olmaz. Axı bu gün kasıb Ermənistana səfər edən

iranlı turistlərin dilə gətirə bilmədiyimiz "əsas motivlərinin" nə olduğunu təkcə biz yox, bütün dünya bilir.

Bəs belə bir vəziyyətdə mövcud konyunktur nəyi vəd edir?! Azərbaycan tərəfi Laçın dəhlizi üzərindəki yolun tikintisini vaxtından qabaq, yüksək keyfiyyətlə tikdiyi kimi Zəngəzur dəhlizi üzrə bütün işləri də sürətlə aparmaqdadır. Ölkəmizin təbii sərvətlərinin talanmasının qarşısını almaq üçün davam edən ekoaksiyanın istəyimizə çatana qədər davam edəcəyini vurğulayan ölkə başçımız bu istiqamətdəki qərarlılığını bu toplantıda bir daha ortaya qoydu. Qafandakı İran Konsulluğunun binasını təmir etməyə maddi imkanı olmayan Ermənistanın isə Türkiyədəki zəlzələdən əziyyət çəkənlərə yardım bəhanəsi ilə yeni bir siyasi həmlə işlətməsi, fikrimizcə, bu diskussiyada moderatordan başqa heç kimə səmimi gəlmədi. Çünki zaman-zaman cənublu, şimallı bütün "ağa"larına alət olmuş Ermənistanın bu zəlzələ qurbanları üzərindən də sağlam qonşuluq münasibətləri və sırf humanitar addımlar atacağına heç kim inanmırdı.

Və beləcə, yumşaq desək, üzərindəki işğalçı etiketindən utanmayıb, kapitulyant sözündən özünü təhqir olunmuş hesab edən Paşinyanın üçüncü nokautla üzləşdiyi Münxen Təhlükəsizlik Konfransının plenar iclasına son nöqtəni qoyan ölkə başçımız cənab İlham Əliyevin sözləri öz damğasını vurdu: ***"Azadlıq istəyən xalqı işğal etmək mümkün deyil. Necə ki biz 28 il gözlədik, onlar da gözləyə bilərlər. Lakin gün gələcək, onlar öz torpaqlarına qayıdacaq, işğalçını vurub çıxaracaq və öz bayraqlarını onlara aid olan bütün tarixi binalara sancacaqlar".*** Bu, əslində, bölgədə azadlıq mübarizəsi aparan xalqlara, onların liderlərinə göndərilən ən sərrast ismarış idi.

***"Şərq Qapısı" qəzeti, 21 fevral 2023-cü il***
***http://e-kitab.ameanb.nmr.az/QezetSekilleri/21-02-2023_20-02-2023_20-56-10.pdf***

# 24 fevral – rus tarixinin qara səhifəsi

Özünün üç yüz illik imperiya xəstəliyi ilə Misirdən Vyetnama, Koreyadan Kubaya, Əfqanıstandan Köniqsberqə, Alyaskadan Suriyaya qədər hər yerdə qanlı izlər qoymuş rus şovinizminin iti qılıncı ən son geniş Ukrayna bataqlıqlarına sancılıb qalıb. Bu gün, 24 fevral Rusiyanın qardaş xalqı Ukraynaya xain hücumunun bir ili tamam olur.

Hər iki tərəfdən indiyə qədər ən azı 300 min insanın həlak olması və Ukrayna iqtisadiyyatına, onun mülki infrastrukturuna dəyən yüz milyardlarla dollar zərərlə ölçülən bu dəhşətli qardaş qırğını dinc ukraynalıların başına gətririlən facilərlə yanaşı özünün arxazəmini, dünya siyasətinin böyük oyunçularının məkrli məqsədləri və sadə rusların işğal məqsədli müharibəyə başlədiyi nifrətlə hələ uzun müddət tarix səhifələrində qalacaqdır. Kreml təbliğat maşının, onun Simonyan, Solovyov kimi şoumenlərinin iddialarının əksinə, istənilən halda, indiki qloballaşma və sürətli informasiya mübadiləsi dövründə bu müharibə bir gün sonra dayansa belə, o, rus xalqının tarixi üçün qara ləkədən savayı heç nə olmayacaq.


24 fevral - rus tarixinin qara səhifəsi

24-02-2023 [23:50]

Əli Cabbarov,

"Naxçıvan" Universitetinin dosenti

*Xüsusi olaraq, Mia.az saytı üçün*

***

Özünün üç yüz illik imperiya xəstəliyi ilə Misirdən Vyetnama, Koreyadan Kubaya, Əfqanıstandan Köniqsberqə, Alyaskadan Suriyaya qədər hər yerdə qanlı izlər qoymuş rus şovinizminin iti qılıncı ən son geniş Ukrayna bataqlıqlarına sancılıb qalıb. Bu gün, 24 fevral Rusiyanın qardaş xalqı Ukraynaya xain hücumunun bir ili tamam olur.

Rusiyanın Ukraynaya hücumu 2014-cü ildə Kiyevdə baş vermiş inqilabi çevrilişdən qəzəblənən rus liderinin guya Donbas və ona yaxın əarzilərdən yaşayan etnik rusların dırnaqarası xilas olunması ilə izah olunsa da əslində daha geriyə baxanda bu müharibənin gec-tez nə zamansa olacağı bəlli idi. SSRİ dağılanda yıxılan qoca devin Qazaxıstan, Gürcüstan və Azərbaycanda törətdiyi qanlı qırğınlar, yaratdığı və yaratmaq istədiyi separatist rejimlərin hələ də xalqların normal inkişafına zərər vuracağını gözləmək olardı.

Ancaq 2014-cü ilə qədər müttəfiqi kimi az qala strateji vahid ölkə səviyyəsində hər cür əməkdaşlıa malik olmuş bu iki dövlətin, xüsusən, qışda əlbir olub bütün Avropanı təbii qaz şantajı ilə hədələməsi bunun uzun sürməyəcəyini açıqca göstərirdi. Uzun müddət onu narahat etmiş Çeçenistan üsyanını yatıran Rusiyanın belə şıltaqlıqları onun geniş Sibirinə, zəngin Yakutyiasına göz dikmiş Qərbin heç xoşuna gəlmirdi.

Gürcüstanda sınaqdan çıxarlımış narıncı inqilab senarisi ilə tarixi haqq-hesabı olan ukraynalıların Rusiya ilə qarşı-qarşıya gətirən Maydan hərəkatı da belə alovlandı. Avropa ilə çox geniş sərhədi olan Ukrayna özünün sərvətləri, xalqının tolerantlığı, əməksevrəliyi, dürüstülü və formalaşmaqda olan kövrək demokratik dəyərləri ilə artıq çoxdan Rusiyadan ayrılmışdı.

Tarixən, hələ Sovet dövründən qabaq iqtisadi-mədəni əlaqələrdə enerji faktoru bu iki dövləti bir-birinə bağlayan əsas amillərdən olub. İndinin özündə belə, Rusiya Avropanın ondan təbii qaz alan ölkələrinə ixrac etdiyi məhsulun tranzitinə görə Ukraynanın “Naftoqaz” şirkətinə pul ödəyir, Rusiya ilhaq etdiyi Zaporojyedəki Avropanın ən böyük atom elektrik stansiyasının hasil etdiyi enerjinin paylanılması üçün Ukraynanın qrid sistemi ilə əməkaşlıq edir. Necə deyərlər yüzillik bir iqtisadi-mədəni əlaqələri 365 günə qırmaq mümkün deyildir. Ancaq, iki xalq arasında çoxdan qırılmış mənəvi bağların yenidən bərpasının nə zaman mümkün olacağı, yaxud mümkün olması, ümumiyyətlə, sual doğurur. Bu gün Rusiyanın çox geniş ərazi və nəhəng təbii sərvətlərinə baxmayaraq əhalsinin son dərəcə kasıb və cəmiyyətinin müəyyən vərdişlərə aludəçiliyindən cəmiyyətinin və ailə dəyərlərinin qırılğan olması, Moskva, Sankt-Peterburq, Samara, İrkutsk kimi iri hərbi sənaye mərkəzlərində və Soçi kimi oliqarxların istirahət məkanlarında özünü bir balaca tutmuş rusların ümumiyyətlə rus dilindən az istifadə etməsi

durumunda bu ölkə liderinin Donbasda yaşayan rusdilli insanların dilini qorumaq bəhanəsi ilə amansızca Ukraynaya hücumu bu şübhələri əsaslı olaraq dərinləşdirir. Qərbin, 50-dən artıq dövlətin Ukraynaya birbaşa dəstəyi ilə müharibənin getdikcə uzatması isə dünyanın nüvə təhlükəsi ilə qarşı-qarşıya qalması ehtimalını da dərinləşdirir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev öz müsahibələrində, xüsusən, bu yaxınlarda keçirilmiş 59-cu Münhen Təhlükəsizlik Konfransında bu məsələ ilə bağlı verilən suallara cavab olaraq bildirmişdi ki, bu müharibənin nəticəsindən asılı olmayaraq dünya artıq əvvəlki dünya olmayacaq. Yəni Rusiya udsa da, — ki, bu o qədər real görünmür, uduzsa da Ukraynadakı müharibə dünyanı tamamilə dəyişdirəcək. Başqa sözlə, gələcəkdə inkişaf etmiş ölkələr tamamilə yeni enerji və ərzaq siyasəti yürüdəcək, Azərbaycan kimi istənilən konyunkturda özünün etibarlı əməkdaş imicini qoruyub saxlayan partnyorlarını tanıyacaq, separatizmə birdəfəlik son qoyulduğu üçün Ermənistan kimi oyuncaq dövlətlər dünya gündəmindən düşəcək, nəqliyyat-kommunikasiya koridorlarının şaxələndirilməsi dünya güclərini bir araya gətirən əsas səbəblərdən biri olacaq. Sabah Ukraynanın torpaq bütünlüyü şərti ilə hər hansı sülh müqaviləsi bağlanılandan sonra bu ökənin yenidən qurulması istiqamətində dünyanın başlatacağı hərəkat Rusiyadan fərqli olaraq burada köhnə sovet həyat tərzinə aid bütün izlərin yerində müasir Ukrayna quracaq. Məhz bu modernizasiya daha sonra Rusiyanı da içindən parçalayan, onun federal subyektlərinin Çin və Qərb arasında bölgüsünü sürətəndirən bir katalizator olacaq.

Bəli, bütün bunlar, Rusiyanın gec, ya tez öz qonşusuna, qardaşına hücumundan sonra gələcək dünyanı gözləyən dəyişikliklərdir. Ancaq geriyə dönüb xronoloji qaydada ötən ili qısaca xatırlasaq, bu dövrdə Ukrayna xalqının özünəqayıdışı, təkcə Ukraynanın deyil, bütün sivil dünyanın

arzusu olan Mriya təyyarəsinin rus bombardmanında məhv olunması, Mariupoldakı doğum evində öldürülən uşaqlar və hamilə qadınlar, həmin şəhərdəki teatr binasında gizlənən yüzlərlə dinc sakinin öldürülməsi yaddan çıxmayacaq. İki aya yaxın müddətdə Kiyevi mühasirədə saxladıqdan sonra geri çəkilən rus qoşunlarının Buça, İrpen və Hostomel şəhərlərində törətdiyi soyqırımı, Kramatorsk şəhəri vağzalında öldürülən yüzlərlə dinc sakinin qisası Ukrayna Ordusunun bir zərbəsi ilə Qara dənizə batırılan və sonradan Ukraynanın mədəni mirası kimi elan olunan "Moskva" kreyseri ilə alındı. Ukraynalı müdafiəçilərin əfsanəvi Bayraktar dronlarına qoşduğu mahnı və kliplər, bu dronları almaq üçün üç gün ərzində ölkəmiqyaslı kampaniyada toplanan 600 milyon qrivniya (təxminən 16 milyon dollar), buna jest olaraq Türkiyə şirkətinin bu dronları ukraynalılara hədiyyə etməsi yaddaşlarda qalan kövrək notlar idi. Türkiyə və BMT-nin zəmanəti ilə Ukrayna taxılının dünya bazarına çıxarılmasını, daha sonra müstəqillik günü ərafəsində — 20 avqustda Kiyevin mərkəzində məhv edilmiş rus texnikalarının paradını da sivil dünya yaxşı xatırlayır. İşğaldan azad olunmuş İzyum şəhərindəki 440 nəfərlik toplu məzarlar, 7 oktyabrda Ukraynanın ilk dəfə olaraq Nobel mükafatı alması, ertəsi gün Krım köprüsünün partladılması, üç gün sonra Ukraynanın enerji infrastrukturuna atılan rus raketləri, 17 oktyabrda isə onlara İran kamikadze dronları ilə hücumlar, 11 noyabrda işğal olunmuş strateji Xerson şəhərinin azad olunması ötən ilin payızında tarixə keçən savaş səhifələri idi. Ötən ilin 29 dekabrında rusların Xəzər dənizindəki gəmilərindən Kiyevi atəşə tutması, buna cavab olaraq ukraynalı müdafiəçilərin sərrast atəşlə Yeni il gecəsi sərxoş rus əsgərlərinin 400-nü bir zərbə ilə məhv etməsi də yaxşı xatırlanır. Bunun qiasını almaq üçün rus iqğal komandanlığının 14 yanvarda Dnepr şəhərini atəşə tutması nəticəsində çoxmərtəbəli yaşayış evində 6-sı uşaq olmaqla 46 nəfərin ölməsi və 4 gün sonra faciə yerində

içərisində Ukrayna daxili işlər nazirinin də olduğu helikopterin qəzaya uğraması nəticəsində nazirin və daha 16 nəfərin həlak olmasını da rusların bu dinc ölkədəki müharibə cinayətləri siyahısına daxil etmək lazımdır.

Bəli, Rusiya-Ukrayna müharibəsi davam edir. Ötən həftə, ABŞ Prezidentinin 15 ildən sonra, həm də müharibə gedə-gedə Ukraynaya səfər etməsi və buradan verilən məsajlar bu dəhşətli müharibənin hələ çox uzanacağını həm Rusiyaya, həm də bütün dünyaya sanki yenidən elan etdi. Belə görünür ki, bu qara günlərdə son söz yenə də sadə rus xalqının olacaq.

*https://mia.az/w1045064/1045064*
***24 fevral 2023-cü il***

## Dayanıqsız Metsamor AES regionda ən böyük təhlükədir

1973-cü ildə Ermənistanda heç bir obyektiv əsas olmadan tikilməyə başlanılmış və 1983-cü ildə istifadəyə verilmiş Metsamor Atom Elektrik Stansiyası yaradılarkən bir zamanlar bunun onların “enerji təhlükəsizliyi” kimi bədnam məqsədə xidmət edəcəyini yaxşı bilən ermənilər əslində, ozamankı dairəvi enerji təminatı sisteminə qoşulsalar da, Cənubi Qafqazda ən böyük enerji istehsalçısı olan Azərbaycandan asılılığı azaltmaq üçün hələ o vaxtdan bu məkrli layihəni həyata keçirmək məqsədilə keçmiş SSRİ rəhbərliyini inandırmışdılar.


Dayanıqsız Metsamor AES regionda ən böyük təhlükədir

Dolayısı ilə bu stansiyanın yaradılması hələ o zamanlardan ermənilərin hansı iddialarla alışıb yandığından xəbər ve-

rirdi. Bunu sadə insanlara inandırmaq çətin olsa da, o zamanlar bir çoxları bilirdi ki, bu "erməni atomu" bir müddət sonra dinc və təmiz enerji mənbəyindən daha çox qorxu və təhlükə mənbəyinə çevriləcəkdir. Bəli, bütün qlobal və regional siyasətin "peşəkarları" olan haylar bu təhlükə saçan stansiyanı da indi bir şantaj aləti kimi istifadə edərək onun vasitəsilə nəinki qonşularına, hətta Avropanın böyük ölkələrinə də təsir etməyə çalışırlar.

Sədərəkdən təxminən 50, qardaş Türkiyə sərhədindən isə cəmi 16 kilometr məsafədə, Araz çayı vadisində yerləşən Metsamor Atom Elektrik Stansiyası hazırda köhnə sovet texnologiyası ilə işləyən, dünyanın ən təhlükəli nüvə enerjisi qurğusudur. "Qafqazın Çernobılı" adlandırılan və uzun müddətdən bəri heç bir texnoloji yenilənmə aparılmayan bu stansiyanın təhlükəli cəhətləri onun yüksək aktiv seysmik zonada yerləşməsindən əlavə, həm də işlədiyi müddətdə bir çox xoşagəlməz hadisələrlə müşayiət olunmasıdır. Elə bu səbəbdən də ötən həftə, yəni martın 2-də Bakıda Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Baş direktoru Rafael Mariano Qrossini qəbul edərkən ölkə Prezidenti cənab İlham Əliyev nüvə təhlükəsizliyi probleminə toxunaraq Ermənistanda Metsamor Atom Elektrik Stansiyasının fəaliyyət göstərdiyini, onun Azərbaycana, Türkiyəyə, Ermənistana və bütün regiona böyük nüvə təhlükəsi yaratdığını bildirmiş, bu stansiyanın köhnə texnologiya ilə çalışdığını, onun ciddi texniki probemlərinin olduğunu diqqətə çatdıraraq və Metsamordan qaynaqlanaraq bəzi nüvə materiallarının qanunsuz ticarətinin aparılmasının narahatlıq doğurduğunu vurğulamışdır.

İlk olaraq, təbii faktorları nəzərə aldıqda, o zaman, yəni planlı iqtisadiyyat dövründə Moskvanın əmri ilə tikilmiş Metsamorun nə seysmik, nə ekoloji, nə də nüvə tullantılarının zərərsizləşdirilməsi baxımından heç bir dəyəri olmadığı ekspertlər, hətta üç-dörd ayıqbaşlı erməni mütəxəssislər

tərəfindən də həmişə vurğulanır. Belə ki, 1988-ci ildə 6.8 ballıq Spitak zəlzələsində ciddi zərər görən stansiya ozamankı sovet rəhbərliyi tərəfindən bağlanılmışdı. Ermənistanın ölkəmizə qarşı həyasızcasına torpaq iddiaları ilə özü-özünü xarici aləmdən, eləcə də ucuz Azərbaycan enerjisindən təcrid etməsindən sonra 1995-ci ildə stansiya yenidən fəaliyyətə başlamış və hazırda bu kiçik ölkənin enerji təminatının 40 faizini verməkdədir. Halbuki kifayət qədər güclü stansiya zəlzələ ocaqlarının tam üzərində dayanmaqla hər an baş verəcək sarsıntı ilə bütün Qafqazı, Anadolunu, Yaxın Şərq ölkələrini, hətta Qazaxıstana qədər böyük bir ərazini öldürücü radioaktiv sızıntılarla çirkləndirə bilər. Baxır o an küləyin istiqamətinə. Çernobılda olduğu kimi.

Erməni düşüncəsi qədər çatlaq və vaxtı keçmiş Metsamor Atom Elektrik Stansiyasının problemləri bununla bitmir. Problem həm də ermənilərin özlərinin yaratdığı izolyasiya olunmalarıdır. Başqa sözlə, təhlükəli nüvə xammalının Rusiyadan Gürcüstan vasitəsilə dəmir yolu ilə tranzit daşınmasından tutmuş, tullantıların dəfn olunmasınadək bütün texnoloji proseslər bu ölkədə ciddi problemdir. Ermənistan radioaktiv maddələrin yayılmaması üzrə beynəlxalq sənədə imza atsa da, bir neçə dəfə gürcü gömrükçüləri tərəfindən yaxalanmış nüvə qaçaqmalçılığı bu məsələdə də "erməni atomu"nun nə qədər dayanıqsız olduğunu sübut edir. Ermənistanın nüvə tullantılarını Qarabağın işğalı dövründə Azərbaycan ərazilərinə atması isə təkcə ölkəmizə deyil, bütün Araz çayı və Xəzər dənizi hövzəsi ölkələrinin ekoloji vəziyyətinə qarşı ən qatı cinayətlərdən biridir. Ona görə də bu gün Laçın yolu üzərindəki ekoaksiyaları başa düşmək istəməyən bəzi hay həşirçilərə bunu xatırlatmağın da yeri vardır.

Metsamor nüvə stansiyası Ermənistanın köhnəlmiş enerji infrastrukturu və kadr təminatı ilə də uyğunlaşmada ciddi problemlər yaradır. Belə ki, sovet dövrünün kadr

potensialına arxalanaraq inşa olunmuş Metsamorun işçiləri 1988-ci ildəki zəlzələ zamanı bu təhlükəli obyekti tərk edib qaçdığından onları əvəzləmək üçün həmin məsuliyyətli dövrdə SSRİ-nin başqa nüvə stansiyalarındakı mütəxəssislər buraya ezam olunmuşdular. Sual olunur, indi Ermənistanın, əslində müstəqil deyil, sadəcə öz əli, öz başı olduğu bir dövrdə topçu Vüsalın atəşindən qorxub qaçan ermənilərdən hansı biri nüvə obyektində qəzalar zamanı sinəsini qabağa verəcək? Heç biri! Elə bunu yaxşı bilən Avropa ölkələri və atom enerjisi üzrə beynəlxalq təşkilatlar da dəfələrlə Ermənistana bu stansiyanı bağlamaq, daha yeni və alternativ təmiz enerji mənbələrinə dəstək verməyi təklif etsələr də, ermənilər 2036-cı ilə qədər Metsamoru çalışdırmaq niyyətində olduqlarını bildirirlər.

Təbiət elmlərinə əsasən hər bir maddənin antimaddəsi vardır. "Erməni atomu"nun da antimaddəsi xalqımız tərəfindən nəhayət ki, kəşf olunmuşdur. Ancaq təəssüf ki, "Dəmir yumruq" adlı silahımız erməni xislətini, erməni riyakarlığını zərərsizləşdirsə də, söhbət radioaktiv çirklənmə kimi əsl nüvə təhlükəsindən getdiyi zaman bu məsələdə bütün dünyanın birgə fəaliyyət göstərməsi çox zəruridir.

***"Respublika" qəzeti, 10 mart 2023-cü il***

***https://respublika-news.az/news/dayaniqsiz-metsamor-aes-regionda-en-boyuk-tehlukedir***

## Torpaq yolda sürünən sülhməramlı oyunu

Dünya nizamını 180 dərəcə dəyişdirəcək Rusiya-Ukrayna müharibəsi yeni mərhələyə girdiyi bir vaxtda, Cənubi-Qafqazda davamlı sülh yaradılması məqsədilə bu gün Azərbaycan dövləti tərəfindən irəli sürülən konstruktiv təkliflərin sabah, bəlkə də, olmayacağını yaxşı bilən ermənilər hələ də köhnə vərdişlərindən əl çəkmək istəmirlər. Haradasa bir Roma imperatorunun baş çobanı olmuş mifik Tiqrana xas həyat tərzi keçirən haylar onlara hamar yolla verilmiş sülh

təklifləri üzərində düşünməkdənsə, köhnə torpaq yollarda sürünməkdə hələ çox istəklidirlər. Moskvanın ətəyindən yapışıb çirkin niyyətlərinin ardınca daşlı-torpaqlı, kələ-kötür yollarda bəd əməllər axtaran dünyanın bu ən sarsaq insanları ruslara verilmiş 5 illik sülhməramlı dövrünün bitməsindən sonra görəsən kimə sığınacaqlar?

Şübhəsiz, Rusiyadan başqa ermənilərin ABŞ, Fransa, İran, Livan, hətta uzaq Argentina kimi səpələndikləri hər yerdə pitekantroplara xas göstərdikləri davranışlara görə



## Torpaq yolda sürünən sülhməramlı oyunu

*(replika)*

Dünya nizamını 180 dərəcə dəyişdirəcək Rusiya-Ukrayna müharibəsi yeni mərhələyə girdiyi bir vaxtda, Cənubi-Qafqazda davamlı sülh yaradılması məqsədilə bu gün Azərbaycan dövləti tərəfindən irəli sürülən konstruktiv təkliflərin sabah, bəlkə də, olmayacağını yaxşı bilən ermənilər hələ də köhnə vərdişlərindən əl çəkmək istəmirlər. Haradasa bir Roma imperatorunun baş çobanı olmuş mifik Tiqrana xas həyat tərzi keçirən haylar onlara hamar yolla verilmiş sülh təklifləri üzərində düşünməkdənsə, köhnə torpaq yollarda sürünməkdə hələ çox istəklidirlər. Moskvanın ətəyindən yapışıb çirkin niyyətlərinin ardınca daşlı-torpaqlı, kələ-kötür yollarda bəd əməllər axtaran dünyanın bu ən sarsaq insanları ruslara verilmiş 5 illik sülhməramlı dövrünün bitməsindən sonra görəsən kimə sığınacaqlar?

Şübhəsiz, Rusiyadan başqa ermənilərin ABŞ, Fransa, İran, Livan, hətta uzaq Argentina kimi səpələndikləri hər yerdə pitekantroplara xas göstərdikləri davranışlara görə dəstəkçiləri tapılacaq. Amma gələcəkdə onların Cənubi-Qafqaza indikindən daha az dil uzadacaqlarını bildikləri halda ermənilərin bu meymun vərdişlərindən əl çəkməməsinin səbəbi nədir, görəsən?

Dünya tarixində dövlətlərin inkişaf mərhələlərinə baxdıqda burada sülhsevər və hərtərəfli inkişaf etmiş güclü qonşu faktorunun ən mühüm səbəblərdən biri olduğunu asanlıqla görmək mümkündür. Ortaq ticarət, turizm və digər iqtisadi-mədəni əlaqələr prizmasından baxdıqda bu gün Avropa, Şimali Amerika və ya Uzaq Şərqdəki ölkələrin bir-biri ilə nə dərəcədə bağlı olduqlarını qeyd edə bilərik. Eləcə də ölkəmizin Naxçıvan Muxtar Respublikası ərazisində qardaş Türkiyə ilə cəmi 11 kilometrlik bir ortaq sərhədinin olmasının hər iki xalq üçün "Bir millət, iki dövlət" tandemi yarada bilmək baxımından nə qədər şanslı olduğunu da deyə bilərik. Ancaq təəssüf ki, bu gün cənub qonşumuzda meydan sulayan molla rejimi, şimal qonşumuz Rusiyadakı imperialist xislətlərin, qərb qonşumuz Ermənistanın isə başdan-başa dəngəsiz, aqressiv və etibarsız dövlət olması reallığı ilə üz-üzəyik. Üstəlik, İrandakı mollaların heç bir zaman Qətərdəki kimi zəngin və səxavətli, Rusiyanın heç bir zaman Ukrayna kimi sülhsevər, Ermənistanın da Gürcüstan kimi arzuedilən qonşular olmayacağını bildiyimizdən bu gün dövlət başçımızın apardığı siyasətin məqsədi də məhz bu qədər mürəkkəb mühitdə ölkəmizi gündən-günə gücləndirməklə tam müstəqil siyasi güc halına gətirməkdir. Bunun üçün hər cür siyasi platformalarda yaranmış fürsətləri sülh və əməkdaşlıq dialoquna çevirmək üçün göstərilən səylər məhz bu məqsədə xidmət edir.

Revanşist Ermənistanın Rusiyaya, onun dırnaqarası sülhməramlısına bu cür bağlı olaraq ənənəvi torpaq yollarda sürünməsinin, əslində, üç yüz ilə yaxın bir dövrdən gələn tarixi arxazəmini vardır. Bu qədər bir dövrdə heç bir müharibədən kənarda qalmamış Rusiyanın özündən dəfələrlə böyük ərazilərə sahiblik etməsindən ruhlanan ermənilər də köçürüldükləri torpaqlarda böyük bir dövlət yaratmaq xəyalları qurmuşlar. Yalan, fitnə, riyakarlıq, əlaltı olmaq kimi hər cür ləyaqətdən uzaq siyasət və fərdi davranışlara silahlanmış erməni toplusu məhz bu yolla onları alət etmiş imperialist güclərə xidmət ediblər. Fransanın Afrikada, Rusiyanın Əfqanıstanda, Amerikanın Vyetnamda, molla rejiminin isə Cənubi Azərbaycanda törətdiyi soyqırımını əzbərləyib, bu dəhşətlərin prototipini Xocalıda gerçəkləşdirən hayların adı bu gedişlə tarix kitabının ən qara səhifəsində yazılıb. Bu mənada, hazırda Rusiyanın ona tarixən ən bağlı ölkə olmuş Ukraynaya qarşı rüsvayçı işğalçılıq müharibəsi apardığı bir dövrdə hayların rus əsgərləri ilə Qarabağın torpaq yollarındakı çıxdıqları oyunlar qədim Hindistan saraylarında diz çökən erməni kənizlərinin sevdası qədər gülünc görünür. Axı sirr deyil ki, bu gün Ukraynada öldürülüb, Krımdakı krematoriya sobalarında cəsədi yandırılmaqdansa, Qarabağda "sülhməramlı" kimi hərbi xidmət keçmək hər bir rus gəncinin xəyalıdır. Bunun üçün isə rus ordusunun hərbi rəislərinə rüşvət vermək üçün pul lazımdır. Pul da 30 illik işğal dövründə Qarabağın təbii sərvətlərini, buradan didərgin düşmüş azərbaycanlıların evlərini divar daşına qədər söküb Arazın o tayındakı -zadehlərə, -dianlara, -purlara satmış ermənilərdə. Nə qədər istəyirsən! Elə bu günlərdə Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan istifadə edilməklə Ermənistan Respublikasından hərbi ləvazimatların, silah-sursatın və şəxsi heyətin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə daşınması da belə rus-erməni işbirliyini ifşa edən növbəti rüsvayçılıqdır.

Artıq o dövrlər arxada qalmış, Qarabağ öz əzəli və əbədi sakinlərinə qovuşmuşdur. Müzəffər Azərbaycan əsgərinin qəhrəmanlıq dastanı yazdığı Zəfər yolu ilə hər gün yüzlərlə turist Şuşaya, ölkəmizin və Türk dünyasının mədəniyyət paytaxtına ziyarətə tələsir. İndi Qarabağa başladılan Böyük qayıdışa xidmət edəcək hava limanları, dəmir və avtomobil yolları burada yaşayacaq hər bir sakinin rahatlığı və təhlükəsizliyi üçün yaradılır. Lakin özünü sakin hesab etməyən, bəlkə də, keçmişdə törətdiyi cinayətlərə görə buna üzü olmayan ermənilər isə hələ də sülhməramlılarla birgə dərəarası torpaq yollarda sürünürlər. Baxaq, görək bu nə qədər sürəcək. Qabaqdan Qarabağın yaz yağışları gəlir...

**SAVALAN**

***İtmişdir***

İsmayılov Ramil Rafiq oğluna məxsus olan "Mersedes Benz" markalı avtomobilin 99 XD 724 nömrəli dövlət qeydiyyat nişanı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbəsində yaşamış Əliyev Hümbət Həmzə oğluna verilmiş 7N-213[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

dəstəkçiləri tapılacaq. Amma gələcəkdə onların Cənubi-Qafqaza indikindən daha az dil uzadacaqlarını bildikləri halda ermənilərin bu meymun vərdişlərindən əl çəkməməsinin səbəbi nədir, görəsən?

Dünya tarixində dövlətlərin inkişaf mərhələlərinə baxdıqda burada sülhsevər və hərtərəfli inkişaf etmiş güclü qonşu faktorunun ən mühüm səbəblərdən biri olduğunu asanlıqla görmək mümkündür. Ortaq ticarət, turizm və digər iqtisadi-mədəni əlaqələr prizmasından baxdıqda bu gün Avropa, Şimali Amerika və ya Uzaq Şərqdəki ölkələrin bir-biri ilə nə dərəcədə bağlı olduqlarını qeyd edə bilərik. Eləcə də ölkəmizin Naxçıvan Muxtar Respublikası ərazisində

qardaş Türkiyə ilə cəmi 11 kilometrlik bir ortaq sərhədinin olmasının hər iki xalq üçün "Bir millət, iki dövlət" tandemi yarada bilmək baxımından nə qədər şanslı olduğunu da deyə bilərik. Ancaq təəssüf ki, bu gün cənub qonşumuzda meydan sulayan molla rejimi, şimal qonşumuz Rusiyadakı imperialist xislətlərin, qərb qonşumuz Ermənistanın isə başdan-başa dəngəsiz, aqressiv və etibarsız dövlət olması reallığı ilə üz-üzəyik. Üstəlik, İrandakı mollaların heç bir zaman Qətərdəki kimi zəngin və səxavətli, Rusiyanın heç bir zaman Ukrayna kimi sülhsevər, Ermənistanın da Gürcüstan kimi arzuedilən qonşular olmayacağını bildiyimizdən bu gün dövlət başçımızın apardığı siyasətin məqsədi də bu qədər çətin mühitdə ölkəmizi gücləndirməklə tam müstəqil siyasi güc halına gətirməkdir. Bunun üçün hər cür siyasi platformalarda yaranmış fürsətləri sülh və əməkdaşlıq dialoquna çevirmək üçün göstərilən səylər məhz bu məqsədə xidmət edir.

Revanşist Ermənistanın Rusiyaya, onun dırnaqarası sülhməramlısına bu cür bağlı olaraq ənənəvi torpaq yollarda sürünməsinin, əslində, üç yüz ilə yaxın bir dövrdən gələn tarixi arxazəmini vardır. Bu qədər bir dövrdə heç bir müharibədən kənarda qalmamış Rusiyanın özündən dəfələrlə böyük ərazilərə sahiblik etməsindən ruhlanan ermənilər də köçürüldükləri torpaqlarda böyük bir dövlət yaratmaq xəyalları qurmuşlar. Yalan, fitnə, riyakarlıq, əlaltı olmaq kimi hər cür ləyaqətdən uzaq siyasət və fərdi davranışlara silahlanmış erməni toplusu məhz bu yolla onları alət etmiş imperialist güclərə xidmət ediblər. Fransanın Afrikada, Rusiyanın Əfqanıstanda, Amerikanın Vyetnamda, molla rejiminin isə Cənubi Azərbaycanda törətdiyi soyqırımını əzbərləyib, bu dəhşətlərin prototipini Xocalıda gerçəkləşdirən hayların adı bu gedişlə tarix kitabının ən qara səhifəsində yazılıb. Bu mənada, hazırda Rusiyanın ona tarixən ən bağlı ölkə olmuş Ukraynaya qarşı rüsvayçı işğalçılıq müharibəsi apardığı bir dövrdə hayların rus əsgərləri ilə Qarabağın torpaq

yollarındakı çıxdıqları oyunlar qədim Hindistan saraylarında diz çökən erməni kənizlərinin sevdası qədər gülünc görünür. Axı sirr deyil ki, bu gün Ukraynada öldürülüb, Krımdakı krematoriya sobalarında cəsədi yandırılmaqdansa, Qarabağda "sülhməramlı" kimi hərbi xidmət keçmək hər bir rus gəncinin xəyalıdır. Bunun üçün isə rus ordusunun hərbi rəislərinə rüşvət vermək üçün pul lazımdır. Pul da 30 illik işğal dövründə Qarabağın təbii sərvətlərini, buradan didərgin düşmüş azərbaycanlıların evlərini divar daşına qədər söküb Arazın o tayındakı -zadehlərə, -dianlara, -purlara satmış ermənilərdə. Nə qədər istəyirsən! Elə bu günlərdə Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan istifadə edilməklə Ermənistan Respublikasından hərbi ləvazimatların, silah-sursatın və şəxsi heyətin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə daşınması da belə rus-erməni işbirliyini ifşa edən növbəti rüsvayçılıqdır.

Artıq o dövrlər arxada qalmış, Qarabağ öz əzəli və əbədi sakinlərinə qovuşmuşdur. Müzəffər Azərbaycan əsgərinin qəhrəmanlıq dastanı yazdığı Zəfər yolu ilə hər gün yüzlərlə turist Şuşaya, ölkəmizin və Türk dünyasının mədəniyyət paytaxtına ziyarətə tələsir. İndi Qarabağa başladılan Böyük qayıdışa xidmət edəcək hava limanları, dəmir və avtomobil yolları burada yaşayacaq hər bir sakinin rahatlığı və təhlükəsizliyi üçün yaradılır. Lakin özünü sakin hesab etməyən, bəlkə də, keçmişdə törətdiyi cinayətlərə görə buna üzü olmayan ermənilər isə hələ də sülhməramlılarla birgə dərəarası torpaq yollarda sürünürlər. Baxaq, görək bu nə qədər sürəcək. Qabaqdan Qarabağın yaz yağışları gəlir...

***"Şərq Qapısı" qəzeti, 11 mart 2023-cü il***
***https://serqqapisi.gov.az/xeberler/torpaq-yolda-surunen-sulhmeramli-oyunu-1***

# Hay hotelinin xidmətçisi Rasmussen

Qarabağdakı işğalçılıq planları alt-üst olmuş bədnam erməni ordusu Xankəndi yolundakı palçıq yolda ilişib qalandan sonra revanşist ölkə bu dəfə də çarəni Avropadakı sərxoş dəstəkçilərində axtarmağa başlayıb. Nə İrandakı molla rejiminin, nə Fransanın boş çırpıntılarına, nə də rus sülhməramlılarının hərəkətlərinə məhəl qoyan Azərbaycan ekofəallarının Laçın yolundakı qərarlı duruşundan tükənmiş erməni separatizmi və onun silahlı tör-töküntüləri artıq bütün kirli yolların bağlanması ilə son vasitəyə, rüşvət verməklə Avropa siyasətçilərini kamera qarşısına çıxarmağa əl atıblar. Dünyanın ən böyük hərbi paktı NATO-nun keçmiş baş katibi Andres Foq Rasmussen də artıq əli aşağı düşən kimi erməni lobbisinə əl açıb pullu xidmət göstərən belə siyasətçilərdəndir.

Bu gün Ukraynadakı insanlıq dramının Rusiya ilə simmetrik səbəbkarlarından biri olan NATO dünyanın gəldiyi humanitar fəlakət astanasında özünün də daşıdığı məsuliyyətin üzərində düşünməkdənsə, tam əksinə, Rasmussen kimi keçmiş liderlərinin dırnaqarası siyasi məsləhət xidmətləri ilə durulmaqda olan suları yenidən bulandırmaqla məşğuldur. Qarabağın erməni işğalından azad edilməsi ilə nəticələnmiş 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqaz üçün olduqca həyati əhəmiyyət


Qarabağdakı işğalçılıq planları alt-üst olmuş bədnam erməni ordusu Xankəndi yolundakı palçıq yolda ilişib qalandan sonra revanşist ölkə bu dəfə də çarəni Avropadakı sərxoş dəstəkçilərində axtarmağa başlayıb. Nə İrandakı molla rejiminin, nə Fransanın boş çırpıntılarına, nə də rus sülhməramlılarının hərəkətlərinə

**Hay hotelinin xidmətçisi Rasmussen** *(replika)*

məhəl qoyan Azərbaycan ekofəallarının Laçın yolundakı qərarlı duruşundan tükənmiş erməni separatizmi və onun silahlı tör-töküntüləri artıq bütün kirli yolların bağlanması ilə son vasitəyə, rüşvət verməklə Avropa siyasətçilərini kamera qarşısına çıxarmağa əl atıblar. Dünyanın ən böyük hərbi paktı NATO-nun keçmiş baş katibi Andres Foq Rasmussen də artıq əli aşağı düşən kimi erməni lobbisinə əl açıb pullu xidmət göstərən belə siyasətçilərdəndir.

Bu gün Ukraynadakı insanlıq dramının Rusiya ilə simmetrik səbəbkarlarından biri olan NATO dünyanın gəldiyi humanitar fəlakət astanasında özünün də daşıdığı məsuliyyətin üzərində düşünməkdənsə, tam əksinə, Rasmussen kimi keçmiş liderlərinin dırnaqarası siyasi məsləhət xidmətləri ilə durulmaqda olan suları yenidən bulandırmaqla məşğuldur. Qarabağın erməni işğalından azad edilməsi ilə nəticələnmiş 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqaz üçün olduqca həyati əhəmiyyət daşıyacaq sülh proseslərinin bərqərar olunması üçün səylər artırıldığı zamanda bu "danimarkalı Rasimin" birdən-birə ortaya çıxıb erməni konyakına tərif deməsi hər kəsdə şübhələri bir daha artırır.

Rasmussenin erməni çəlləyindən qidalanaraq Azərbaycanın əleyhinə fikirlər səsləndirməsinin əsas motivi təkcə qurucusu olduğu dırnaqarası qlobal siyasi məsləhət firması – "Rasmussen Global"dan gələn gəlirlərinin onun xərclərindən 10 dəfə az olması ilə bitmir. Erməni siyasi dairələrinin Rusiyasının təsir dairəsindən sürətlə uzaqlaşaraq Avropaya üz tutduğu bir dövrdə Rasmussenin Ermənistanda peyda olaraq, hətta Laçın yolu üzərində fotoşəkil çəkdirməsi onun, guya, sağlam sülhsevər məqsədə yönəlmiş missiyasından daha çox suveren bir ölkənin daxili işlərinə burun soxmasından başqa heç nə deyildir.

Bu fikirləri öz məqaləsində təhlil etmiş, obyektiv mövqeyi ilə "Şərq qapısı" qəzetinin oxucularına da yaxşı tanış olan amerikalı jurnalist Peter Teysin fikrincə, əslində, Rasmussenin İrəvana səfəri və burada baş nazir və digər erməni rəsmiləri ilə keçirdiyi görüşlər Qarabağdakı son nəfəsini verən erməni separatizminə yeni can qazandırmaq və getdikcə gərginləşən Rusiya-Ermənistan münasibətlərində yaranan siyasi boşluğu doldurmaq məqsədi daşıyır. Çünki erməni lobbisinin maddi dəstəyi ilə onun burada keçirdiyi görüşlərin siyasi pafosu bu gün Avropanın bir nömrəli gündəm maddəsi olan Rusiya-Ukrayna müharibəsi fonunda bir atımlıq barıt kimi cılız görünür. Elə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi Qarabağ problemi artıq öz həllini tapıb və yerdə qalan reinteqrasiya məsələləri zaman içərisində gec-tez həll olunacaqdır. Buna görə də hələ Azərbaycan torpaqlarının işğal olunduğu dövrdə NATO-nun baş katibi kimi bir dəfə də olsun analoji çıxış etməyən Rasmussenin Laçın yolu üzərində təqaüdçü turistlər kimi verdiyi poz olsa-olsa yalnız onun hələ də qocalmadığını sübut etməsi kimi yadda qalacaqdır. Ancaq fikrimizcə, bu 70 yaşlı siyasətçinin belə bir fikri vardısa, İrəvanda boşuna zaman keçirmək yerinə 30 illik erməni blokadasından hələ də əziyyət çəkən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına səfər edərək "Prestij-Naxçıvan" pivəsinin dadına baxıb, üstəlik, Əlincəqalaya da dırmansaydı, daha yaxşı olardı. Hələlik isə, deyəsən, cənab Rasmussenin belə VİP turistik səfərlər üçün pulu olmadığından bu dəfə hay hotellərinin xidmətçisi səviyyəsində servislərlə kifayətlənməli olacaq. Lakin Xankəndidə deyil, İrəvanda!

Əli CABBAROV

daşıyacaq sülh proseslərinin bərqərar olunması üçün səylər artırıldığı zamanda bu "danimarkalı Rasimin" birdən-birə ortaya çıxıb erməni konyakına tərif deməsi hər kəsdə şübhələri bir daha artırır.

Rasmussenin erməni çəlləyindən qidalanaraq Azərbaycanın əleyhinə fikirlər səsləndirməsinin əsas motivi təkcə qurucusu olduğu dırnaqarası qlobal siyasi məsləhət firması – "Rasmussen Global"dan gələn gəlirlərinin onun xərclərindən 10 dəfə az olması ilə bitmir. Erməni siyasi dairələrinin Rusiyasının təsir dairəsindən sürətlə uzaqlaşaraq Avropaya üz tutduğu bir dövrdə Rasmussenin Ermənistanda peyda olaraq, hətta Laçın yolu üzərində fotoşəkil çəkdirməsi onun, guya, sağlam sülhsevər məqsədə yönəlmiş missiyasından daha çox suveren bir ölkənin daxili işlərinə burun soxmasından başqa heç nə deyildir.

Bu fikirləri öz məqaləsində təhlil etmiş, obyektiv mövqeyi ilə "Şərq qapısı" qəzetinin oxucularına da yaxşı tanış olan amerikalı jurnalist Peter Teysin fikrincə, əslində, Rasmussenin İrəvana səfəri və burada baş nazir və digər erməni rəsmiləri ilə keçirdiyi görüşlər Qarabağdakı son nəfəsini verən erməni separatizminə yeni can qazandırmaq və getdikcə gərginləşən Rusiya-Ermənistan münasibətlərində yaranan siyasi boşluğu doldurmaq məqsədi daşıyır. Çünki erməni lobbisinin maddi dəstəyi ilə onun burada keçirdiyi görüşlərin siyasi pafosu bu gün Avropanın bir nömrəli gündəm maddəsi olan Rusiya-Ukrayna müharibəsi fonunda bir atımlıq barıt kimi cılız görünür. Elə Azərbaycan Respublikasının Prezidenti cənab İlhamƏliyevin də dəfələrlə vurğuladığı kimi Qarabağ problemi artıq öz həllini tapıb və yerdə qalan reinteqrasiya məsələləri zaman içərisində gec-tez həll olunacaqdır. Buna görə də hələ Azərbaycan torpaqlarının işğal olunduğu dövrdə NATO-nun baş katibi kimi bir dəfə də olsun analoji çıxış etməyən Rasmussenin Laçın yolu üzərində təqaüdçü turistlər kimi verdiyi poz olsa-olsa yalnız onun hələ

də qocalmadığını sübut etməsi kimi yadda qalacaqdır. Ancaq fikrimizcə, bu 70 yaşlı siyasətçinin belə bir fikri vardısa, İrəvanda boşuna zaman keçirmək yerinə 30 illik erməni blokadasından hələ də əziyyət çəkən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına səfər edərək "Prestij Naxçıvan" pivəsinin dadına baxıb, üstəlik, Əlincəqalaya da dırmansaydı, daha yaxşı olardı. Hələlik isə, deyəsən, cənab Rasmussenin belə VİP turistik səfərlər üçün pulu olmadığından bu dəfə hay hotellərinin xidmətçisi səviyyəsində servislərlə kifayətlənməli olacaq. Lakin Xankəndidə deyil, İrəvanda!

***"Şərq Qapısı" qəzeti, 30 mart 2023-cü il***
***https://serqqapisi.gov.az/xeberler/hay-hotelinin-xidmetcisi-rasmussen***

## Dahi Nizami yurdundan ədalətli dünya nizamı uğruna böyük çağırışlar

Elmin, texnologiyanın yüksək sürətlə inkişaf etdiyi bir


Dahi Nizami yurdundan ədalətli dünya nizamı uğruna böyük çağırışlar

Əli CABBAROV
Naxçıvan Dövlət Universitetinin dosenti

dövrdə bəşər cəmiyyətini gərginliyə sürükləyən qlobal təhlükələr, beynəlxalq etimadı sarsan siyasi ədalətsizlik və dünya düzəninin köhnəlmiş oyun qurucularının hərəkətsizliyi hər kəsin ləyaqətlə yaşayacağını təmin edə bilən gələcək nizamın qurulması üçün səslənən müasir çağırışları hər keçən gün daha da aktual edir. Bu mənada, son 30 ildə qarşılaşdığı işğal və ikili standartlara qarşı sivilizasiyalararası dialoqda öz çəkisini sübut etmiş Azərbaycan Respublikasının dünyanın böyük güclərinin müharibə meydanlarında "başının qarışdığı" məsuliyyətli bir dövrdə yaşlı planetimizin yaşıl gələcəyi üçün

sülhsevər xalqları, onların dövlət və hökumət başçılarının bir araya gətirdiyi humanitar forumlara ev sahibliyi etməsi ölkəmizi hər kəsin ümidlə gözünü dikdiyi bir mərkəz halına gətirmişdir. Dahi Nizaminin ana Vətəni Azərbaycandan dünyaya hər kəsin başa düşəcəyi dildə verilən sülh mesajları, bu baxımdan dünyanın çoxdan arzusunda olduğu ümumbəşəri ədalət yolunda ciddi çağırışlardır.

Getdikcə mürəkkəbləşən qlobal iqtisadi problemlər və geosiyasi proseslər fonunda isə bu ədalətin çox uzaqda olduğunu və hətta ən qorxulusu, onun getdikcə insanlıqdan daha da uzaqlaşmasını görməkdəyik. İqtisadi artım uğrunda qlobal sərmayənin daha da acımasız olduğu, təbii ehtiyatların və enerji resurslarının get-gedə tükəndiyi, kiçik bəhanələrlə işğalçılıq müharibələri başladıb xalqların başına böyük müsibətlər gətirildiyi, içməli su və ərzaq ehtiyatlarının azaldığı gərgin bir dövrdə "ədalət" kəlməsinin çox kövrək olması bir reallıq kimi dünyanın qarşısında durmaqdadır. Bu reallığı hamıdan çox yaşayan inkişaf etməkdə olan ölkələrin xalqlarının yüksək səviyyəli nümayəndələri isə bir gün mütləq şəkildə dünyanın beşdən böyük olacağını bilərək mizan-tərəzinin əyilmədən hər kəsin rahat, işğala məruz qalmadan sülh şəraitində yaşaması üçün növbəti dəfə Bakıda toplaşdılar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə martın 9-da "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumunun iştirakçıları olan nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri və təmsilçiləri, mövcud və sabiq dövlət başçılarını, tanınmış ictimai xadimləri yeni dünya düzəninin formalaşdığı, soyuq müharibənin bitməsindən sonra dünyanın böyük güclərini qarşı-qarşıya gətirmiş olan Rusiya-Ukrayna müharibəsinin davam etdiyi dövrdə bir araya gəlməklə bəşəriyyətin üzləşdiyi fəlakətlərin qarşısına keçməkdə daha bir mühüm addım atdılar. Qonşuları ilə qonşu kimi yaşaya

bilməyənlərin qatılmadığı bu forumda Bakıdan dünyaya verilən çağırışlarda işğalın cəzasız qalmayacağı, təcavüzün heç bir yerdə, heç bir halda təqdir olunmayacağı bir daha təsdiq edilərək problemlərə ədalətli yanaşma üçün həmrəyliyin bu gün həmişəkindən daha vacib olduğu vurğulandı. Həmrəylik üçün isə bu gün daha ciddi səbəblər vardır. Qlobal qida, içməli su, enerji, nüvə təhlükəsizliyi, iqlim dəyişikliyi problemlərinin həlli, hər kəsə əlçatan olan səhiyyə xidmətlərinin yaradılması müasir dünyanı, onun sağlamdüşüncəli bütün beyin mərkəzlərini düşündürən ən vacib məsələlərdəndir. Belə ki, hələ böyük Azərbaycan şairi Nizami Gəncəvinin yaşadığı dövrdə bu problemlər indiki kimi qlobal miqyaslı olmasa da o vaxtdan keçən dövrdə mavi planetimizi, onun sakinlərini təhdid edən bu problemlərin səbəbkarı da elə insan özü, onun ədalətsiz qərarları olmuşdur. Dünya düzəninin tənzimlənməsi üzrə təsis olunmuş BMT kimi böyük beynəlxalq təşkilatların faktiki olaraq funksiyasını itirməsi və ya yönəldiyi prioritetlərdə güclünün tərəfini tutaraq problemlərə sellektiv yanaşması forum iştirakçılarının fikrincə ən böyük ədalətsizlikdədir. Azərbaycanın 30 ilə yaxın müddətdə məruz qaldığı işğal faktına qarşı, sadəcə, təəssüf hisslərini bildirən beynəlxalq təşkilatların yürütdüyü ikili standartlar çərçivəsindəki siyasət məhz bu gün bütün Avropanı ipə-sapa yatmayan aqressorla üzüzə qoymuşdur. Rusiya dəstəkli erməni, abxaz, Osetiya, Dnestryanı separatizminə, 2014-cü ildə Krımın ilhaqına göz yumub, ucuz qaz almağı daha sərfəli sayan mədəni dünya bu gün rus barbarlığına dözməyə məcbur qalmışdır. Ötən bir ildən artıq müddətdə viran qalmış Ukrayna şəhər və kəndlərinə, bu sülhsevər ölkənin dağılmış infrastrukturuna qarşı daha dözmək istəməyən dünya, görəsən, 30 il əvvəl erməni faşizminə, onun qanlı Xocalı soyqırımı əməlinə qarşı niyə dözürdü?!

Bəli, bu gün özünün yaşadığı əzablı təcrübələrə rəğmən Azərbaycan Respublikası Rusiyanın enerji terrorundan əziyyət çəkən ölkələrə onların çox ehtiyacı olduğu minnətsiz enerjini təmin etməklə sanki dahi Nizaminin əsərlərindən insanlığın aldığı mənəvi enerjinin də torpaqdan şöləlendiyinin bir təsadüf olmadığını bir daha sübut etdi. İşğal olunmuş torpaqlarını Ali Baş Komandanının qətiyyəti, qəhrəman Ordusunun gücü ilə azad edib, milli qürurunu özünə qaytaran Azərbaycan bu gün Cənubi Qafqazın bir daha yeni ssenarilər meydanına çevrilməməsi üçün liderlik mövqeyini ortaya qoymaqda da qətiyyətlidir. Qardaş və dost ölkələrin artan dəstəyinə arxalanan dövlət başçımız öz dərin, praqmatik düşüncəsi, irəliyə hədəflənmiş strateji baxışları ilə Xeyirin Şər üzərindəki qələbəsini yaxınlaşdıran bir siyasət yürütməklə hər kəsin böyük Nizaminin arzuladığı ədaləti də yaxınlaşdırmaq missiyasını həyata keçirir. Dünənə qədər hayların Sərsəngdəki su terrorundan əziyyət çəkən Azərbaycanın bu gün təbii sərvətlərini, Qarabağın yaşıl və hidroenerji potensialını dünyaya transfer edərək gələcəyə yönəlmiş strateji çağırışlara cavab verməsi də, bu mənada, mənzum hekayə deyil, ölkəmizin qlobal inkişafa verdiyi real töhfə kimi forum iştirakçılarının diqqətinin yönəldiyi vacib tezislərdən idi.

Dünya miqyaslı nüfuzlu Qlobal Bakı Forumunun budəfəki yubiley sayı olduqca mühüm, yaddaqalan bir tarixə təsadüf edir. Xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin anadan olmasının 100-cü ilində keçirilmiş bu forum təkcə onun iştirakçılarına deyil, bütün dünyaya göstərdi ki, ölkəmiz sağlam zəmində inkişaf etməklə yeni dünyanın siyasi və iqtisadi xəritəsində çox uğurla yer tutmuşdur. Azərbaycanı kommunist rejimindən çıxarmaqla məruz qaldığı haqsızlıqlara rəğmən yaratdığı yeni monolit siyasi platforma ilə dövrünü yüz il qabaqlayan Ulu Öndər Heydər Əliyevin irsi bu gün

təkcə ölkəmizin deyil, onunla eyni taleyi paylaşan yaxın-uzaq bütün ölkələrin xalqlarının yoluna işıq yolu tutur. Artıq dünya başa düşür ki, bəzən illərlə, on illərlə davam edən problemlərə, milyonların məhvinə səbəb olan müharibələrə zamanı gələndə tək bir insanın müdrikliyi son qoya, xalqların arzu etdiyi ədalətli sülhə körpü sala bilər. Yaşadığımız narahat dünya bir daha göstərir ki, bu müdrikliyə, bu ƏDALƏTƏ hər zaman, xüsusən insanları yalnız edən tikanlı divarların onları yaxınlaşdıran hamar körpülərdən daha çox tikildiyi müasir dünyada daha çox ehtiyac var. Dahi Nizaminin "Sirlər xəzinəsi"ndəki fikri ilə desək:

Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət, Yer üzünün fatehi ədalətdir, ədalət!

***"Şərq Qapısı" qəzeti, 5 aprel 2023-cü il***
***https://serqqapisi.gov.az/xeberler/dahi-nizami-yurdundan-edaletli-dunya-nizami-ugruna-boyuk-cagirislar***

## Aprel döyüşləri – qaranlıq dünyaya işıq saçan Zəfər yolu

Ölkə gündəminin və beynəlxalq siyasi arenanın, sıx məşğul olduğu bir günlərdə müzəffər Azərbaycan Ordusunun 2016-cı ilin aprelində qazandığı tarixi qələbə bütün Cənubi Qafqaz regionunda kök salmış böyük "siyasət oyunçuları"nın planlarının pozulmasında nə qədər sarsıdıcı zərbə olduğunu bir daha göstərdi. Üzərindən 7 il keçəndən sonra həmin 4 günlük tarixi döyüşlərdə işğalçı Ermənistanın uğradığı ilk böyükmiqyaslı məğlubiyyətin yaratdığı şok dalğası daha sonra 2020-ci ildəki 44 günlük müharibədə əsl sunami gücü ilə kükrəyərək bütün əliqanlı erməni silahlılarını torpaqlarımızdan qovub çıxardı, hay həşirçilərinin də bədnam niyyətlərini dünyaya faş edib əsl simalarını üzə çıxardı. Söhbət, siyasi ismarıclarında, guya, Azərbaycanın torpaq bütövlüyünü dəstəkləyən, amma Qarabağı işğal edən ölkənin çaxır qoxuyan dövlət başçılarını, onların başıaçıq birinci

xanımlarını evində qucaqlayıb kişmiş arağına qonaq edən cənub qonşuluğumuzdakı molla rejimindən gedir.

Dünya tarixi göstərir ki, müstəqil olub, güc sahibləri ilə öz dilində danışan hər bir dövlətin həm dostları, həm də düşmənlərinin olması tamamilə başa düşüləndir. Dövlətlər, onların siyasi liderləri məhz qurduqları dostluq və qardaşlıq münasibətlərinə görə dünyadakı nizamı formalaşdırmağa və son nəticədə, insanları sülh içində yaşatmağa müvəffəq olurlar. Sülh olduqda isə insanlara bütün gözəl arzuları əlçatandır. Keçmiş SSRİ dağılandan sonra yenicə müstəqilliyinə qovuşmuş Azərbaycan Respublikası vətəndaşlarının da belə gözəl arzuları, çox təəssüf ki, əvvəlcə erməni işğalçıları, daha sonra isə onları alət edən yaxın və uzaq dövlətlərin çirkin siyasəti ilə uzun müddət ürəyində qaldı.

Uzaq ölkələrlə işimiz yox, zira, Fransa, ABŞ və ya Rusiya kimi erməni populyasiyasının kompakt olduğu ölkələrdən Azərbaycana gələ bilən siyasi təzyiqlər zaman-zaman həmin ölkə lərdəki siyasi elitanın əlindəki oyuncaq uşaq şarları kimi çox da şişməyərək qəfildən "part" eyləyir. Daha doğrusu, Fransa dırnaqarası demokratiyasının seçki xəmirinə vurulmuş erməni mayası bəzən bu ölkədə bürokratların üzünə vurulan şillədən sonra elə bir acı dad verir ki, bunu həmin ölkədə yaşayan etnik ermənilər belə etiraf etməyə xəcalət çəkirlər. Ona görə də bir



**Aprel döyüşləri – qaranlıq dünyaya işıq saçan Zəfər yolu**

*(replika)*

Ölkə gündəminin və beynəlxalq siyasi arenanın, sıx məşğul olduğu bir günlərdə müzəffər Azərbaycan Ordusunun 2016-cı ilin aprelində qazandığı tarixi qələbə bütün Cənubi Qafqaz regionunda kök salmış böyük "siyasət oyunçuları"nın planlarının pozulmasında nə qədər sarsıdıcı zərbə olduğunu bir daha göstərdi. Üzərindən 7 il keçəndən sonra həmin 4 günlük tarixi döyüşlərdə işğalçı Ermənistanın uğradığı ilk böyükmiqyaslı məğlubiyyətin yaratdığı şok dalğası daha sonra 2020-ci ildəki 44 günlük müharibədə əsl sunami gücü ilə kükrəyərək bütün əliqanlı erməni silahlılarını torpaqlarımızdan qovub çıxardı, hay həşirçilərinin də bədnam niyyətlərini dünyaya faş edib əsl simalarını üzə çıxardı. Söhbət, siyasi ismarıclarında, guya, Azərbaycanın torpaq bütövlüyünü dəstəkləyən, amma Qarabağı işğal edən ölkənin çaxır qoxuyan dövlət başçılarını, onların başıaçıq birinci xanımlarını evində qucaqlayıb kişmiş arağına qonaq edən cənub qonşuluğumuzdakı molla rejimindən gedir.

Dünya tarixi göstərir ki, müstəqil olub, güc sahibləri ilə öz dilində danışan hər bir dövlətin həm dostları, həm də düşmənlərinin olması tamamilə başa düşüləndir. Dövlətlər, onların siyasi liderləri məhz qurduqları dostluq və qardaşlıq münasibətlərinə görə dünyadakı nizamı formalaşdırmağa və son nəticədə, insanları sülh içində yaşatmağa müvəffəq olurlar. Sülh olduqda isə insanlara bütün gözəl arzuları əlçatandır. Keçmiş SSRİ dağılandan sonra yenicə müstəqilliyinə qovuşmuş Azərbaycan Respublikası vətəndaşlarının da belə gözəl arzuları, çox təəssüf ki, əvvəlcə erməni işğalçıları, daha sonra isə onları alət edən yaxın və uzaq dövlətlərin çirkin siyasəti ilə uzun müddət ürəyində qaldı.

Uzaq ölkələrlə işimiz yox, zira, Fransa, ABŞ və ya Rusiya kimi erməni populyasiyasının kompakt olduğu ölkələrdən Azərbaycana gələ bilən siyasi təzyiqlər zaman-zaman həmin ölkələrdəki siyasi elitanın əlindəki oyuncaq uşaq şarları kimi çox da şişməyərək qəfildən "part" eyləyir. Daha doğrusu, Fransa dırnaqarası demokratiyasının seçki xəmirinə vurulmuş erməni mayası bəzən bu ölkədə bürokratların üzünə vurulan şillədən sonra elə bir acı dad verir ki, bunu həmin ölkədə yaşayan etnik ermənilər belə etiraf etməyə xəcalət çəkirlər. Ona görə də bir gün qudurub Marseldə də muxtariyyət tələb edəcəklərini bilən Fransa dövləti heç zaman ermənilərə bundan artığına icazə verməz. O ki qaldı şimal qonşumuz Rusiyanın mövqeyinə, burada da hələ Türkmənçay müqaviləsindən tutmuş 1918-ci ilin mart hadisələrinə, Stalin dövründən Qorbaçova qədər, 20 Yanvar və Xocalı soyqırımından tutmuş sülhməramlıların Laçın yoluna alternativ torpaq yollardakı oyunlarına qədər hər şey ortadadır. Cənubi Qafqazda özünün mövqeyi naminə hər cür çirkin oyuna hazır olan bu etibarsız dövləti tanımamaq bu gün hər kəsə gülünc gələ bilər. Ona görə də, 44 günlük Vətən müharibəsində dövlət başçımızın uğurlu siyasəti ilə bu ölkəni neytrallaşdırmaqla təkbətək döyüşdə erməni faşizminin başını əzmək xalqımızın, müzəffər Ordumuzun ən böyük zəfəri idi.

Ancaq istər Aprel döyüşlərindən, istərsə də 44 günlük Vətən müharibəsindən sonra aydın oldu ki, Ordumuz, Ali Baş Komandanımız Qarabağda təkcə erməni təcavüzkarları ilə deyil, bizə sözdə, müsəlman dindaşıyıq, – deyən molla rejimi ilə də savaşmalı olacaqdı. Aprel döyüşlərinə, yəni mifik erməni ordusunun çürük strukturu ortaya çıxana, erməni siyasi təbəqəsində həbslər və istefalar başlayana qədər, guya, Azərbaycanın yanında olan mollalar bundan sonrakı bütün dövrlərdə, xüsusən 44 günlük müharibədə artıq felən erməni silahlı qüvvələrinin yanında olmaqdan çəkinmədilər. Müharibə dövründə Ordumuzun verdiyi tək bir şəhid, Gəncədə, Bərdədə, Tərtərdə öldürülən tək mülki həmvətənlimiz üçün belə gözyaşı tökməyən molla rejimi bu böyük savaşın İrandan gətirilən xurma, düyü və ya aftafa sayəsində qazanıldığını bəyan edəcək dərəcədə alçaldı. Bu gün hələ də blokadadan əziyyət çəkən Naxçıvana Bakıdan tranzit gətirilən yüklərdən dollar hesabı ilə qaz vurub qazan dolduran "din qardaşlarımız" kiçik bir bəhanə olduğu zaman bunu minnət edib üzə vurmaqdan da çəkinməyəcək dərəcədə qırmızısifət olurlar. Hər fürsətdə, yersizcə Azərbaycanın daxili işlərinə qarışmaq, səfirlik əməkdaşımızı öldürmək, hərbi texnikalarla dövlət sərhədlərimizi vaxtaşırı pozaraq gərginliyə səbəb olmaq, dövlət xadimlərimizə qarşı sui-qəsd planlamaq, casus və narkotika ticarəti şəbəkəsi qurmaqla ölkəmizdə hərc-mərclik yaratmaq cəhdləri elmin, texnikanın və mədəniyyətin bu qədər inkişaf etdiyi XXI əsrdə dini bir, dili bir qardaşın digərinə edə biləcəyi ən iyrənc hərəkətlərdir.

Bəli, dumanlı pərdələri aralayıb bir çox həqiqətləri üzə çıxaran Aprel döyüşləri artıq şanlı tarix kimi arxada qalıb. Bu gün artıq Azərbaycan həmin döyüşlərdə azad olunmuş Tərtərin Talış kəndinə əzəli sakinlərini köçürüb, burada Novruz tonqalını yandırdı. Lələtəpədən yüksələn VƏTƏN EŞQİ Laçın yüksəkliklərindən aydın görünən Qarakilsəyə, Göyçə gölünə qədər işıq saçır. Ancaq tarixən bağlı olduğu qonşusunun uğurlarına sevinə bilməyən 30 milyon AZƏRBAYCANLININ yaşadığı İranın molla rejimi isə hələ də kirli əməllərinə başının qarışdığı öz qaranlıq dünyasındadır. Görünən incə saç telinə görə gənc qadını döyərək öldürmək qədər islami dəyərlərdən uzaq olan həmin dünyanın babaları hələ də bilmirlər ki, bir gün Savalandan qalxacaq AZADLIQ GÜNƏŞİ Ərdəbildən Urmiyəyə, Əhərdən Təbrizə qədər bütün Cənubi Azərbaycanı yenidən işıqlandıracaq, 50 milyonluq Azərbaycan xalqının dostunun kim, düşməninin kim olduğunu bir daha aydınladacaq.

**SAVALAN**

gün qudurub Marseldə də muxtariyyət tələb edəcəklərini bilən Fransa dövləti heç zaman ermənilərə bundan artığına icazə verməz. O ki qaldı şimal qonşumuz Rusiyanın mövqeyinə, burada da hələ Türkmənçay müqaviləsindən tutmuş 1918-ci ilin mart hadisələrinə, Stalin dövründən Qorbaçova qədər, 20 Yanvar və Xocalı soyqırımından tutmuş sülhməramlıların Laçın yoluna alternativ torpaq yollardakı oyunlarına qədər hər şey ortadadır. Cənubi Qafqazda özünün mövqeyi naminə hər cür çirkin oyuna hazır olan bu etibarsız dövləti tanımamaq bu gün hər kəsə gülünc gələ bilər. Ona görə də, 44 günlük Vətən müharibəsində dövlət başçımızın uğurlu siyasəti ilə bu ölkəni neytrallaşdırmaqla təkbətək döyüşdə erməni faşizminin başını əzmək xalqımızın, müzəffər Ordumuzun ən böyük zəfəri idi.

Ancaq istər Aprel döyüşlərindən, istərsə də 44 günlük Vətən müharibəsindən sonra aydın oldu ki, Ordumuz, Ali Baş Komandanımız Qarabağda təkcə erməni təcavüzkarları ilə deyil, bizə sözdə, müsəlman dindaşıyıq, – deyən molla rejimi ilə də savaşmalı olacaqdı. Aprel döyüşlərinə, yəni mifik erməni ordusunun çürük strukturu ortaya çıxana, erməni siyasi təbəqəsində həbslər və istefalar başlayana qədər, guya, Azərbaycanın yanında olan mollalar bundan sonrakı bütün dövrlərdə, xüsusən 44 günlük müharibədə artıq felən erməni silahlı qüvvələrinin yanında olmaqdan çəkinmədilər. Müharibə dövründə Ordumuzun verdiyi tək bir şəhid, Gəncədə, Bərdədə, Tərtərdə öldürülən tək mülki həmvətənlimiz üçün belə gözyaşı tökməyən molla rejimi bu böyük savaşın İrandan gətirilən xurma, düyü və ya aftafa sayəsində qazanıldığını bəyan edəcək dərəcədə alçaldı. Bu gün hələ də blokadadan əziyyət çəkən Naxçıvana Bakıdan tranzit gətirilən yüklərdən dollar hesabı ilə qaz vurub qazan dolduran “din qardaşlarımız” kiçik bir bəhanə olduğu zaman bunu minnət edib üzə vurmaqdan da çəkinməyəcək dərəcədə qırmızısifət olurlar. Hər fürsətdə, yersizcə Azərbaycanın daxili işlərinə qarışmaq, səfirlik əməkdaşımızı öldürmək,

hərbi texnikalarla dövlət sərhədlərimizi vaxtaşırı pozaraq gərginliyə səbəb olmaq, dövlət xadimlərimizə qarşı suiqəsd planlamaq, casus və narkotika ticarəti şəbəkəsi qurmaqla ölkəmizdə hərc-mərclik yaratmaq cəhdləri elmin, texnikanın və mədəniyyətin bu qədər inkişaf etdiyi XXI əsrdə dini bir, dili bir qardaşın digərinə edə biləcəyi ən iyrənc hərəkətlərdir.

Bəli, dumanlı pərdələri aralayıb bir çox həqiqətləri üzə çıxaran Aprel döyüşləri artıq şanlı tarix kimi arxada qalıb. Bu gün artıq Azərbaycan həmin döyüşlərdə azad olunmuş Tərtərin Talış kəndinə əzəli sakinlərini köçürüb, burada Novruz tonqalını yandırdı. Lələtəpədən yüksələn VƏTƏN EŞQİ Laçın yüksəkliklərindən aydın görünən Qarakilsəyə, Göyçə gölünə qədər işıq saçır. Ancaq tarixən bağlı olduğu qonşusunun uğurlarına sevinə bilməyən 30 milyon AZƏRBAYCANLININ yaşadığı İranın molla rejimi isə hələ də kirli əməllərinə başının qarışdığı öz qaranlıq dünyasındadır. Görünən incə saç telinə görə gənc qadını döyərək öldürmək qədər islami dəyərlərdən uzaq olan həmin dünyanın babaları hələ də bilmirlər ki, bir gün Savalandan qalxacaq AZADLIQ GÜNƏŞİ Ərdəbildən Urmiyəyə, Əhərdən Təbrizə qədər bütün Cənubi Azərbaycanı yenidən işıqlandıracaq, 50 milyonluq Azərbaycan xalqının dostunun kim, düşməninin kim olduğunu bir daha aydınladacaq.

***"Şərq Qapısı" qəzeti, 5 aprel 2023-cü il***
***https://serqqapisi.gov.az/xeberler/aprel-doyusleri-qaranliq-dunyaya-isiq-sacan-boyuk-zefer***

## Mina təhlükəsi erməni terrorunun yeraltı üzüdür

Otuz ilə yaxın bir müddətdə Qarabağı işğalda saxlamış erməni faşizminin başı əziləndən sonra yaranmış vəziyyət gün keçdikcə bu revanşist ölkənin zərərinə dəyişilməkdədir. Özləri qazdığı quyuya özləri düşən hayların məkrli siyasətinin iç üzü açıldıqca onların bütün dövrlərdə törətdikləri müharibə

cinayətləri ilə bağlı üzə çıxarılan faktların da sayı artır. Bu, Azərbaycan torpaqlarını minalamaqla ölkəmizdə insanların həyatına ölüm qorxusu törədən, bu barədə bütün beynəlxalq qanunları heçə sayan Ermənistanın, əslində, nə qədər təhlükəli



Mina təhlükəsi erməni terrorunun yeraltı üzüdür

olduğunu bir daha sübut edir. İstər münaqişə, istərsə də postmünaqişə dövründə Qarabağ ərazisində ermənilərin basdırdığı minaların qurbanı olmuş insanların acı taleyi bunu deməyə əsas verir.

Ermənistanın müharibə cinayətlərinin siyahısı çox genişdir. Dinc insanlara qarşı pusqu qurub qəfildən hücum etməklə qırğınlar törətmək, diplomatları qətlə yetirmək, metroda, avtobuslarda partlayış törədib terror əməli ilə ad çıxarmaq, dövlət atributlarına qarşı vandalizm əməlləri etməklə özlərinə təskinlik tapması kimi sırf erməni xislətinə məxsus olan hərəkətlər dünya tarixinin qara səhifələridir. Azərbaycanın Qarabağ bölgəsində ermənilərin basdırdığı minaların partlaması ilə davam edən terror isə döyüş meydanında müharibəni uduzmuş bir dövlətin hələ də öz qisasçı niyyətindən əl çəkmədiyini bir daha sübut edir. Faktlar isə tükürpədicidir. Belə ki, rəsmi olaraq verilmiş məlumata əsasən indiyə qədər işğaldan azad olunmuş Azərbaycan ərazilərində 77 min 890 hektar sahə minalardan təmizlənmiş, bu qədər sahədə 86 min 244 ədəd mina və partlamamış hərbi sursat tapılıb. Bunlardan isə 28 min 43 ədədi piyada əleyhinə, 14 min 957-si isə tank əleyhinə olan minalardır.

Göründüyü kimi, müharibədən cəmisi iki il yarım keçməsinə baxmayaraq, tapılan minaların sayı hələ gələcəkdə Azərbaycanın bu problemlə nə qədər ciddi qarşılaşacağını xəbər verir. Beynəlxalq təşkilatların hesabatlarında Azərbaycanın ərazisinin minalarla çirklənmiş ilk on ölkə

siyahısında göstərilməsi və bunun yüz faiz günahkarının da Ermənistanın olması faktına baxmayaraq, hələ ki, sülhə marağı olmayan Ermənistan dəqiq mina xəritəsini vermək istəmir. Minaların basdırıldığı yerlərə gəldikdə isə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) rəsmi məlumatında ermənilərin təkcə Qarabağda deyil, Tərtərdə, Daşkəsəndə və hətta Naxçıvanla sərhəddə hər yerdə mina basdırdığı bildirilir. İşğal nəticəsində, sadəcə, hərbi əməliyyatlar aparılan yerlər deyil, hərbi zonaya daxil olmayan bölgələr, məhsuldar əkin sahələri, yaşayış məntəqələri, ermənilərin söküb dağıtdıqları evlər və tarixi binalar bu dəqiqənin özü də mina təhlükəsi saçan yerlər kimi qalmaqdadır. Şəxsən, bir şahid kimi, ötən ilə Şuşaya səfər edərkən şəhərin tarixi məkanlarındakı turistlərin ekskursiya yolları üzərində ANAMA tərəfindən asılmış mina təhlükəsi ilə bağlı elanları görən bir vətəndaş kimi mən də bunu deyə bilərəm. ANAMA-nın başqa bir məlumatında isə deyilir ki, aşkar edilməkdə olan minaların istehsal illəri, aşkar olunduqları relyef bu dağıdıcı hərbi sursatların növləri, yerləşdikləri dərinlik müxtəliflikləri, yeni və solmuş rəng çalarları və sair kimi texniki halları işğaldan azad edilmiş ərazilərdə tapılan minaların son 30 il ərzində hər il basdırıldığını və minalı sahələrə texniki qulluq göstərildiyini deməyə əsas verir. Belə ki, hər hansı səbəbdən partlamış minaların yaratdığı boşluqlar ermənilər tərəfindən yeni minalarla əvəz edilib. Partlayıcı maneələr sayılan mina sahələrini daha da ölümcül etmək üçün onlar məsafədən idarə edilən partlayıcılar basdırıblar. Son dövrlər minaaxtaranlar tərəfindən tapılan və ya partlayan minaların Ermənistanın özündə 2021-ci il istehsal edilmiş minalar olması faktı isə postmünaqişə dövründə onların törətdiyi cinayətlərin ən qorxulusu sayıla bilər.

Göründüyü kimi, erməni terrorunun yeraltı üzü olduqca təhlükəlidir və Qarabağın mürəkkəb relyefi buranın

hər kvadratmetrində minaların olması ehtimalını yaradır. Ötən həftə, aprelin 28-də Tərtər rayonunun Talış kəndi ərazisində mina partlayışı nəticəsində 3 nəfər mülki vətəndaşımızın həlak olması ilə müharibə qurtarandan sonra minaya düşənlərin sayı 298 nəfərə, həlak olanların sayı isə 54 nəfərə çatmışdır. Bu da Ermənistanın müharibə cinayətlərinə birbaşa aid edilən faktlardır. İndiyə qədər Ermənistanın mina terrorundan həlak olmuş insanların 3 nəfərinin Azərbaycanın media nümayəndəsi olması faktı isə dünyada "məzlum" hayların zurnaçısı kimi səs-küy edən ermənipərəst Rusiya, Qərb və Yaxın Şərq media təmsilçilərinin həmişə gözünə batan iti ox kimi yaddaşımızda qalacaqdır.

Ümumilikdə isə ermənilərin Qarabağ iddiaları başlayandan bəri Azərbaycanda mina partlayışları zamanı 3 min 377 nəfər həlak olub və ya yaralanıb ki, onlardan 358 nəfəri uşaq, 38 nəfəri qadındır. Münaqişəni başlatdıqları ilk gündən bir gün bu torpaqlardan cəhənnəm olub gedəcəklərini yaxşı bilən haylar zəbt etdikləri yerlərdə minalama aparmaqla strateji cəhətdən nəyə isə nail olmaq deyil, əslində, daha çox azərbaycanlını öldürmək məqsədi güdmüşlər. Müharibə meydanında, üzbəüz döyüşdə heç zaman cəsarətli olmayan çürük erməni ordusunun minalama terroruna əl atması isə onun başının əzilməsindən sonra öz doğma yurdlarından didərgin düşmüş Azərbaycan vətəndaşlarının böyük Qayıdışına əngəl olmaq məqsədi daşıyır. Ancaq hər şeyə çarə olan əlahəzrət zaman öz sözünü deyir. Hər çətin günün bir sonu vardır! Bir zamanlar, düz 31 il əvvəl ruslar tərəfindən silahlandırılmış ermənilərdən qaçan əliyalın, ac-susuz, ayaqqabısız Laçın camaatının tərk etdiyi yol üzərində tikilmiş Həkəri körpüsündən hərəkət edən miskin ermənilər indi Azərbaycan əsgərinə boyun əyərək keçirlər. İnanırıq ki, erməni işğalını sona çatdıran qüdrətli dövlətimiz bu mina probleminin də öhdəsindən gəlib, Qarabağı erməni əli dəymiş

son metal parçasından da təmizləyəcək. Bir minaaxtaran səbri ilə!

*“Şərq Qapısı” qəzeti, 3 may 2023-cü il*
*https://serqqapisi.gov.az/xeberler/mina-tehlukesi-ermeni-terrorunun-yeralti-uzudur*

## Yaşıl enerjidən istifadə dövrün tələbi, iqtisadi və mədəni inkişafın göstəricisidir

Müasir dünyada enerjiyə olan tələbatın artması və ənənəvi enerji ehtiyatlarının getdikcə tükənməsi ilə yaranan iqtisadi və geosiyasi münasibətlər gündəmdəki yerini qorumaqdadır. Bu, hər şeydən əvvəl, enerjidaşıyıcılarının qiymətinin yüksəlməsi ilə bərabər insanların elektrik enerjisinə olan tələbatlarının artması ilə müşahidə olunmaqdadır. Qeyd edək ki, bu tendensiya istər ölkəmiz, istər yaxın region və dünyanın digər ölkələri üçün yaşıl, yəni alternativ və bərpa olunan enerji mənbələri istiqamətində işlərin sürətlənməsinə səbəb olmuşdur. Eyni zamanda bu məsələ təkcə hazırda istifadə olunan ənənəvi enerji mənbələrindən asılılığının azaldılması məqsədilə deyil, eyni zamanda ekoloji tarazlığın, insan sağlamlığının qorunması, davamlı inkişaf və sosial məsuliyyət məqsədləri ilə izah olunur.

Yaşıl enerji mənbələrindən aktiv istifadə ölkəmiz üçün müstəsna



**Yaşıl enerjidən istifadə dövrün tələbi, iqtisadi və mədəni inkişafın göstəricisidir**

*Müasir dünyada enerjiyə olan tələbatın artması və ənənəvi enerji ehtiyatlarının getdikcə tükənməsi ilə yaranan iqtisadi və geosiyasi münasibətlər gündəmdəki yerini qorumaqdadır. Bu, hər şeydən əvvəl, enerjidaşıyıcılarının qiymətinin yüksəlməsi ilə bərabər insanların elektrik enerjisinə olan tələbatlarının artması ilə müşahidə olunmaqdadır. Qeyd edək ki, bu tendensiya istər ölkəmiz, istər yaxın region və dünyanın digər ölkələri üçün yaşıl, yəni alternativ və bərpa olunan enerji mənbələri istiqamətində işlərin sürətlənməsinə səbəb olmuşdur. Eyni zamanda bu məsələ təkcə hazırda istifadə olunan ənənəvi enerji mənbələrindən asılılığının azaldılması məqsədilə deyil, eyni zamanda ekoloji tarazlığın, insan sağlamlığının qorunması, davamlı inkişaf və sosial məsuliyyət məqsədləri ilə izah olunur.*

Yaşıl enerji mənbələrindən aktiv istifadə ölkəmiz üçün müstəsna dərəcəli prioritet məsələlərdəndir. Azərbaycan ənənəvi karbohidrogen mənşəli enerji mənbələri ilə zəngin bir ölkə olsa da, iqtisadiyyatımızın neftdən olan asılılığının azaldılması və tamamilə yox edilməsi həmişə müstəqil dövlətimizin prioritetlərindən biri olub. Hazırda ölkəmiz öz iqtisadiyyatının şaxələndirilməsi, işğaldan azad olunmuş Qarabağın yenidən qurulması, ağıllı yaşayış məntəqələrinin yaradılması və yeni infrastruktur layihələrinin işlənilməsi məqsədilə malik olduğu enerji resurslarından da fəal istifadə edir. Bu gün davam edən Rusiya-Ukrayna müharibəsi səbəbindən yaranmış enerji böhranı fonunda ölkəmizin sahib olduğu enerji resurslarının Avropaya etibarlı nəqli ölkəmizin tərəfdaşlıq imicini də artırıb. Lakin bununla yanaşı, ölkəmizdə qeyri-neft sektorunun inkişaf perspektivləri baxımından alternativ və bərpa olunan enerji məsələləri digər inkişaf etməkdə olan ölkələrdə də olduğu kimi, aktuallıq kəsb edir.

Hazırda dünyada yaşıl enerjiyə keçidin mühüm səbəbləri vardır. Belə ki, iqtisadiyyatın daim enerji ilə təminatı cəmiyyətdə elmi-texniki tərəqqinin və məhsuldar qüvvələrin inkişafının bazası hesab olunur. Planetdə enerji sərfinin sürətlə artması ilə yanaşı, enerjidaşıyıcılarının həcmi də sürətlə azalmaqdadır. Mütəxəssislərin hesablamalarına görə, dünyada neftin 30-40 illik, daş kömürün 80-100 illik, təbii qazın isə 100-120 illik bir ehtiyatı qalmışdır. Digər bir hesablamaya görə isə Yer kürəsində bir ildə sərf olunan neftin əmələ gəlməsi üçün 2 milyon il tələb olunur. Bununla yanaşı olaraq, ənənəvi enerji mənbələrinin istifadə olunması ilə ətraf mühitin korlanması, qlobal istiləşmə və bunların yaratdığı bir sıra iqtisadi və sosial fəsadlar da cəmiyyətdə daha çox problemlər yaradır. Bütün bunlar isə, öz növbəsində, tükənən enerji mənbələri olan neft, qaz, daş kömür kimi mənbələrə alternativ olan yaşıl enerji mənbələri üzərində işlərin sürətlənməsi və bərpa olunan enerji mənbələrindən istifadə məsələlərini ön plana çəkir.

Alternativ və tükənməyən enerji ehtiyatlarına külək, Günəş, qabarma və çəkilmə, geotermal, biokütlədən alınan enerji, habelə hidroenerjidən əldə olunan enerji aid olunur. Təkcə Günəşin yerə bir ildə verdiyi işıq enerjisinin yüzdəbiri bəşəriyyətin bir neçə yüz ildə istifadə etdiyi enerjinin həcminə bərabərdir. Bundan başqa, Günəş enerjisi istifadə baxımından ekoloji cəhətdən ən təmizidir. Quraşdırılan bahalı avadanlıqlara rəğmən, onların az istismar xərcləri, ekoloji cəhətdən təmizliyi, bərpa olunan və ümumiyyətlə, tükənməyən olması Günəş enerjisinin istifadənin üstün cəhətlərindəndir. Məsələn, bir Günəş batareyası onlarla il ərzində təmirə ehtiyacı olmadan istifadə oluna bilər.

Hazırda neft və qazla zəngin ölkəmizdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə keçid üzrə irimiqyaslı layihələrə start verilib. Təkcə düşmən işğalından azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda bu sahədə görülən işlər ölkəmiz üçün əsl liderlik nümunəsidir. Dövlət başçımız hələ on illər əvvəl ölkəmizin iqtisadiyyatının neftdən asılılığının azaldılması üzrə vəzifələr irəli sürdükdə məhz yeni əsrin çağırışları istiqamətində öz prioritetlərini müəyyən etmişdi. Hazırda Azərbaycanda istifadəyə verilmiş bərpa olunan enerji mənbələri üzrə güc stansiyaları ölkəmizi bu sahədə də etibarlı əməkdaş profilinə qovuşdurur.

Son günlər ölkəmizdə yaşıl enerji, yəni alternativ enerji mənbələrindən istifadə üzrə keçirilən mötəbər beynəlxalq tədbirlərdə Naxçıvan Muxtar Respublikası ərazisində də bu sahədə böyük perspektivlərin olduğu dilə gətirilir, bu istiqamətdə ekspertlərin şərhləri dinlənilir. Bu fikirlər konkret olaraq regionumuzun təbii-iqlim xüsusiyyətləri, relyef şəraiti, günəş, külək və biokütlə ehtiyatları əsasında səsləndirilir. Həmçinin Naxçıvanın mühüm tranzit mövqeyi burada qonşu ölkələrlə də enerji mübadiləsini də artırır ki, bu, öz növbəsində, yaşıl enerjinin dəyərini daha da artırır. Belə ki, rəsmi məlumatlara əsasən ötən il Naxçıvanda istehsal olunmuş 468 316 894 kilovat-saat elektrik enerjisinin 33,7 faizi məhz bərpa olunan enerji mənbələri hesabına olmuşdur ki, bu da bir zamanlar blokada ucbatından enerji qıtlığı çəkən muxtar respublika üçün olduqca diqqətçəkici bir göstəricidir. Gələcəkdə Naxçıvanın enerji ehtiyacının məhz bu elektrik stansiyaları hesabına ödənilməsi ilə, ümumilikdə, muxtar respublikada enerji təminatının əsas hissəsinin yaşıl enerji mənbəli olacağını proqnoz etməyə imkan yaradır.

Ekoloji təmiz yaşıl enerji mənbələrindən istifadə olunması muxtar respublikamızın təbii sərvətlərinin iqtisadi dövriyyəyə cəlb olunmasının ən yaxşı yollarından biridir. Bu tədbirlər Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyi istiqamətində dövlətimizin həyata keçirdiyi işlərə dəstək olmaqla bərabər, eyni zamanda yeni minilliyin çağırışları olan davamlı inkişaf prinsiplərinə də cavab verir. Yeni texnologiyaların tətbiqi, istehsalda, nəqliyyatda və məişətdə daha az enerji və maddi resurs istifadəsinə əsaslanan, təkcə indiki nəsillərin deyil, gələcək nəsillərin də normal yaşayışı üçün düzgün qərarların verilməsini özündə ehtiva edən bu strategiya məhz davamlı inkişafın özəyini təşkil edir. Qeyd edək ki, bu, eyni zamanda prestij məsələsi də olub, dövlətlərin, onların hökumətlərinin, regional idarəedicilərin, bələdiyyələrin, özəl sektorun və sadə vətəndaşların birgə səyləri ilə mümkün olan bir əməkdaşlıq formuludur. Bu gün hər bir mədəni insan öz istehlakı, davranışı ilə ətraf mühitə daha az zərər vurmaq, daha az tullantıya səbəb olmaq üçün yollar axtarır, mümkün olduğu qədər yaşıl enerjidən istifadəyə, ictimai nəqliyyata, elektrikli avtomobillərə, skuterlərə, velosipedlərə üstünlük verməyə, şəhər içində yöndəmsiz və yersiz görünən iri mühərrik həcmli avtomobillər sürməkdən qaçmağa çalışır. Bütün bunlar yeni dövrümüzün reallığı olmaqla həm iqtisadiyyatın inkişafında yeni texnologiyaların tətbiqinin, həm də təkcə özünü deyil, başqalarını da düşünən cəmiyyət üzvlərinin mədəni həyatındakı imperativlərin yaratdığı obyektiv bir mənzərədir.

**Əli CABBAROV**
*Naxçıvan Dövlət Universitetinin dosenti*

dərəcəli prioritet məsələlərdəndir. Azərbaycan ənənəvi karbohidrogen mənşəli enerji mənbələri ilə zəngin bir ölkə olsa da, iqtisadiyyatımızın neftdən olan asılılığının azaldılması və tamamilə yox edilməsi həmişə müstəqil dövlətimizin prioritetlərindən biri olub. Hazırda ölkəmiz öz iqtisadiyyatının şaxələndirilməsi, işğaldan azad olunmuş Qarabağın yenidən qurulması, ağıllı yaşayış məntəqələrinin yaradılması və yeni infrastruktur layihələrinin işlənilməsi məqsədilə malik olduğu enerji resurslarından da fəal istifadə edir. Bu gün davam edən Rusiya-Ukrayna müharibəsi səbəbindən yaranmış enerji böhranı fonunda ölkəmizin sahib olduğu enerji resurslarının Avropaya etibarlı nəqli ölkəmizin tərəfdaşlıq imicini də artırıb. Lakin bununla yanaşı, ölkəmizdə qeyri-neft sektorunun inkişaf perspektivləri baxımından alternativ və bərpa olunan enerji məsələləri digər inkişaf etməkdə olan ölkələrdə də olduğu kimi, aktuallıq kəsb edir.

Hazırda dünyada yaşıl enerjiyə keçidin mühüm səbəbləri vardır. Belə ki, iqtisadiyyatın daim enerji ilə təminatı cəmiyyətdə elmi-texniki tərəqqinin və məhsuldar qüvvələrin inkişafının bazası hesab olunur. Planetdə enerji sərfinin sürətlə artması ilə yanaşı, enerjidaşıyıcılarının həcmi də sürətlə azalmaqdadır. Mütəxəssislərin hesablamalarına görə, dünyada neftin 30-40 illik, daş kömürün 80-100 illik, təbii qazın isə 100-120 illik bir ehtiyatı qalmışdır. Digər bir hesablamaya görə isə Yer kürəsində bir ildə sərf olunan neftin əmələ gəlməsi üçün 2 milyon il tələb olunur. Bununla yanaşı olaraq, ənənəvi enerji mənbələrinin istifadə olunması ilə ətraf mühitin korlanması, qlobal istiləşmə və bunların yaratdığı bir sıra iqtisadi və sosial fəsadlar da cəmiyyətdə daha çox problemlər yaradır. Bütün bunlar isə, öz növbəsində, tükənən enerji mənbələri olan neft, qaz, daş kömür kimi mənbələrə alternativ olan yaşıl enerji mənbələri üzərində işlərin sürətlənməsi və bərpa olunan enerji mənbələrindən istifadə məsələlərini ön plana çəkir.

Alternativ və tükənməyən enerji ehtiyatlarına külək, Günəş, qabarma və çəkilmə, geotermal, biokütlədən alınan enerji, habelə hidroenerjidən əldə olunan enerji aid olunur. Təkcə Günəşin yerə bir ildə verdiyi işıq enerjisinin yüzdə biri bəşəriyyətin bir neçə yüz ildə istifadə etdiyi enerjinin həcminə bərabərdir. Bundan başqa, Günəş enerjisi istifadə baxımından ekoloji cəhətdən ən təmizidir. Quraşdırılan bahalı avadanlıqlara rəğmən, onların az istismar xərcləri, ekoloji cəhətdən təmizliyi, bərpa olunan və ümumiyyətlə, tükənməyən olması Günəş enerjisinin istifadənin üstün cəhətlərindəndir. Məsələn, bir Günəş batareyası onlarla il ərzində təmirə ehtiyacı olmadan istifadə oluna bilər.

Hazırda neft və qazla zəngin ölkəmizdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə keçid üzrə irimiqyaslı layihələrə start verilib. Təkcə düşmən işğalından azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda bu sahədə görülən işlər ölkəmiz üçün əsl liderlik nümunəsidir. Dövlət başçımız hələ on illər əvvəl ölkəmizin iqtisadiyyatının neftdən asılılığının azaldılması üzrə vəzifələr irəli sürdükdə məhz yeni əsrin çağırışları istiqamətində öz prioritetlərini müəyyən etmişdi. Hazırda Azərbaycanda istifadəyə verilmiş bərpa olunan enerji mənbələri üzrə güc stansiyaları ölkəmizi bu sahədə də etibarlı əməkdaş profilinə qovuşdurur.

Son günlər ölkəmizdə yaşıl enerji, yəni alternativ enerji mənbələrindən istifadə üzrə keçirilən mötəbər beynəlxalq tədbirlərdə Naxçıvan Muxtar Respublikası ərazisində də bu sahədə böyük perspektivlərin olduğu dilə gətirilir, bu istiqamətdə ekspertlərin şərhləri dinlənilir. Bu fikirlər konkret olaraq regionumuzun təbii-iqlim xüsusiyyətləri, relyef şəraiti, günəş, külək və biokütlə ehtiyatları əsasında səsləndirilir. Həmçinin Naxçıvanın mühüm tranzit mövqeyi burada qonşu ölkələrlə də enerji mübadiləsini də artırır ki, bu, öz növbəsində, yaşıl enerjinin dəyərini daha da artırır. Belə ki, rəsmi məlumatlara əsasən

ötən il Naxçıvanda istehsal olunmuş 468 316 894 kilovat-saat elektrik enerjisinin 33,7 faizi məhz bərpa olunan enerji mənbələri hesabına olmuşdur ki, bu da bir zamanlar blokada ucbatından enerji qıtlığı çəkən muxtar respublika üçün olduqca diqqətçəkici bir göstəricidir. Gələcəkdə Naxçıvanın enerji ehtiyacının məhz bu elektrik stansiyaları hesabına ödənilməsi ilə, ümumilikdə, muxtar respublikada enerji təminatının əsas hissəsinin yaşıl enerji mənbəli olacağını proqnoz etməyə imkan yaradır.

Ekoloji təmiz yaşıl enerji mənbələrindən istifadə olunması muxtar respublikamızın təbii sərvətlərinin iqtisadi dövriyyəyə cəlb olunmasının ən yaxşı yollarından biridir. Bu tədbirlər Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyi istiqamətində dövlətimizin həyata keçirdiyi işlərə dəstək olmaqla bərabər, eyni zamanda yeni minilliyin çağırışları olan davamlı inkişaf prinsiplərinə də cavab verir. Yeni texnologiyaların tətbiqi, istehsalda, nəqliyyatda və məişətdə daha az enerji və maddi resurs istifadəsinə əsaslanan, təkcə indiki nəsillərin deyil, gələcək nəsillərin də normal yaşayışı üçün düzgün qərarların verilməsini özündə ehtiva edən bu strategiya məhz davamlı inkişafın özəyini təşkil edir. Qeyd edək ki, bu, eyni zamanda prestij məsələsi də olub, dövlətlərin, onların hökumətlərinin, regional idarəedicilərin, bələdiyyələrin, özəl sektorun və sadə vətəndaşların birgə səyləri ilə mümkün olan bir əməkdaşlıq formuludur. Bu gün hər bir mədəni insan öz istehlakı, davranışı ilə ətraf mühitə daha az zərər vurmaq, daha az tullantıya səbəb olmaq üçün yollar axtarır, mümkün olduğu qədər yaşıl enerjidən istifadəyə, ictimai nəqliyyata, elektrikli avtomobillərə, skuterlərə, velosipedlərə üstünlük verməyə, şəhər içində yöndəmsiz və yersiz görünən iri mühərrik həcmli avtomobillər sürməkdən qaçmağa çalışır. Bütün bunlar yeni dövrümüzün reallığı olmaqla həm iqtisadiyyatın inkişafında yeni texnologiyaların tətbiqinin, həm də təkcə özünü deyil,

başqalarını da düşünən cəmiyyət üzvlərinin mədəni həyatındakı imperativlərin yaratdığı obyektiv bir mənzərədir.

***"Şərq Qapısı" qəzeti, 2 iyun 2023-cü il***

[***https://serqqapisi.gov.az/xeberler/yasil-enerjiden-istfiade-dovrun-telebi-iqtisadi-ve-medeni-inkisafin-gostericsidir***](https://serqqapisi.gov.az/xeberler/yasil-enerjiden-istfiade-dovrun-telebi-iqtisadi-ve-medeni-inkisafin-gostericsidir)

## 35 illik boşanma davasının acı sonu: davay do svidaniya

Son günlərə öz damğasını vuran Brüssel və Moskva görüşlərinin nəticələri onsuz da ikiyə bölünmüş məğlub hayların arasındakı çaxnaşmanı daha da dərinləşdirib. Xankəndidəki baş cinayətkar Arayikin və Ermənistan baş nazirinin Moskvadakı bədbin notlarla dolu açıqlamalarını gördükdə separatçıların 35 il əvvəl, 1988-ci ildə başlatdıqları Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək kimi bədnam "miatsum" ərazi iddiaları bir daha yada düşür. Bu mənada, artıq Qarabağ münaqişəsinin tarixə gömüldüyü və bölgədə kommunikasiyaların açılması zərurəti müzakirə olunduğu bir zamanda bütün Cənubi Qafqazın inkişafını ən azı əlli il geriyə salmış erməni separatizminin və ya başqa dillə desək, onları məğlub vəziyyətə gətirib çıxaran bu sərsəm "boşanma davası"nın tarixçəsini haylara bir daha xatırlatmaq yerinə düşərdi




Tarixən heç bir zaman bir yerə toplana bilməyib, dövlət qurmağı bacarmayan ermənilərin separatizm həvəsi hələ keçmiş SSRİ-nin guruldayan vaxtlarında belə olsa da, bu bədnam istək zaman-zaman onların qursağındaca çürüyüb qalıb. 1965-ci ildə İrəvanda instinkt əmri ilə küçəyə axışan çoxsaylı erməninin iştirakı ilə keçirilən və odövrkü dəmir rejimli Moskvanın bir əmri qısa müddətdə dağıdılan antitürk

mitinq hələ o dövrdə bu bədbəxt millətin xəstəliyinin heç də ambulator müalicə ilə sağalmayacağı diaqnozu qoyurdu. Qardaş Türkiyədən torpaq iddiası ilə meydanlara çıxmış həmin "yanlar" o zaman Sovet dövlətindən ciddi bir kötək yesələr də, zaman keçdikcə erməni şüuraltında bunun bir yolunun tapılması üçün yeni bir günün gəlməsi fürsəti axtarılırdı. Ancaq qısa bir müddət sonra, yəni 1969-cu ildə xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycana siyasi hakimiyyətə təyin olunması ilə bu bədnam planlar ən azı 15 il də təxirə salındı. Ta ki yeni dövr erməni şovinisti Balayanın 1981-ci ildə erməni dilində İrəvanda, 1984-cü ildə isə rus dilində Moskvada çap etdirdiyi "Ocaq" kitabında Azərbaycana qarşı əsassız ərazi iddialarının irəli sürülməsinə qədər. Daha sonrası isə hər kəsə bəllidir: o dövrdə ermənilərə işləyən sovetlərin baş keçəl məddahı Qorbaçovun onları necə dəstəkləməsi, Qərbi azərbaycanlıların öz doğma torpaqlarından qovulması, 1988-ci ildə Qarabağda separatçıların Azərbaycandan ayrılıb Ermənistana birləşmək üçün başlatdıqları mitinqlər, həmin ilin fevralında iki azərbaycanlı gəncin qətlə yetirilməsi ilə başlanan qanlı hadisələr və rəsmi İrəvanın münaqişə tərəfi kimi Xankəndini Azərbaycanla üz-üzə qoymaq cəhdləri yaxşı yadımızdadır. Şübhəsiz, indi bütün bunları bizdən də yaxşı yada salan bugünkü Qarabağ erməniləri Paşinyanın Brüssel bəyanatından sonra artıq Ermənistanla olan "qısa evlilikdən" rəsmən "boşanmış" hesab oluna bilərlər. Buna görə də indi artıq Laçındakı nəzarət-buraxılış məntəqəsindəki Azərbaycan sərhədçisinə sənədlərini təqdim edib, keçən ermənilər bu gün həmin o lənətə gəlmiş erməni ideoloqlarına, onların bədnam kitablarına, separatizmi dəstəkləmiş erməni lobbisinə, əlinə avtomat silah alan keşişlərinə eyni dərəcədə hayları dünyada rəzil etmiş unitaz daşıyan Sarkis qədər nifrət edirlər. Görəsən haylar bir zamanlar başlatdıqları separatizmin sonunun belə bitəcəyini, hər iki tərəfdən on minlərlə insanı məhv edəcək bu

qanlı münaqişənin səbəbkarı kimi damğalanacaqlarını, iri dövlətlərin əlində siyasət aləti kimi danışan kuklaya dönəcəklərini bilsəydilər bunu başladardılarmı? Yoxsa, doğrudan da, Qarabağı Ermənistana birləşdirmək istəyən ozamankı separatistlər xəritədə Laçın və Kəlbəcər kimi geniş əraziləri görməyəcək dərəcədə kor olublar? Ya, doğrudan da, bu insanların hamısında idman yarışındakı qızın əlindən bayraq qapıb qaçan erməni kimi bir meymun şüuru vardır? Kim bilir?! Amma onu deyə bilərəm ki, hazırkı ermənilərin ən ağıllısı sayılan Paşinyan belə gedərsə, öz millətinin sonunu yaxşı gördüyü üçün haqlı olaraq Qarabağ ermənilərinə də bu sözləri deyib: "davay do svidaniya!"

Kəlmənin rus dilində işlənməsi bir təsadüf olsa da, bu məncə, bundan sonrakı fikirlərimizə daha da dəstək olacaq. Belə ki, kolorit baxımından o qədər də zəngin olmayan rus dilindəki ən mədəni "çıx get!" ifadəsi bu yolla təkcə artıq heç kimə lazım olmayan Qarabağ separatçılarına deyil, həmçinin Ermənistanın üzv olduğu KTMT-yə, bu ölkədəki Rusiya hərbi bazasına və digər rus varlığına da ünvanlanıb. Lakin o da var ki, Rusiyanın bu ölkəni illərboyu forpostuna çevirməsindən, onun strateji müəssisələrinin tam sahibi olmasından, onunla istədiyi dildə danışmasından bezən Ermənistanın isə ondan "boşanması" heç də asan olmayacaq. Baxmayaraq ki, bu gün hələ də Rusiya azadlıqsevər Ukraynanın geniş bataqlıqlarında ilişib qalmaqda, beynəlxalq təzyiqlərə rəğmən rus xalqı işğalçılığa qarşı səs çıxarmamaqla öz tarixini ləkələməkdə davam edir, ancaq bu, Ermənistanın asan şəkildə Rusiyanın pəncəsindən qopub müstəqil olmaq xəyallarına qovuşması demək deyildir. Belarusu faktiki olaraq bir vilayəti kimi istiqamətləndirən Rusiya işğal olunmuş Ukrayna torpaqları ilə yanaşı, hələ də həllini tapmamış Abxaziya, Cənubi Osetiya, Dnestryanı kimi separatist qurumların birbaşa hamisi olaraq Ermənistanı da nəzarətdə saxlamaq, eləcə də Orta Asiya respublikalarında qızışdıra biləcəyi separatist ocaqları zaman-

zaman gündəmə gətirməklə, sadəcə, öz varlığını qorumaq istəyir. Ancaq zaman artıq həmin 30-35 il əvvəlki zaman deyildir. Artıq Qarabağdan işğalçı Ermənistanın qovulması ilə Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsi ilə yaranan yeni bir mərhələ Rusiya dəstəkli bütün separatist ünsürlərin də zamanla məhv olacağı tarixi daha da yaxınlaşdırır.

Bəli, bu gün Qarabağ ermənilərinin səsi özlərinin qazdığı quyunun ta dibindən gəlir. Azərbaycanın reinteqrasiya təkliflərinə "hə" deməyə üzləri olmayan haylar bütün dünyanın onlardan üz çevirdiyini hər keçən gün daha yaxşı anlayırlar. Bir zamanlar işğal etdikləri torpaqlarda əsl vəhşi həyatı keçirib, xalqımıza məxsus sərvətləri talan edəndə səsləri çıxmayan ermənilər yeni formalaşan dünya düzənində onlara yer olmayacağından bərk təşvişə düşüblər. Bu təşvişdən tələm-tələsik özünə "yeni evlilik" axtaran ermənilərə isə artıq bizim cəmiyyətdə qətiyyən yer olmayacaq. Çünki hər cür çirkin işlərlə bərabər, evlilik diplomatiyası ilə qızlarını digər xalqların içinə sızdırmış ermənilərin, onların nəvə-nəticələrinin iç üzü açıldıqca insanlar kimin dost, kimin düşmən olduğunu yaxşı biləcəklər.

***https://mia.az/w1049052/1049052***

***24 may 2023-cü il***

## Yeni yüz ilin qurucusu Qardaş Türkiyə

Son həftələr təkcə regionda deyil, bütün dünyada gündəmi sıx məşğul etmiş Türkiyədəki seçkilər artıq başa çatmış, türk xalqı öz seçimini etmişdir. Son iyirmi il ərzində türk siyasətinə öz adını yazdırmış Rəcəb Tayyib Ərdoğan dövlət başçımız cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da qatıldığı andiçmə mərasimindən sonra yenidən beşillik iqtidar səlahiyyətlərinin icrasına başladı. Bununla da


7 iyun 2023-cü il
2
"Şərq qapısı" qəzeti

Yeni yüz ilin qurucusu Qardaş Türkiyə

iki turdan ibarət gərgin keçən seçkilərdə öz sözünü demiş Türkiyə seçicisi təkcə ölkəsinin deyil, ona yaxın və uzaq demədən hər kəsin maraqlarının uzlaşdığı ən doğru seçimini etdi. Türkiyə Cümhuriyyət tarixinin yeni yüz ilinə özünün qəti addımları ilə **"Ya Allah!"** dedi.

Türkiyənin hazırkı Prezidenti Rəcəb Tayyib Ərdoğanın hər açılış mərasimlərinə damğa vuran bu sözləri, əslində, qardaş ölkə liderinin başlatdığı hər missiyanın uğurla başa çatması, şeytanın şərindən, bədnəzərin gözündən qorunmaq üçün təkcə ölkəsinin deyil, bütün insanlığı hifz edəcək ən müstəcəb dua kimi yaddaşımızda qalacaqdır. Hər addımında **"Bismillah!"** deyib, icraata başlayan türk lider bununla da ölkəsinin tarixi üçün yeni olacaq bir dövrdə iqtidarda qalmaqla dünya siyasətçilərinin də ağsaqqalı olmağı bacardı.

Şübhəsiz, qardaş ölkədəki prezident və parlament seçkiləri haqqında bir çoxları əvvəlcədən fikirlər səsləndirsələr də, bu mövzuda doğru fikir bildirmək üçün nəticələri gözləmək ən düzgün qərar idi. Belə ki, dünyanın əsas aparıcı informasiya agentliklərinin ana xəbər başlıqlarında yer alan bu seçkilərdə yerli vətəndaşlardan sonra ən çox qardaşlıq bağlarının bir-birinə bu qədər sıx bağladığı azərbaycanlıların türkçülük heysiyəti ön plana çıxırdı. Bunun səbəbi isə təsadüfi olmayıb bir-birinə qardaşlıq telləri ilə bağlı olan xalqlarımız üçün, həm də bütün Türk dünyası üçün ehtimal oluna biləcək uğursuzluğun yaşanmaması və bunun üçün dualar edilməsi ilə təzahür edirdi. Bu, qardaş ölkə

vətəndaşı olaraq artıq arxada qalmış seçkiyə istəklərimizin ən sadə və ən səmimi ifadəsi idi.

Ədalətlə bitmiş bu seçkilər Türkiyənin son 20 ildə qət etdiyi məsafə, dünya arenasındakı nüfuzu, eləcə də qarşılaşdığı problemlərin həlli, yaşadığı təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması fonunda formalaşmış güclü milli iradənin seçki bülletenlərinə olan inikası kimi yadda qalacaq. Məhz bu güc, eləcə də Avropa və Asiyanın kəsişməsindəki bu qocaman dövlətin minillik tarixi keçmişi dövründə verdiyi azadlıq savaşları, eləcə də erməni millətçiləri kimi daxili satqınlara qarşı apardığı mübarizələr, böyük güclərin siyasi oyunlarına boyun əymədən keçdiyi çətin sınaqlar, son nəticədə, bütün dünyanın gözü qarşısında hər kəsə sözünü deyə bilən, yaşadığı çətinliklərdən üzüağ çıxan, dostuna sadiq olduğu qədər, düşməninə də kəmfürsətlik etməyən bir Türkiyə yaratmışdır. Bu gün Kanadadan Avstraliyaya qədər dünyada hər kəsin böyük məmnuniyyətlə səyahət etdiyi Türkiyə bu gün özünün tolerant insanları, yüksək milli qonaqpərvərliyi və peşəkar turizm servisləri ilə hər kəsin qəlbində taxt qurmuşdur. Özünün çalışqanlığı və məsuliyyətliliyi ilə bütün dünya ölkələrində hörmətlə qarşılanan türk sərmayəçiləri həyata keçirdikləri layihələr və yaratdıqları iş yerləri ilə ölkəsinin nüfuzunu artırmışdır. Qısa bir müddətdə regional gücdən qlobal güc mərkəzinə çevrilən qardaş ölkənin bu nüfuzu isə, heç şübhəsiz, təkqütblü dünya hakimiyyətinə iddiası olanları narahat etməkdədir. ***“Dünya beşdən böyükdür!”*** şüarı ilə dünya nizamının təkcə imperialistlərin əlində olmadığını bəyan edən Türkiyə lideri məhz beş yüz ildən bəri dünyadakı bütün ədalətsizliklərin əsl səbəbkarlarının BMT Təhlükəsizlik Şurasının indiki beş daimi üzvü olduğunu hər yerdə çəkinmədən üzlərinə deməklə bu yolla məzlum xalqların ürəyinə yol tapmışdır. Bunu təkcə sözdə deyil, əməldə də isbat edən Türkiyə bu gün özünü təsdiqləməklə Afrikadan Çinə qədər geniş bir coğrafiyada bir

çox inkişaf etməkdə olan ölkələrin çox ehtiyacı olan sosial infrastruktur, nəqliyyat və logistika, təhsil, turizm və mədəniyyət layihələrinə öncüllük edir. Bu ölkələrin öz hökumətlərinin belə başlaya bilmədiyi belə layihələr məhz son 20 ildə daha da kütləvi olaraq yayılmaqla Türkiyənin nüfuzunu planetar səviyyəyə qaldırmışdır. Bu gün dünya düzəninin yenidən formalaşdığı gərgin siyasi münasibətlər və Rusiya-Ukrayna müharibəsi fonunda Qara dəniz taxıl dəhlizinin baş zəmanətçisi olan Türkiyə məhz onun siyasi liderinin qətiyyəti sayəsində dünyada ərzaq böhranın yaşanmaması üçün də mücadilə aparır. Müharibənin ədalətlə başa çatacağının artıq işğalçı Rusiya daxil, hamının yaxşı başa düşüldüyü bu dövrdə taxıl dəhlizi kimi enerji dəhlizinin də açıq qalması, eləcə də Türkiyənin münaqişə tərəfləri olan iki slavyan xalq arasında ən yaxın vasitəçi olması, bunu bacara bilməyən iri dövlətlər tərəfindən qısqanclıqla qarşılanmaqdadır. Bu, qardaş ölkənin siyasi liderinin həmişə haqq tərəfində olmaqla özünün zəngin siyasi təcrübəsindən, dünya liderlərinə nüfuzedici təsir gücündən məharətlə istifadəsindən irəli gəlir. Bütün bunlar da, öz növbəsində, ölkəsində yeni yüz ilin qurucusu olmaq missiyasının nəyə görə yenidən Rəcəb Tayyib Ərdoğana nəsib olduğunu açıqca ifadə edir.

Türkiyə Cümhuriyyəti Türk dünyasının lokomotivi, türkdilli dövlətlərin mənəvi lideridir. Bu missiya zamanzaman Rusiya, SSRİ və Çin maneəsinə ilişib qalsa da, Türkiyə sevdası Uyğurustandan Bosniyaya, Sibirdən Kərkükə, Təbrizdən Dərbəndə qədər hər yerdə özünü yaşadıb, insanların dilindən türkcə nəğmələr heç zaman düşməyib. Qardaşlıq bağlarının tikanlı məftillər arxasından daha sıx bağlandığı ötən 200 il türkdilli dövlətləri ortaq iqtisadi inkişafdan geri salsa da, mədəni və humanitar əlaqələr heç zaman səngiməmiş, əksinə, daha da arzu edilən, daha da ülvi olmuşdur. Bu gün SSRİ-nin yox olduğu, Rusiyanın isə hər

keçən gün nüfuzunun daha da zəiflədiyi bir zamanda yola hazırlaşan Türk birliyi karvanını arxasınca apara biləcək siyasi güc məhz yenə də qardaş Türkiyənin üzərinə düşmüşdür. Türkdilli ölkələrin ən böyük iqtisadi gücü, NATO-nun ikinci böyük hərbi qüvvəsi və tək müsəlman üzvü, mədəniyyətlərarası dialoq və layiq demokratik dəyərlər quruculuğunda önəmli bir ölkə olan Türkiyə Avropa və Şərq ölkələri arasında əsl etibarlı körpü rolunu da oynamaqdadır. Regional münaqişələrdən və yoxsulluqdan qaçıb mühacir həyatı keçirənlərə də qucaq açan türk xalqı özünün tolerantlığı və qonaqpərvərliyi ilə soyuqqanlı Qərbə həmişə insanlıq dərsi keçmişdir.

Bugünkü Türkiyə İslami dəyərlərə sadiq, mədəni ölkədir. Məhz İslam Mədəniyyəti prinsipləri əsasında bütün müsəlmanların bacı-qardaş olduğunu, dünyanın istənilən yerində torpaqları işğal edilmiş, haqqı tapdalanan müsəlmanların yanında olan Türkiyə dövləti bunu sözdə deyil, əməldə də göstərən güclü müsəlman dövlətidir. Praktiki olaraq dünyanın hər bir dövləti ilə qurduğu diplomatik əlaqələri sayəsində bu işi bacara bilən Türkiyə öz dövləti ərazisində də əcnəbi diplomatlara, onların ailə üzvlərinə olan hörməti ilə seçilir. İstanbulun fəthindən sonra onu bir dünya şəhəri halına gətirmiş Türkiyə qədim mədəniyyətlərin və müasir sivilizasiyaların bir arada yaşaya bildiyi bir məkana, dünyanın texnologiya mərkəzinə, nəqliyyat, kommunikasiya qovşağına, turizm, mədəniyyət və idman mərkəzinə çevrilmiş, bütün vilayətlər iqtisadi inkişafa qovuşmuşdur. Dilindən, irqindən və məzhəbindən asılı olmayaraq, hər yeni günə "Allahu Əkbər" nidası ilə başlayan türk insanı öz həyatını savab işlər niyazı ilə bitirmək əzmi ilə insanı məhz insan olduğu üçün sevdiyini bütün dünyaya göstərir. Bu mənada, imperializmin miras qoyduğu terror təhlükəsi ilə uğurla mücadilə edən Türkiyə bunu heç zaman bir fobiya səviyyəsinədək şişirtməyən tək ölkə kimi də tanınmaqdadır.

Türkiyə liderinin də dediyi kimi terrorun dini, milləti və məkanı yoxdur!

Müasir Türkiyə tablosunda, onun siyasi liderinin profilində Azərbaycanın öz rəngləri vardır. Şanlı Azərbaycan bayrağının hər üç rəngini öz doğma övladı kimi mənimsəmiş Türkiyənin istər tarixin keçmiş dövrlərində, istərsə də ölkəmizin dövlət müstəqilliyi dövründə xalqımızın haqq səsinə səs verməsi Ulu Öndər Heydər Əliyevin təbirincə ***"Bir millət iki dövlət"*** ən yüksək səviyyəyə qalxmışdır. Azərbaycanın məruz qaldığı rus və erməni işğallarında həmişə yanında olmuş Türkiyə bu savaşlarda verdiyi şəhidlər və göstərdiyi siyasi mənəvi dəstəklə əsl qardaşlıq nümunəsi göstərmişdir. Çanaqqala döyüşlərində şəhid olan minlərlə Azərbaycan əsgərinin xatirəsini əbədi yaşadan türk milləti Qafqaz İslam Ordusunun xilaskarlıq missiyası ilə də xalqımızın tarixində dərin qardaşlıq izləri qoymuşdur. SSRİ-nin dağılması ilə fürsət tapan erməni terrorizmi və separatizminə hədəf olan Azərbaycanı birmənalı olaraq dəstəkləyən Türkiyə Böyük Qarabağ Zəfərinin də qazanılmasında dövlətimizə ən böyük siyasi və mənəvi dəstəyini açıqca bəyan etdi. Bu qardaşlıq, bu doğmalıq daha sonra iki dövlət arasında müttəfiqlik haqqında Şuşa Bəyannaməsi ilə təsdiqlənib, Qəhrəmanmaraş zəlzələsinin dərdlərinə məlhəm olmasında möhkəmlənib, bir-birinə ***"əziz qardaşım"*** deyə müraciət edən iki dövlət başçısına ünvanlanmış gurultulu alqışlarla yaddaşlarda əbədi qaldı. Beləcə, tarixin bütün sınaqlarından üzüağ çıxan Türkiyə-Azərbaycan qardaşlığı yeni minilliyə daha əmin addımlarla irəliləyir.

**Allah TÜRKÜ qorusun!**

*"Şərq Qapısı" qəzeti, 7 iyun 2023-cü il*
***https://serqqapisi.gov.az/index.php/xeberler/yeni-yuz-ilinin-qurucusu-qardas-turkiye***

# “TikTok” Parisi partladır

Son günlər Şimal yarımkürədə havaların istiləşməsi ilə sanki siyasi gündəmin də bir anda qaynadığı Avropadakı gərginliklər qoca qitənin tarixi qaynaqlanan münaqişələrində yeni üzünü ortaya qoyur. Keçmişindən gecələri şeytanın iş başında olduğu Fransa şəhərlərindəki qanlı hadisələr bu ölkədə və ümumiyyətlə, “fransız rifahında” yaşayan digər ölkələrdəki əsl gerçəklikləri gün üzünə çıxarır. Əsl maraq isə ötən ayın 27-də Fransada 17 yaşlı Əl-Cəzair mənşəli gəncin polis atəşi ilə öldü-rülməsindən sonra baş-lanan xaotik üsyanların artıq Belçika və İsveçrə kimi digər ölkələrə keçməsi ilə onun bütün Avropaya yayılması qorxusundan qaynaqlanır. Paris və digər böyük şəhərlərin gecələr alova büründüyü ölkədə “TikTok” və digər sosial şəbəkə platformalarına qarşı məhdudiyyətlər qoyulması, əslində, vətəndaş qarşıdurması kimi qorxulu bir nağılın fransızların da başına gəldiyindən xəbər verir.


TikTok Parisi partladır

03-07-2023 [11:59]

Əli Cabbarov,

Naxçıvan Dövlət Universitetinin dosenti

---

Son günlər Şimal yarımkürədə havaların istiləşməsi ilə sanki siyasi gündəmin də bir anda qaynadığı Avropadakı gərginliklər qoca qitənin tarixi arxazəminindən qaynaqlanan münaqişələrin yeni üzünü ortaya qoyur. Gecələri şeytanın iş başında olduğu Fransa şəhərlərindəki qanlı hadisələr bu ölkədə və ümumiyyətlə, “fransız rifahında” yaşayan digər ölkələrdəki əsl gerçəklikləri gün üzünə çıxarır.

Əsl maraq isə Fransada 17 yaşlı Əl-Cəzair mənşəli gəncin polis atəşi ilə öldürülməsindən sonra başlanan xaotik üsyanların artıq Belçika və İsveçrə kimi digər ölkələrə keçməsi ilə onun bütün Avropaya yayılması qorxusundan qaynaqlanır. Paris və digər böyük şəhərlərin gecələr alova büründüyü ölkədə TikTok və digər sosial şəbəkə platoformalarına qarış məhdudiyyətlər qoyulması əslində vətəndaş

Fransa tarixini öyrənənlər istər orta əsrlərdə, istərsə də son iki yüz ildəki müstəmləkəçilik dövründə bu ölkənin Afrikada və digər qitələrdə 20-yə yaxın ölkənin insanlarının qanını sormaqla özünə necə rifah qurduğunu, hansı qanlı qırğınlar törətdiyini yaxşı bilirlər. Hələ İkinci Dünya müharibəsi başlayanda cəmi 40 gündə almanlara təslim olmuş Fransanın sonra azad olmasını bayram edən Əl-Cəzairlilərdən 40 min nəfəri bir gündə qətil edən Fransa gücləri sanki o dövrdən bu ölkədə yalnız ağ dərili fransızların müstəqil ola biləcəyini, yalnız onların şəhər mərkəzlərində yaşayacaqlarını, daha üstün imtiyazlara sahib ola biləcəklərini bəyan etmişdilər. Sonrakı illərdə isə daha da azğınlaşan fransız

milliyyətçiliyi bu ölkənin tarix ərzində maarif, mədəniyyət və incəsənətin inkişafına verdiyi töhfələrin üzərindən qara xətlər çəkməklə, əslində, bugünkü Fransanın portretini cızmışdılar. Nəticədə, indi 68 milyondan artıq əhalisi olan, ÜDM-ninhəcminə görə (2.5 trln. ABŞ dolları) Avropada Almaniyadan sonra ikinci, dünyada isə 7-ci ölkə olan Fransada yaşayan 7 milyon əcnəbi kökənli vətəndaşların hüquqlarının tapdalanması, dini və irqi diskriminasiyanın artması bu ölkədə demokratiyadan və insan hüquqlarından dəm vurulmasının nə qədər cəfəng olduğunu bir daha göstərir. 130 ildən artıq bir dövrdə Əl-Cəzairin bütün sərvətlərini sümürüb, bu ölkədə 6 milyon insanın qətlinə səbəb olmuş Fransa bu gün əkdiyini biçməklə nüvə dövləti və BMT-nin Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olmasına baxmayaraq, öz daxilində asayişi qoruya bilməməsinin cəzasını çəkir. Bu gün bütün dünya Fransadan danışmaqla bu ölkənin yalançı bürokratlarının, bələdiyyə sədrlərinin, partiya liderlərinin, yerli idarəedicilərin və bütün bunları mədh edən keçəl məddahlarının dünyaya oxuduqları moizələrin nə qədər içiboş olduğuna inanır. Hazırda təkcə 140 milyon insanın fransızca danışdığı Afrikada nüfuzunu sürətlə itirməsi, bir zamanlar isə dünyada hakim dil olan fransızcanın öz yerini ingiliscəyə verməsi obyektiv olaraq Fransanın dünyada tutduğu dırnaqarası qarantor funksiyasının da supergüclər olan ABŞ və Çin tərəfindən qəbul edilmədiyini göstərir. Özündən on min kilometr uzaqda yerləşən, heç bir tarixi-mənəvi bağları olmayan Cənubi-Qafqaza da burnunu soxan Fransanın Rusiyanın zəifləməsindən sonra burada yaradılacaq davamlı sülhə mane olmaq cəhdləri, ölkəsindəki 400 min erməninin əsirinə çevrilməsi də bu şübhələri daha da dərinləşdirir. Bu gün məğlub Ermənistanı dolayı yollarla silahla təchiz edib bu ölkədə revanşizmi daha da qızışdıran, ölkəsindəki bir ovuc erməni diasporu ilə sıx əlaqələri olan Fransa bürokratiyasının zaman-zaman ermənipərəst çıxışları,

hətta dırnaqarası erməni soyqırımını inkar edənlərə qarşı həbs cəzası tətbiq etmək kimi qanun layihələri bu ölkə rəsmilərini Müsyo Jordandan da gülməli vəziyyətə salır. Böyük dramaturq M.F.Axundovun bədii təsvirinin məhsulu olan və Parisin inqilablar nəticəsində deyil, əcinnələr tərəfindən dağıdıldığına inanan bu komik personajın düşdüyü gülünc vəziyyət bu gün cənab Makronun vəziyyəti ilə müqayisədə müxtəlif tragikomik tamaşaların eyni səhnələrinə bənzəyir. Bu gün gecələri Fransa şəhərlərinin küçələrinə od vuran miqrant əsilli yeniyetmələrin və onlara qarşı çıxan ifrat sağ fransız milliyyətçilərinin vandallıq və qarətçilik hərəkətlərinin öhdəsindən gələ bilməyən həmin bu komik personajlar qardaş Türkiyədə baş verən zəlzələ zamanı "tanka ehtiyac qalmadığı" kimi ifrat ürək bulandıran bəyanatlar da vermişdilər. Ümumiyyətlə, əhalisinin 5 faizinin müsəlman olduğu Fransanın müsəlmanlara qarşı davamlı olaraq aqressiv münasibət göstərməsi, onun müsəlman qadınlarının başörtüsü məsələsinin hökumət səviyyəsində müzakirə edilən tək ölkə halına gəlməsi bu iyrənc diskriminasiya siyasətinin burada dövlət səviyyəsində necə dəstəkləndiyini bir daha göstərir. Elə baş verən son iğtişaşlar zamanı da hadisələrdən xəbər hazırlamaq üçün barrikadalar ölkəsi Fransaya ezam olunmuş Azərbaycan Televiziyasının əməkdaşlarına qarşı edilən çirkin hücum da bu fobiyanın bir təzahürü idi. Müsəlmanlara qarşı müxtəlif karikaturalarla çıxış edən fransız elitası, onun mətbuatı bunu dəfələrlə etməklə bu gün başlanan "Avropa baharı"nın zəminini hazırlayırdı.

Bir zamanlar yenə də bir fransız müstəmləkəsi olmuş Tunisdə başlanan "ərəb baharı" bir çox ölkələrin, xüsusən Suriyanın tamamilə dağılmasına, terror qruplarının boy atmasına səbəb olmaqla bütün Yaxın Şərqə ciddi zərər vurmuşdur. İnsanların gəlir bölgüsündə, normal yaşayış şərtlərində uğradığı haqsızlığa qarşı üsyan etdiyi, onlara ölkə mənşəyinə görə fərq qoyulduğu, radikal sağçıların belə

insanlara qarşı amansızlığının ən yüksək səviyyəyə çatdığı Fransada bu iğtişaşların ortaya çıxması təsadüfi deyildir. Özünün keçmiş müstəmləkələrindən ildə, təxminən, 500 milyard dollar gəlir əldə edildiyi və bunun sırf fransız mənafeləri üçün xərcləndiyi Fransadakı bu ədalətsizlik bu gün küçələrə axın edən insanların motivasiyasının əsl səbəblərindən biridir. Bir-birinə qarşı gizli nifrətlərinin qorunub saxlanıldığı İngiltərə ilə müqayisədə heç bir miqrantın nəinki baş nazir, heç bələdiyyə sədri də olmadığı Fransada yerli ağ fransızlar arasında işsizlik səviyyəsini 16 faizi aşmadığı halda əcnəbi mənşəli vətəndaşlarda bunun 40 faizə çatması bugünkü iğtişaşların sosioloji zəminini yaradan amillərdəndir. Buna görə də, bayrağının rənglərinin simvolik mənasına görə bərabərlik, azadlıq və ədalət anlayışlarının çoxdan unudulduğu Fransada bütün görülən sahələrdəki vəziyyətin, bütün işlərin fransız ətri iyi verdiyini söyləmək çətindir. İşlərin belə qarmaqarışıq olmasının səbəbinin "TikTok" kimi sosial media platformalarında axtarılması isə mövcud fransız hakimiyyətinin çarəsizliyinin son həddi kimi də qiymətləndirilə bilər. Halbuki belə sosial media kanallarında ən çox özünü populyar etmək istəyən də Fransanın indiki dövlət başçısı Makrondur. Dünənə qədər Fransa prezidentinin başına çırpılan yumurtanın necə sınması, yaxud onun sifətinə vurulan şillənin səsi də həmin paylaşımlarda açıqca hər kəs tərəfindən görülüb və eşidilirdi. Belə olan təqdirdə indi adam dönüb soruşmaq istəyir: – Nooldu, Makron?

***3 iyul 2023-cü il***

***https://www.mia.az/w1050788/tiktok-parisi-partladir-2023-07-03-122909***

## Bir bulaq, bir şəlalə – Gurbulaq

Hər damlası qayalara çırpılıb toz kimi ələnən Gurbulaq şəlaləsi bu günlərdə Şahbuzun cənnət guşəsi Kükü kəndinə

gəlmiş qonaqların və turistləri buraya çəkən əsas cazibə elementlərindəndir. Yamyaşıl çəmənlikləri, ecazkar mənzərəli qayalıqları, zəngin biomüxtəlifliyi ilə təkcə ölkəmizin deyil, bütün Cənubi Qafqazın unikal məkanlarından olan Dərələyəz silsiləsinin cənub yamacı Dərəboğazı təbiət gözəli ağ şəlalə ilə süsləndikcə Naxçıvana bəxş edilmiş gözəlliklərə heyran qalmamaq olmur.

Gurbulaq şəlaləsi, bəlkə də, milyon illərdir, yorulmadan bütün Naxçıvançay yatağında yaşayan canlıların təmiz su qaynağı olan eyniadlı bulağın gözündən, təxminən, 150 metr aşağıda kükrəyərək Araza tələsir. Bu bulaq Naxçıvanda Arazla qovuşan beş böyük çaydan biri Naxçıvançayın ən böyük qolu olan Küküçayın əsas mənbəyi, ilboyu eyni həcmdə, dəqiqədə, təxminən, 2500 litr su sərfiyyatı ilə bir təbiət möcüzəsi kimi hər kəsi təəccübləndirir. Gurbulaq tarixi Azərbaycan əraziləri Göyçə mahalından Araz qırağınadək olan bütün torpaqların həm coğrafi, həm də geoloji bir bütün kimi bir yerdə olması gərəkliyini sübut edən təbiət abidəsi, eyni zamanda ta qədimdən bu yana burada məskən salmış insanların yaddaşında yaşanan saf nemətdir.



**Bir bulaq, bir şəlalə – Gurbulaq**

*Hər damlası qayalara çırpılıb toz kimi ələnən Gurbulaq şəlaləsi bu günlərdə Şahbuzun cənnət guşəsi Kükü kəndinə gəlmiş qonaqların və turistləri buraya çəkən əsas cazibə elementlərindəndir. Yamyaşıl çəmənlikləri, ecazkar mənzərəli qayalıqları, zəngin biomüxtəlifliyi ilə təkcə ölkəmizin deyil, bütün Cənubi Qafqazın unikal məkanlarından olan Dərələyəz silsiləsinin cənub yamacı Dərəboğazı təbiət gözəli ağ şəlalə ilə süsləndikcə Naxçıvana bəxş edilmiş gözəlliklərə heyran qalmamaq olmur.*

Gurbulaq şəlaləsi, bəlkə də, milyon illərdir, yorulmadan bütün Naxçıvançay yatağında yaşayan canlıların təmiz su qaynağı olan eyniadlı bulağın gözündən, təxminən, 150 metr aşağıda kükrəyərək Araza tələsir. Bu bulaq Naxçıvanda Arazla qovuşan beş böyük çaydan biri Naxçıvançayın ən böyük qolu olan Küküçayın əsas mənbəyi, ilboyu eyni həcmdə, dəqiqədə, təxminən, 2500 litr su sərfiyyatı ilə bir təbiət möcüzəsi kimi hər kəsi təəccübləndirir. Gurbulaq tarixi Azərbaycan əraziləri Göyçə mahalından Araz qırağınadək olan bütün torpaqların həm coğrafi, həm də geoloji bir bütün kimi bir yerdə olması gərəkliyini sübut edən təbiət abidəsi, eyni zamanda ta qədimdən bu yana burada məskən salmış insanların yaddaşında yaşanan saf nemətdir.

Təkcə Kükünün Gurbulaq şəlaləsi və onun ətrafı deyil, Şahbuz rayonunun bütün dağlıq əraziləri kənd-yaşıl turizmi və ekoturizm üçün əlverişli məkanlardan biridir. Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı istiqamətlərində həyata keçirilən işlər, o cümlədən daxili turizmin təşviq olunması yerli əhalinin də bu gəlirli sahəyə olan marağını artırıb. Artıq Kükü̈də və Naxçıvançay vadisindəki dağ kəndlərində qonaqların rahat istirahəti və asudə vaxtlarının mənalı keçirmələri üçün müxtəlif kotteclərin inşasına, villatipli evlərin turistlərə kirayə verilməsinə başlanılıb. Bu da, öz növbəsində, əhali gəlirlərinin artmasına və sosial-mədəni infrastrukturun yenilənməsinə səbəb olur. Daxili turizm, xüsusən kəndli gənclərin öz yaşadığı yerdə məşğulluğunu təmin etməklə davamlı məskunlaşmaya da müsbət təsir edir. Bütün bunları qiymətləndirən muxtar respublika dövlət orqanları isə turizmə daha da dəstək olmaq üçün müxtəlif iri infrastruktur tədbirləri həyata keçirir, bu sahədəki fəallığı artırmağa çalışırlar. Gurbulaq istiqamətində bu ilin yazından başlayaraq çəkilən yollar və ərazi planlaşdırılması gələcəkdə Gurbulaq şəlaləsinin daha da axınlı bir turizm destinasiyasına çevriləcəyindən xəbər verir. Xüsusən həftə sonları hər gün yüzə yaxın səyahətçinin bu ərazilərə maraq göstərməsi buna deməyə əsas verir. Gurbulaqda olarkən aldığımız məlumatda bildirildi ki, artan tələbata əsasən verilmiş tapşırıqların icrasına uyğun olaraq Kükü kəndindən şəlaləyə qədər yolun 5 kilometr hissəsində 17 min 500 kubmetr torpaq işləri görülmüş, yol yatağı genişləndirilmiş, yolun eni 6-7 metrə çatdırılmış, yola narın çınqıl döşənmişdir. Mürəkkəb relyef, yağıntının miqdarı və qar qalınlığı nəzərə alınaraq yolboyunca 14 yerdə su keçidləri quraşdırılmışdır. Əvvəllər yalnız xüsusi avtomobillərlə keçilən yolu qısa müddətdə bütün növ avtomobillərlə getmək mümkündür. Şəlalənin ətəyindəki geniş ərazidə isə gələcəkdə turistlərin tələbatlarına uyğun olaraq hər cür sosial-mədəni şəraitin yaradılması planlaşdırılır. Artıq bir bulaq, bir şəlalə sorağına Kükü kəndinə gələn qonaqlar burada müasir bir turizm kompleksi ilə də tanış olacaqlar.

Əli CABBAROV

Təkcə Kükünün Gurbulaq şəlaləsi və onun ətrafı deyil, Şahbuz rayonunun bütün dağlıq əraziləri kənd-yaşıl turizmi və ekoturizm üçün əlverişli məkanlardan biridir. Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı istiqamətlərində həyata keçirilən işlər, o cümlədən daxili turizmin təşviq

olunması yerli əhalinin də bu gəlirli sahəyə olan marağını artırıb. Artıq Küküdə və Naxçıvançay vadisindəki dağ kəndlərində qonaqların rahat istirahəti və asudə vaxtlarının mənalı keçirmələri üçün müxtəlif kotteclərin inşasına, villatipli evlərin turistlərə kirayə verilməsinə başlanılıb. Bu da, öz növbəsində, əhali gəlirlərinin artmasına və sosial-mədəni infrastrukturun yenilənməsinə səbəb olur. Daxili turizm, xüsusən kəndli gənclərin öz yaşadığı yerdə məşğulluğunu təmin etməklə davamlı məskunlaşmaya da müsbət təsir edir. Bütün bunları qiymətləndirən muxtar respublika dövlət orqanları isə turizmə daha da dəstək olmaq üçün müxtəlif iri infrastruktur tədbirləri həyata keçirir, bu sahədəki fəallığı artırmağa çalışırlar. Gurbulaq istiqamətində bu ilin yazından başlayaraq çəkilən yollar və ərazi planlaşdırılması gələcəkdə Gurbulaq şəlaləsinin daha da axımlı bir turizm destinasiyasına çevriləcəyindən xəbər verir. Xüsusən həftə sonları hər gün yüzə yaxın səyahətçinin bu ərazilərə maraq göstərməsi bunu deməyə əsas verir. Gurbulaqda olarkən aldığımız məlumatda bildirildi ki, artan tələbata əsasən verilmiş tapşırıqların icrasına uyğun olaraq Kükü kəndindən şəlaləyə qədər yolun 5 kilometr hissəsində 17 min 500 kubmetr torpaq işləri görülmüş, yol yatağı genişləndirilmiş, yolun eni 6-7 metrə çatdırılmış, yola narın çınqıl döşənmişdir. Mürəkkəb relyef, yağıntının miqdarı və qar qalınlığı nəzərə alınaraq yolboyunca 14 yerdə su keçidləri quraşdırılmışdır. Əvvəllər yalnız xüsusi avtomobillərlə keçilən yolu qısa müddətdə bütün növ avtomobillərlə getmək mümkündür. Şəlalənin ətəyindəki geniş ərazidə isə gələcəkdə turistlərin tələbatlarına uyğun olaraq hər cür sosial-mədəni şəraitin yaradılması planlaşdırılır. Artıq bir bulaq, bir şəlalə sorağına Kükü kəndinə gələn qonaqlar burada müasir bir turizm kompleksi ilə də tanış olacaqlar.

***“Şərq Qapısı” qəzeti, 10 iyul 2023-cü il***
***https://serqqapisi.gov.az/xeberler/bir-bulaq-bir-selale-gurbulaq***

# Qafqaz əsiri

Cənubi Qafqaza köçürüldükləri dövrdən satqınlıqla məşğul olub, özlərinə qahmar toplayan ermənilərin bu dəfə düşdükləri vəziyyət tam bir komediya ssenarisi olmaqla, 55 il bundan əvvəl çəkilmiş və SSRİ kino sənayesində gəlirinə görə 4-cü yeri tutmuş məşhur "Qafqaz əsiri"nin süjetlərini xatırladır. Öz bacısı qızı gözəl Ninanı 20 qoyun və bir sovet soyuducusu əvəzində komxoz sədrinə satan alçaq ermənininin, filmin sonunda arxasından duz gülləsi yeyib məhkəmədə stula otura bilməyən həmin komxoz sədrinin, onların başına min oyunlar gətirən Şuriklə məşhur üçlüyün və hətta Şurikin mindiyi tərs heyvanın prototipləri bu gün Xankəndindəki və buradan min kilometrlə uzaqdakı mənfur siyasətçilərin birəbir eyniləridir.


Qafqaz əsiri

(replika)

Cənubi Qafqaza köçürüldükləri dövrdən satqınlıqla məşğul olub, özlərinə qahmar toplayan ermənilərin bu dəfə düşdükləri vəziyyət tam bir komediya ssenarisi olmaqla, 55 il bundan əvvəl çəkilmiş və SSRİ kino sənayesində gəlirinə görə 4-cü yeri tutmuş məşhur "Qafqaz əsiri"nin süjetlərini xatırladır. Öz bacısı qızı gözəl Ninanı 20 qoyun və bir sovet soyuducusu əvəzində komxoz sədrinə satan alçaq ermənininin, filmin sonunda arxasından duz gülləsi yeyib məhkəmədə stula otura bilməyən həmin komxoz sədrinin, onların başına min oyunlar gətirən Şuriklə məşhur üçlüyün və hətta Şurikin mindiyi tərs heyvanın prototipləri bu gün Xankəndindəki və buradan min kilometrlə uzaqdakı mənfur siyasətçilərin birəbir eyniləridir.

Əlbəttə, komediya janrında çəkdiyi qısametrajlı filmlərlə 1970-ci ildən bəri hamının yaxşı tanıdığı və o dövrün reallıqlarını çox gözəl ştrixlərlə açmağı bacaran görkəmli kinorejissor Leonid Qayday yarım əsr keçəndən sonra onun prototipinin Makron olacağını heç ağlına gətirməzdi. O dövrdə Fransanın başı Afrikadakı əlindən çıxan müstəmləkələrinə qarışdığından bu, yəqin ki, onun diqqətini cəlb edə bilməzdi. Elə indi də Parisdə oturub uzaq Cənubi Qafqazda film ssenarisi yazmağa çalışan Ninanın dayıları bu bədbəxt ermənilərin əldən çıxmaması üçün onların başına torba keçirib, qabaqlarına arpa tökməklə sanki özlərinə beş-on minlik seçki elektoratı toplamaq istəyindədirlər. Amma müsyo Makron yaxşı ssenarist olsa da, bu filmin hələ Aqanbekyanın "Humanite" qəzetinə verdiyi o mənfur araqarışdıran müsahibəsindən başladığını, uzun illər boyu planlaşdırılsa da, 2020-ci ilin 10 noyabrında sona çatdığını unutmamalıdır.

Ermənilər Qafqaza köçürülmə millətdirlər və hər bir köçəri tayfanın da özünəməxsus xüsusiyyətləri vardır. "Erməni" demək, "tərslik" deməkdir. Elə "Qafqaz əsiri" filmində sərgüzəşt axtaran Şurikin mindiyi tərs heyvan da bu gün Arayikin rəngində olmasa da, onun ahəngində olan bir personajdır. Kiminsə dalınca düşüb itaətkarcasına yoluna davam edən bu zavallı heyvan filmin əvvəlindən sonuna qədər tamaşaçıları güldürməklə, özünə yem qazanmağı da bir növ yaxşı bacarır.

Qafqaz üç yüz ilə yaxın müddətdə rusların işğalı altında olub. Sonuncu müvəqqəti rus "sülhməramlısı"nın Qarabağdan əl-ayağı çəkiləndən sonra inşallah ki, müstəqil ölkəmiz rus əsgərinin Cənubi Qafqazdan tamamən çəkiləcəyi ilk ölkə olacaq. "Qafqaz əsiri" filmində də bütün süjet boyunca adamları əyləndirib, amma, əslində, pul qarşılığında muzdlu xidmət göstərən "Qorxaq", "Axmaq" və "Çoxbilmiş" tipləri isə bu gün təkcə Qarabağda deyil, digər yerlərdəki separatistləri qucağına alıb tüfeyli, əyyaş davranış göstərən rus əsgərlərinin tə özüdür. Bu gün yeri gələndə bir-birinin təyyarəsini belə vuran rus əsgərləri Ukraynada məhv olmaqdansa, Xankəndidə Azərbaycan qoğalını yeməkdən imtina edən gözəl ninalarla əylənmək, ya rüşvət alıb iş düzəltmək, ya da düzələn işləri bərbad edib ara qarışdırmaqla "hərbi xidməti" yola verməyin yolunu tapıblar.

Filmin əsas personajlarından biri Ninanı qaçırıb müdirinə satan komxoz sədrinin sürücüsü olan erməni bu gün Laçın yolunda yaxalanan Xaçaturyan kimi erməni terrorçularının fotosurəti kimi lentə alınıb. Öz bacısı qızını belə pula satan o erməni ilə keçmiş qanlı əməllərinə görə öz qızının gözü qarşısında yaxalanan bu ermənininin nə fərqi ola bilər ki?! Kim bilir, hələ neçə ermənini belə aqibət gözləyir. Hər halda kimsə indi bunu dəqiq bilməsə də, Amerikadakı mənfur Kim onları hamıdan yaxşı tanıyır.

Təkcə Xankəndidə yox, Rusiyada da Vardanyanı tanımayan yoxdur. Çirkli pullarını yumaqla dünya maliyyə qurumlarının sanksiyalarına da tuş gəlmiş milyarder Rubik Xankəndidəki oğrulara sığınmaqla sanki pullarının hesabına adam olduğunu zənn edir. Onun da sonunun filmdəki komxoz sədri kimi fiasko ilə nəticələnəcəyini, pullarının batıb, özünün də məhkəmədə rüsvay olacağını indi özü hamıdan yaxşı bilir. Budəfəki filmin ssenarisini kim yazsa da, necə yazsa da, Qafqazın əsl sahiblərindən birinin, onun ən güclü dövlətinin Azərbaycan olduğunu vardanyankimilər unutmamalıdırlar. Ona görə də kubik daşları kimi tez-tez o yana, bu yana çevrilən Rubik nə etsə də, istəyir lap özünü öldürsə də gözəl Ninaya əli çatmayacaq.

O ki qaldı filmin baş qəhrəmanı Şurikə, bu gün Moskvadan Xankəndiyə müvəqqəti təyin olunan generallar da onun kimi sonunda anlayacaqlar ki, macəra üçün gəldikləri Cənubi Qafqaz çoxmillətli olsa da, ruslarsız ən gözəl günlərini yaşaya bilən, hər kəsin öz boyuna görə addım atdığı bir torpaqdır. Qarabağ sizin üçün nə Abxaziya, nə Cənubi Osetiya, nə də Krımdır. Odur ki, siz də Şurik kimi şələ-şüləniz toplayıb, sevimli heyvanınızı da minib gəldiyiniz kimi buradan gedin! Qafqazın əsiri olmayın!

Əli CABBAROV

Elan

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi və yerli icra hakimiyyəti orqanlarının birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Kitab Evində, həmçinin rayon mərkəzlərində 1-15 sentyabr 2023-cü il tarixlərdə keçiriləcək məktəbli yarmarkasına muxtar respublika əhalisi dəvət edilir.

Məktəbli yarmarkası hər gün saat 9[00]-dan 14[00]-dək əhaliyə xidmət göstərəcəkdir.

Yarmarkada əhaliyə münasib qiymətlərlə yüksək keyfiyyətdə məktəbli geyimləri və idman formaları, ayaqqabı və məktəbli ləvazimatları təklif olunacaqdır.

Bütün valideynləri və müəllimləri yaradılmış şəraitdən istifadə etmək üçün yarmarkalara dəvət edirik.

*Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi*

Əlbəttə, komediya janrında çəkdiyi qısametrajlı filmlərlə 1970-ci ildən bəri hamının yaxşı tanıdığı və o dövrün reallıqlarını çox gözəl ştrixlərlə açmağı bacaran görkəmli kinorejissor Leonid Qayday yarım əsr keçəndən sonra onun prototipinin Makron olacağını heç ağlına gətirməzdi. O dövrdə Fransanın başı Afrikadakı əlindən çıxan müstəmləkələrinə qarışdığından bu, yəqin ki, onun diqqətini cəlb edə bilməzdi. Elə indi də Parisdə oturub uzaq Cənubi Qafqazda film ssenarisi yazmağa çalışan Ninanın dayıları bu bədbəxt ermənilərin əldən çıxmaması üçün onların başına torba keçirib, qabaqlarına arpa tökməklə sanki özlərinə beş-on minlik seçki elektoratı toplamaq istəyindədirlər. Amma

müsyo Makron yaxşı ssenarist olsa da, bu filmin hələ Aqanbekyanın "Humanite" qəzetinə verdiyi o mənfur araqarışdıran müsahibəsindən başladığını, uzun illər boyu planlaşdırılsa da, 2020-ci ilin 10 noyabrında sona çatdığını unutmamalıdır.

Ermənilər Qafqaza köçürülmə millətdirlər və hər bir köçəri tayfanın da özünəməxsus xüsusiyyətləri vardır. "Erməni" demək, "tərslik" deməkdir. Elə "Qafqaz əsiri" filmində sərgüzəşt axtaran Şurikin mindiyi tərs heyvan da bu gün Arayikin rəngində olmasa da, onun ahəngində olan bir personajdır. Kiminsə dalınca düşüb itaətkarcasına yoluna davam edən bu zavallı heyvan filmin əvvəlindən sonuna qədər tamaşaçıları güldürməklə, özünə yem qazanmağı da bir növ yaxşı bacarır.

Qafqaz üç yüz ilə yaxın müddətdə rusların işğalı altında olub. Sonuncu müvəqqəti rus "sülhməramlısı"nın Qarabağdan əl-ayağı çəkiləndən sonra inşallah ki, müstəqil ölkəmiz rus əsgərinin Cənubi Qafqazdan tamamən çəkiləcəyi ilk ölkə olacaq. "Qafqaz əsiri" filmində də bütün süjet boyunca adamları əyləndirib, amma, əslində, pul qarşılığında muzdlu xidmət göstərən "Qorxaq", "Axmaq" və "Çoxbilmiş" tipləri isə bu gün təkcə Qarabağda deyil, digər yerlərdəki separatistləri qucağına alıb tüfeyli, əyyaş davranış göstərən rus əsgərlərinin ta özüdür. Bu gün yeri gələndə bir-birinin təyyarəsini belə vuran rus əsgərləri Ukraynada məhv olmaqdansa, Xankəndidə Azərbaycan qoğalını yeməkdən imtina edən gözəl ninalarla əylənmək, ya rüşvət alıb iş düzəltmək, ya da düzələn işləri bərbad edib ara qarışdırmaqla "hərbi xidməti" yola verməyin yolunu tapıblar.

Filmin əsas personajlarından biri Ninanı qaçırıb müdirinə satan komxoz sədrinin sürücüsü olan erməni bu gün Laçın yolunda yaxalanan Xaçaturyan kimi erməni terrorçularının fotosurəti kimi lentə alınıb. Öz bacısı qızını belə pula satan o erməni ilə keçmiş qanlı əməllərinə görə öz

qızının gözü qarşısında yaxalanan bu erməninin nə fərqi ola bilər ki?! Kim bilir, hələ neçə ermənini belə aqibət gözləyir. Hər halda kimsə indi bunu dəqiq bilməsə də, Amerikadakı mənfur Kim onları hamıdan yaxşı tanıyır.

Təkcə Xankəndidə yox, Rusiyada da Vardanyanı tanımayan yoxdur. Çirkli pullarını yumaqla dünya maliyyə qurumlarının sanksiyalarına da tuş gəlmiş milyarder Rubik Xankəndidəki oğrulara sığınmaqla sanki pullarının hesabına adam olduğunu zənn edir. Onun da sonunun filmdəki komxoz sədri kimi fiasko ilə nəticələnəcəyini, pullarının batıb, özünün də məhkəmədə rüsvay olacağını indi özü hamıdan yaxşı bilir. Budəfəki filmin ssenarisini kim yazsa da, necə yazsa da, Qafqazın əsl sahiblərindən birinin, onun ən güclü dövlətinin Azərbaycan olduğunu vardanyankimilər unutmamalıdırlar. Ona görə də kubik daşları kimi tez-tez o yana, bu yana çevrilən Rubik nə etsə də, istəyir lap özünü öldürsə də gözəl Ninaya əli çatmayacaq.

O ki qaldı filmin baş qəhrəmanı Şurikə, bu gün Moskvadan Xankəndiyə müvəqqəti təyin olunan generallar da onun kimi sonunda anlayacaqlar ki, macəra üçün gəldikləri Cənubi Qafqaz çoxmillətli olsa da, ruslarsız ən gözəl günlərini yaşaya bilən, hər kəsin öz boyuna görə addım atdığı bir torpaqdır. Qarabağ sizin üçün nə Abxaziya, nə Cənubi Osetiya, nə də Krımdır. Odur ki, siz də Şurik kimi şələ-şülənizi toplayıb, sevimli heyvanınızı da minib gəldiyiniz kimi buradan gedin! Qafqazın əsiri olmayın!

***"Şərq Qapısı" qəzeti, 31 avqust 2023-cü il***
***https://serqqapisi.gov.az/xeberler/qafqaz-esiri-1***

## Qarabağda aparılan antiterror əməliyyatları Azərbaycanın konstitusional hüququdur

Dünya tarixi göstərir ki, özünün düşmənçilik instinktləri ilə insanlığa düşmən kəsilib, insanlara qarşı terrorçuluq törədən hər kim varsa sonunda öz haqlı cəzasını

çəkmiş, əməllərinə görə cavab vermişdir. Keçmişi yalan, yaltaqlıq, hiylə və terror üzərində qurulmuş erməni etnosu da son iki yüz ilə yaxın br müddətdə təkcə Cənubi Qafqazın



## Qarabağda aparılan antiterror əməliyyatları

### *Azərbaycanın konstitusional hüququdur*

*Dünya tarixi göstərir ki, özünün düşmənçilik instinktləri ilə insanlığa düşmən kəsilib, insanlara qarşı terrorçuluq törədən hər kim varsa sonunda öz haqlı cəzasını çəkmiş, əməllərinə görə cavab vermişdir. Keçmişi yalan, yaltaqlıq, hiylə və terror üzərində qurulmuş erməni etnosu da son iki yüz ilə yaxın br müddətdə təkcə Cənubi Qafqazın deyil, bütün dünyanın başına bəla olmaqla gəldiyi nöqtədə ən böyük cəzanı da çəkməyə məhkumdur. Bu mənada, 2020-ci il 10 noyabr Bəyannaməsindən sonra Azərbaycanla reinteqrasiyanı rədd edib türk çörəyini yeməkdən imtina edən ermənilərin bu dəfə yediyi son kötək sonuncu erməninin də yadından çıxmayacaq. 19 sentyabrda Xankəndidə Azərbaycanın qanuni hakimiyyətinin bərpa olunması, buranın hər cür separatçı tör-töküntüdən təmizlənməsi üçün başladılan antiterror əməliyyatları dövlətimizin konstitusional hüququ olmaqla bütün dünyaya da verilən açıq mesajdır.*

Dünyada yeni bir siyasi arxitektura və strateji mübarizələr xəritəsi formalaşdırmış 2001-ci il 11 sentyabr hadisələrindən sonrakı 22 illik dövr Yaxın Şərq, Əfqanıstan, Suriya, Ukrayna müharibələri ilə yadda qalarkən dövlətlərin suverenliyi üçün təhlükə yaradan terrorist ünsürlərə qarşı antiterror əməliyyatları da zaman-zaman gündəmə gəlmişdir. Qeyri-qanuni silahlı dəstələr şəklində təşkilatlanan, heç kimin tanımadığı kukla dövlətlər yaratmaqla özlərini maraqlı tərəflərin alətinə çevirən belə terror qruplarının gec-tez yox olacağını da yaxın tarix xatırlatmaqdadır. Belə ki, müxtəlif dövrlərdə bir çox ölkələrdə müxtəlif adlarla ortaya çıxıb qanlı əməllər törətmiş erməni terror təşkilatları çürük ideologiya naminə dinc insanları öldürməkdən çəkinmir, işgəncə verməklə özlərinin heyvani hisslərindən zövq alırdılar. Erməni terrorunun qurbanları arasında təkcə türklər və azərbaycanlılar deyil, digər millətlərdən olan siyasətçilər, diplomatlar, jurnalistlər, iş adamları, hətta səyahətçi turistlər də olmuşlar. "Böyük Ermənistan" xülyası ilə yaşayıb onunla da gorbagor olan bu qəbilənin insanları bir çox hallarda özləri də nə istədiklərini bilmədən harada gəldi nümayişə çıxmaq, səfirliklərə hücum etmək, bayraq yandırmaq, hətta idman yarışlarında belə iğtişaş salmaqla sanki dünyanın onlarsız yaşaya bilmədiyini zənn etməklə də, əslində, terroru da davam etdirməkdədirlər. Dünyanın hər yerinə səpələnmiş, Amerikanın Kaliforniya, İranın İsfahan, Fransanın Marsel, Rusiyanın Rostov bölgələrində və Livanda kompakt halda yaşayan erməni sürüsü buralarda qorxudan quyruq buladığı halda, Azərbaycanın Qarabağ bölgəsində əliqanlı əməllər törədib keçmişdən mənimsədikləri terror instinktini XXI əsrə daşımaqla onsuz da qarışıq dünyada yeni müharibə ocaqları üçün qara barıt olmaqda davam edirlər. XX əsrin əvvəllərindən başlayaraq müxtəlif dövrlərdə azərbaycanlılara qarşı soyqırımı və deportasiya törətmiş, 1988-ci ildən bəri bir milyon soydaşımızı yerindən didərgin etmiş, bədnam separatçılıq əməlləri ilə 20 mindən artıq insanı qətl etmiş ermənilər II Qarabağ savaşındakı rüsvayçı məğlubiyyətdən sonra da bu həyasız əməllərinə davam etməklə sanki yenə də dünyanın sərsəm siyasətçilərindən əvvəlki dəstək, pul və silah ala biləcəklərini düşünməkdə, daha qanlı terror əməlləri törətməkdədirlər. Halbuki 2020-ci ilin 10 noyabrında boğazlarındakı ipi kəsməklə yeni nəfəs hədiyyə olunmuş Qarabağ ermənilərinə məğlub Ermənistandan dərs çıxarmaq, bundan sonrakı dövrdə tərk-silah olunmaqla normal həyata dönmək, cinayətkarları cəzalandırmaqla yeni doğulacaq ermənilərin bir daha terrorist olmaması üçün əla bir şans verilmişdi. Ancaq hələ ana bətnində terrorist südü ilə zəhərlənmiş bu tayfanın doğulmadan cinayətkar olduğunu ötən üç ilə yaxın müddətdə bütün dünya bildi və "erməni kimliyi" Qarabağdakı terrorist qruplaşma ilə bir daha sübut olundu.

Ermənilər son otuz ildə Azərbaycana olmazın zərərlərini vurublar. Səthi hesablamalara görə 100 milyard dollardan artıq həcmdə hesablanan bu maddi zərərlər ermənilərin Şuşanın azad olunmasından sonra da törədilən əməllər və yerinə yetirilməyən vədlərlə daha da artmaqdadır. Sentyabrın 19-da, günortadan başlayaraq müzəffər Azərbaycan Ordusunun Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə yuvalanmış qeyri-qanuni erməni silahlılarına qarşı başlatdığı antiterror əməliyyatları da uzanıb gedən bu əməllərə birdəfəlik son qoyulması və bütün bölgədə normal yaşayışa qayıtmaq məqsədi daşıyır. Və bu əməliyyat da gec-tez olmalıydı. Keçmişə qayıtsaq, hələ Laçın və Kəlbəcəri tərk edərkən ermənilərin evlərini yandırması, elektrik stansiyalarını söküb, meşədəki ağacları belə kəsib özləri ilə aparmasından tutmuş Qarabağın qızıl yataqlarını talan etməsinədək hər cür talançılıq əməllərinin şahidi olmuşduq. Bunlar da yetməmiş kimi 10 noyabr Bəyannaməsindən sonra iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması, kommunikasiyaların açılması və sülh müqaviləsinin imzalanması kimi öhdəliklərin yerinə yetirilməməsi, əvəzində dağlıq yollarla Qarabağa silah daşıyan ermənilərin yeni istehsal edilmiş minalarla ərazilərimizdə gizli ölüm nöqtələri yaratması da intensivləşirdi. Təkcə 44 günlük müharibədən sonrakı dövrdə işğaldan azad edilmiş ərazilərdə 315 nəfər insanın minaya düşərək həlak olması və ya xəsarət alması bu əməllərin dəhşət dərəcəsindən xəbər verir. Otuz il ərzində Azərbaycanın 20 faiz torpağını işğal altında saxlamaqla başından böyük ov iştahasını göstərən ermənilər ərazilərimizi minalamaqla doğma torpaqlarımıza qayıdacaq insanların da hüquqlarını vəhşicəsinə pozurdular. Beləliklə, həmin 20 faiz torpaqların hələ də boz ərazi kimi qalmış, təxminən, dörddə birində yuvalamış erməni dığaları bu gün növbəti dəfə "Dəmir yumruğ"u yeməkdədirlər.

Ermənilər Vardanyan kimi başıyekə olduğu qədər həm də tülkü qorxağıdırlar. Üzbəüz döyüşdə həmişə uduzmuş ermənilər mina terroru kimi siyasi terrorda da bir nömrədirlər. Azərbaycan ərazisi Qarabağda qanunsuz qalmış 10 mindən çox silahlı terrorist, yüzdən çox tank və zirehli texnika, zenit raket kompleksi, yaylım atəş kompleksləri də daxil olmaqla, iki yüzdən çox artilleriya qurğusuna sahib olan erməni terrorçuları, hətta hərbi radioelektron mübarizə vasitələri ilə də mülki təyyarələrin uçuşuna qarşı təhlükə yaradırdılar. Ancaq Sorosun ona hədiyyə etdiyi hakimiyyətini qorumaq hayında olan Ermənistan baş nazirinin işləri bir az çətinə düşən kimi himayədarlarının birindən küsüb, digərinin qucağına sığınması "su boğazına çıxan meymunun balasının da üstünə çıxması" məsəlini bir daha xatırladır. Və bu meymun vərdişləridir ki, ermənilər eyni saatda quyruğu ilə Makronun üzünü tumarlayıb, Amerika ilə oyun oynayıb, rusların da çənəsini cırmaqlamağı yaxşı bacarırlar. Ancaq 30 ilin acı günlərindən nəticə çıxarmayan bu bədbəxt tayfa hələ də bilmir ki, onların bu hərəkətlərinin böyük dövlətlərin və ya regional güclərin gündəmində bir qramlıq da çəkisi yoxdur. Dünyanın işi-gücü var və Qarabağda pulları batmış erməni lobbisindən başqa heç kim onlarla artıq maraqlanmır. Erməni erməniliyindən dəyən isə Azərbaycana dəyir. Son günlər ard-arda baş verən mina partlayışları, dinc insanların və polislərimizin həlak olmaları artıq bütün Azərbaycanın səbrini daşırdı və güclü ordumuz çoxdan gözlənilən düyməni sıxdı. Bunu hamı gözləyirdi. Çünki bu və ya digər səbəbdən içimizə sızmış və bəlkə də, gələcəkdə üzü gəlib bizim ölkəmizdə yaşayacaq erməniləri elə təmizləmək lazımdır ki, bir daha qalxıb santexnika işlərindən başqa heç bir iş görə bilməsinlər. Çünki köhnə adamların da dediyi kimi erməninin əlindən gələn tək faydalı iş odur.

Azərbaycanın konstitusion hüquqlarından istifadə edərək öz halalca torpaqlarında lokal xarakterli antiterror tədbirləri aparması, necə deyərlər, revanşistlərə yüngülvari qulaqburma verməsi isə deyəsən, ömrüboyu insanlıq, humanizm nədir bilməyən erməni murdarlarını dinə-imana gəlməyə, təslimat ərizəsi yazmağa vadar edib. Hə, necə deyərlər "Adın nədir, Daşdəmir, yumşalısan, yumşalı!" Bərk-bərk qucaqladığınız dədə-baba mirasınız silah-sursatı atıb ağ bayraq qaldırmasanız, hələ burnunuz çox ovulacaq! Qoy separatizmə, terrorizmə bir dünya görk olacaq təmizləmə əməliyyatı sizə və kölgəsində yatıb yalmandığınız havadarlarınıza da ömürlük dərs olsun! "Dəmir yumruq" dərsi!

**Əli CABBAROV**
***Naxçıvan Dövlət Universitetinin dosenti***

deyil, bütün dünyanın başına bəla olmaqla gəldiyi nöqtədə ən böyük cəzanı da çəkməyə məhkumdur. Bu mənada, 2020-ci il 10 noyabr Bəyannaməsindən sonra Azərbaycanla reinteqrasiyanı rədd edib türk çörəyini yeməkdən imtina edən ermənilərin bu dəfə yediyi son kötək sonuncu erməninin də yadından çıxmayacaq. 19 sentyabrda Xankəndidə Azərbaycanın qanuni hakimiyyətinin bərpa olunması, buranın hər cür separatçı tör-töküntüdən təmizlənməsi üçün başladılan antiterror əməliyyatları dövlətimizin konstitusional hüququ olmaqla bütün dünyaya da verilən açıq mesajdır.

Dünyada yeni bir siyasi arxitektura və strateji mübarizələr xəritəsi formalaşdırmış 2001-ci il 11 sentyabr hadisələrindən sonrakı 22 illik dövr Yaxın Şərq, Əfqanıstan,

Suriya, Ukrayna müharibələri ilə yadda qalarkən dövlətlərin suverenliyi üçün təhlükə yaradan terrorist ünsürlərə qarşı antiterror əməliyyatları da zaman-zaman gündəmə gəlmişdir. Qeyri-qanuni silahlı dəstələr şəklində təşkilatlanan, heç kimin tanımadığı kukla dövlətlər yaratmaqla özlərini maraqlı tərəflərin alətinə çevirən belə terror qruplarının gec-tez yox olacağını da yaxın tarix xatırlatmaqdadır. Belə ki, müxtəlif dövrlərdə bir çox ölkələrdə müxtəlif adlarla ortaya çıxıb qanlı əməllər törətmiş erməni terror təşkilatları çürük ideologiya naminə dinc insanları öldür məkdən çəkinmir, işgəncə vermək lə özlərinin heyvani hisslərindən zövq alırdılar. Erməni terrorunun qurbanları arasında təkcə türklər və azərbaycanlılar deyil, digər millətlərdən olan siyasətçilər, diplomatlar, jurnalistlər, iş adamları, hətta səyahətçi turistlər də olmuşlar. "Böyük Ermənistan" xülyası ilə yaşayıb onunla da gorbagor olan bu qəbilənin insanları bir çox hallarda özləri də nə istədiklərini bilmədən harada gəldi nümayişə çıxmaq, səfirliklərə hücum etmək, bayraq yandırmaq, hətta idman yarışlarında belə iğtişaş salmaqla sanki dünyanın onlarsız yaşaya bilmədiyini zənn etməklə də, əslində, terroru da davam etdirməkdədirlər. Dünyanın hər yerinə səpələnmiş, Amerikanın Kaliforniya, İranın İsfahan, Fransanın Marsel, Rusiyanın Rostov bölgələrində və Livanda kompakt halda yaşayan erməni sürüsü buralarda qorxudan quyruq buladığı halda, Azərbaycanın Qarabağ bölgəsində əliqanlı əməllər törədib keçmişdən mənimsədikləri terror instinktini XXI əsrə daşımaqla onsuz da qarışıq dünyada yeni müharibə ocaqları üçün qara barıt olmaqda davam edirlər. XX əsrin əvvəllərindən başlayaraq müxtəlif dövrlərdə azərbaycanlılara qarşı soyqırımı və deportasiya törətmiş, 1988-ci ildən bəri bir milyon soydaşımızı yerindən didərgin etmiş, bədnam separatçılıq əməlləri ilə 20 mindən artıq insanı qətl etmiş ermənilər II Qarabağ savaşındakı rüsvayçı məğlubiyyətdən sonra da bu həyasız əməllərinə davam etməklə sanki yenə də

dünyanın sərsəm siyasətçilərindən əvvəlki dəstək, pul və silah ala biləcəklərini düşünməkdə, daha qanlı terror əməlləri törətməkdədirlər. Halbuki 2020-ci ilin 10 noyabrında boğazlarındakı ipi kəsməklə yeni nəfəs hədiyyə olunmuş Qarabağ ermənilərinə məğlub Ermənistandan dərs çıxarmaq, bundan sonrakı dövrdə tərksilah olunmaqla normal həyata dönmək, cinayətkarları cəzalandırmaqla yeni doğulacaq ermənilərin bir daha terrorist olmaması üçün əla bir şans verilmişdi. Ancaq hələ ana bətnində terrorist südü ilə zəhərlənmiş bu tayfanın doğulmadan cinayətkar olduğunu ötən üç ilə yaxın müddətdə bütün dünya bildi və "erməni kimliyi" Qarabağdakı terrorist qruplaşma ilə bir daha sübut olundu.

Ermənilər son otuz ildə Azərbaycana olmazın zərərlərini vurublar. Səthi hesablamalara görə 100 milyard dollardan artıq həcmdə hesablanan bu maddi zərərlər ermənilərin Şuşanın azad olunmasından sonra da törədilən əməllər və yerinə yetirilməyən vədlərlə daha da artmaqdadır. Sentyabrın 19-da, gün ortadan başlayaraq müzəffər Azərbaycan Ordusunun Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə yuvalanmış qeyri-qanuni erməni silahlılarına qarşı başlatdığı antiterror əməliyyatları da uzanıb gedən bu əməllərə birdəfəlik son qoyulması və bütün bölgədə normal yaşayışa qayıtmaq məqsədi daşıyır. Və bu əməliyyat da gec-tez olmalıydı. Keçmişə qayıtsaq, hələ Laçın və Kəlbəcəri tərk edərkən ermənilərin evlərini yandırması, elektrik stansiyalarını söküb, meşədəki ağacları belə kəsib özləri ilə aparmasından tutmuş Qarabağın qızıl yataqlarını talan etməsinədək hər cür talançılıq əməllərinin şahidi olmuşduq. Bunlar da yetməmiş kimi 10 noyabr Bəyannaməsindən sonra iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması, kommunikasiyaların açılması və sülh müqaviləsinin imzalanması kimi öhdəliklərin yerinə yetirilməməsi, əvəzində dağlıq yollarla Qarabağa silah

daşıyan ermənilərin yeni istehsal edilmiş minalarla ərazilərimizdə gizli ölüm nöqtələri yaratması da intensivləşirdi. Təkcə 44 günlük müharibədən sonrakı dövrdə işğaldan azad edilmiş ərazilərdə 315 nəfər insanın minaya düşərək həlak olması və ya xəsarət alması bu əməllərin dəhşət dərəcəsindən xəbər verir. Otuz il ərzində Azərbaycanın 20 faiz torpağını işğal altında saxlamaqla başından böyük ov iştahasını göstərən ermənilər ərazilərimizi minalamaqla doğma torpaqlarımıza qayıdacaq insanların da hüquqlarını vəhşicəsinə pozurdular. Beləliklə, həmin 20 faiz torpaqların hələ də boz ərazi kimi qalmış, təxminən, dörddə birində yuvalamış erməni dığaları bu gün növbəti dəfə "Dəmir yumruğ"u yeməkdədirlər.

Ermənilər Vardanyan kimi başıyekə olduğu qədər həm də tülkü qorxağıdırlar. Üzbəüz döyüşdə həmişə uduzmuş ermənilər mina terroru kimi siyasi terrorda da bir nömrədirlər. Azərbaycan ərazisi Qarabağda qanunsuz qalmış 10 mindən çox silahlı terrorist, yüzdən çox tank və zirehli texnika, zenit raket kompleksi, yaylım atəş kompleksləri də daxil olmaqla, iki yüzdən çox artilleriya qurğusuna sahib olan erməni terrorçuları, hətta hərbi radioelektron mübarizə vasitələri ilə də mülki təyyarələrin uçuşuna qarşı təhlükə yaradırdılar. Ancaq Sorosun ona hədiyyə etdiyi hakimiyyətini qorumaq hayında olan Ermənistan baş nazirinin işləri bir az çətinə düşən kimi himayədarlarının birindən küsüb, digərinin qucağına sığınması "su boğazına çıxan meymunun balasının da üstünə çıxması" məsəlini bir daha xatırladır. Və bu meymun vərdişləridir ki, ermənilər eyni saatda quyruğu ilə Makronun üzünü tumarlayıb, Amerika ilə oyun oynayıb, rusların da çənəsini cırmaqlamağı yaxşı bacarırlar. Ancaq 30 ilin acı günlərindən nəticə çıxarmayan bu bədbəxt tayfa hələ də bilmir ki, onların bu hərəkətlərinin böyük dövlətlərin və ya regional güclərin gündəmində bir qramlıq da çəkisi yoxdur. Dünyanın işi-gücü var və Qarabağda pulları batmış erməni

lobbisindən başqa heç kim onlarla artıq maraqlanmır. Erməni ermənilriyindən dəyən isə Azərbaycana dəyir. Son günlər ard-arda baş verən mina partlayışları, dinc insanların və polislərimizin həlak olmaları artıq bütün Azərbaycanın səbrini daşırdı və güclü ordumuz çoxdan gözlənilən düyməni sıxdı. Bunu hamı gözləyirdi. Çünki bu və ya digər səbəbdən içimizə sızmış və bəlkə də, gələcəkdə üzü gəlib bizim ölkəmizdə yaşayacaq erməniləri elə təmizləmək lazımdır ki, bir daha qalxıb santexnika işlərindən başqa heç bir iş görə bilməsinlər. Çünki köhnə adamların da dediyi kimi erməninin əlindən gələn tək faydalı iş odur.

***"Şərq Qapısı" qəzeti, 21 sentyabr 2023-cü il***
***https://serqqapisi.gov.az/xeberler/qarabagda-aparilan-antiterror-emeliyyatlari-azerbaycanin-konstitusional-huqugudur***

## Xankəndi AZƏRBAYCAN torpağıdır!

Adlarını heç zaman başda çəkmək istəmədiyim erməni millətçilərinin davam edən terror hücumlarına qarşı 19 sentyabr 2023-cü il tarixdə şanlı Azərbaycan Ordusu tərəfindən başladılan və 24 saatdan da az sürən uğurlu antiterror əməliyyatları nəticəsində dünya Qarabağın inzibati mərkəzi Xankəndinin adını bir daha duydu. ***Xankəndi Azərbaycan torpağıdır!***

35 il əvvəl, 1988-ci ildə artıq özünün ən güclü dövrünü artıq arxada qoyan sovetlər dövlətinin üzvü olan respublikamızın ən varlı bölgələrindən biri olan Qarabağdakı erməni toplumunun yuxusunu qarışdıran və daha sonra illər uzunu burada əbədi yaşamış insanların çörəyinə zəhər qarışdıran bədnam "Miatsum" sərsəmləməsinə qədər buradakı azərbaycanlılarla yan-yana yaşayan bütün digər etnik azlıqlar da Xankəndinin tarixi bir Azərbaycan şəhəri olduğunu yaxşı bilirdi. Bu gün Ermənistanın açıqca dəstəklədiyi separatizmin tamamilə tarixə gömüldüyü, işğalçı dövlətin belə tanımadığı qondarma qurumun özünü ləğv etdiyi və cinayətkar xunta

rəhbərlərinin bir-birinin ardınca yaxalanıb ədalətə təslim edildiyi bir zamanda artıq gözlər gələcəyə, erməniəsilli vətəndaşların Azərbaycana reinteqrasiyası məsələlərinə, 30 il ərzində normal inkişafdan geri düşmüş regionun yenidən bərpasına və öz əzəli sakinlərinə qovuşması proseslərinə dönmüşdür. Bunun, əlbəttə, çox çətin deyil, amma asan da olmayacağını yaxşı bilən Azərbaycan dövləti Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında həm diplomatik müstəvidə, həm də münaqişə sonrası Qarabağda aparılan bərpa işlərində görünməmiş əzm nümayiş etdirir. Çünki 30 il səbir edib sonunda şəhid qanları bahasına tam suverenliyinə qovuşan ölkə-miz Xankəndinin də sabahının daha aydın və daha şəffaf olacağından əmindir. Amma gəlin bu günün fonunda keçmişə də bir nəzər salaq.


XANKƏNDİ AZƏRBAYCAN torpağıdır

Xankəndi XVIII əsrin axırlarında Azərbaycanın mühüm iqtisadi və mədəni mərkəzlərindən biri olan Qarabağ xanlığında, Şuşanın 10 kilometrliyində salınmışdır. İlk illər Xankəndidə ancaq azərbaycanlılar, xan ailəsi və onun yaxınları yaşadığından el arasında “Xanın kəndi” kimi tanınıb.

XIX əsrin əvvəllərində Rus işğalından sonra Xankəndinə İrandan köçürülən ermənilər yerləşdirilib, onlar

da yaltaq və itaətkar olduqlarına görə çar ordusunun hərbi hissələrində və dövlət idarələrində işlə təmin ediliblər. Lakin bununla yanaşı, 1847-ci ilə aid Rusiya xəritələrində qəsəbə rəsmi şəkildə Xankəndi adı ilə göstərilib. Şəhərin inkişafı, əsasən, XX əsrin əvvəllərindən başlayır. Belə ki, 1900-cü ildə Xankəndidə 3 min, 1939-cu ildə şəhərdə 10 min, 1959-cu ildə 20 min, 1970-ci ildə 30 min, 1988-ci ildə 60 min əhali yaşamışdır.

Sovet hakimiyyətinin ilk illərindən başlayaraq erməni millətçilərinin Azərbaycana əsassız torpaq iddiası ozamankı Moskvanın dəstəyi ilə yeni forma almağa başladı. 1923-cü ildə Azərbaycanın tərkibində qalmaqla Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkil edilməsi və Xankəndi qəsəbəsinin adının dəyişdirilərək bədnam Stepanakert adlandırılması hələ o zaman əkilmiş fitnə toxumları kimi bugünkü ermənilərin beynində metastaz vermiş bəd şişlərin ilk hüceyrələri idi. Daha sonra ötən əsrin ikinci yarısına qədər yenə də əsassız səbəblərlə Azərbaycandan parçaparça torpaq qoparmağa müvəffəq olmuş ermənilər SSRİ-nin çöküşündən istifadə edərək yenidən torpaq iddialarına əl atdılar. 1988-ci ildə Xankəndidə baş qaldıran separatçılar guya Qarabağın Azərbaycanın tərkib hissəsi kimi iqtisadi-mədəni inkişafdan geri qalması və bunun üçün regionun Ermənistana birləşdirilməsi kimi sərsəm tələblər irəli sürür, terror əməlləri törədirdilər. Halbuki o dövrdə mərkəzi Xankəndi şəhəri olan vilayətdə bütün Cənubi Qafqazda tanınan ipək kombinatı, ayaqqabı, xalça, tikiş fabrikləri, süd kombinatı və şərab zavodu fəaliyyət göstərirdi. Buradakı elektrotexnika zavodunun, mebel fabrikinin, tikinti materialları kombinatının məhsulları geniş tələbat görürdü.

Ayrıca olaraq, əvvəldə də qeyd olunduğu kimi, hər 20 ildən bir regionda əhali sayının iki dəfə artması bura üçün böyük inkişaf göstəricisi idi. Həm də bu müəssisələrin bir çoxu Ulu Öndər Heydər Əliyevin respublikamıza

rəhbərliyinin birinci dövründə tikilmiş, on minlərlə yerli sakin yüksək əməkhaqqı, mənzil və digər sosial dəstəklə təmin edilmişdir. İqtisadi sahədəki inkişaf humanitar sahəyə də təsir etmiş, o dövrdə Xankəndidə sovxoz texnikumu, tibb və musiqi məktəbləri fəaliyyət göstərmiş, 1969-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Xankəndi filialı açılmışdır. 1973-cü ildə filial respublika rəhbəri, görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə müstəqil pedaqoji instituta çevrilmiş, onun erməni, Azərbaycan və rus bölmələri fəaliyyət göstərmişdir. Ağdama qədər gələn dəmir yolu xətti Xankəndinə də çəkilmiş, şəhərdə müasir dəmir yolu stansiyası inşa edilmişdir. Qeyd edək ki, ozamankı inkişaf təkcə Xankəndi üçün deyil, bütün Qarabağ üçün xarakterik olub, Azərbaycanın resursları hesabına yaradılmışdır.

Ancaq indi Qarabağın tamamən azad olunmasından sonra Azərbaycanın reinteqrasiya təkliflərinə rəğmən ötən 30 ildə bulaşdıqları bütün cinayətlərin və kirli əməllərin qorxusundan qaçaraq Ermənistana üz tutan separatçıların yuxu kimi xatırladığı həmin gözəl günlər artıq tarixdə qalıb. Başqalarının torpaqları hesabına böyük dövlət qurmaq xəyalları ilə başlatdıqları iyrənc əməllər tezliklə Qərbi Azərbaycanda, Qarabağda və bütün Azərbaycanda yaşayan soydaşlarımızın kabusuna çevrildi. Ermənilər harada gəldi azərbaycanlıları qətl etdi, qadın, uşaq və qocalara işgəncə verdi, cəsədləri vandalca təhqir etdi, yurdundan qovulmuş insanların evlərinin qapı-pəncərəsini, divarların künc daşlarını belə söküb apardılar. Bu gün artıq Azərbaycan güc strukturlarının tam nəzarət etdiyi Xankəndi şəhərində Ermənistan işğalına qədər yaşamış 17 minə qədər azərbaycanlı sakin də erməni separatizmindən əziyyət çəkmiş, çoxsaylı itkilər vermişdir. Xankəndidə yaşamış sonuncu azərbaycanlı 1991-ci ilin dekabrında bu şəhəri tərk etməli olmuşdur.

Erməni işğalı altında qaldığı 30 ildən artıq dövrdə Xankəndi hər cür kriminal ünsürlərin məskəninə çevrilmişdir. Buradakı bataqlıqda özlərinə yuva qurmuş və sonralar işğalçı Ermənistanın keçmiş rəhbərləri olmuş Robert Köçəryan, Serj Sarkisyan və bu günlərdə yaxalanan Vardanyan, Arutunyan və digər xunta tör-töküntüləri ilə yanaşı, Xankəndi buraya qeyri-qanuni səfər edən ermənipərəst Fransa, ABŞ, Almaniya siyasətçilərinin, Çin, İran, Hindistan, Livan mənşəli iş adamlarının, narkotacirlərin, silah və antik əşya qaçaqmalçılarının, hətta Ermənistanda hələ də fəaliyyət göstərən vaxtı keçmiş Metsamor Atom Elektrik Stansiyasının tullantılarının da məskəninə çevrilmişdir. Bütün bu canlı və cansız "tullantılar" zaman keçdikcə daha da çürüməklə təkcə ölkəmiz üçün deyil, bütün Cənubi-Qafqaz üçün böyük təhlükə törədirdi. Ta ki Azərbaycan Ordusunun 27 sentyabr 2020-ci ildə başlatdığı əks-hücumu ilə 44 gün ərzində erməni faşizminin belinin qırılaraq üzü cəhənnəmə doğru göndərilməsinədək Qarabağ, onun işğal altında qalmış ətraf rayonları bütün planetimizin qara bir ləkəsi kimi hər kəsi narahat edirdi.

Xankəndidəki lokal xarakterli antiterror əməliyyatları nəticəsində məhv edilmiş dırnaqarası rejimin son ünsürlərinin Laçın yolu ilə hərəkət edən dolu maşın karvanları 30 il əvvəl eyni yollarda, amma əks-istiqamətdə ac, ayaqyalın hərəkət edən azərbaycanlıları bir daha xatırladır. Əgər o zaman evləri qarət olunmuş və ikisaatlıq möhlətlə evlərindən qovulmuş azərbaycanlılara erməni terrorçuları avtomat silahlar tuşlayır, onları təhqir edirdilərsə, bu gün küləkdən qopub düşən çürük meyvələr kimi yola düzəlib atılmalı əşyalarını və hətta atlarını, qoyun sürülərini rahatca Ermənistana daşıyan ermənilərə Azərbaycan əsgəri və Azərbaycan polisi yalnız su, qida və yanacaq yardımı edir, jurnalistlər onlara mikrofon uzadaraq bəd əməllərinin nəticəsi olan acı aqibətlərindən etiraflarına şahidlik edirlər. Budur fərq! Bu fərqi anlamayan

ermənilər və ermənikimilər isə hələ də nədənsə erməni nağılının bitdiyini həzm etməyərək başqa xəyallar qurmaqdadırlar. Ancaq gec-tez bu reallığı da anlayıb, bu başlarına gələnlərin bir zamanlar əliyalın azərbaycanlılara qarşı törətdikləri hər cür cinayətlərə görə **UCA HAQQIN CƏZASI** olduğunu biləndən sonra yerdə qalan ermənilər Azərbaycan vətəndaşı kimi Qarabağda qalıb yaşamağın da fərqini görəcəklər.

SSRİ-nin dağılmasından sonra heç bir şəkildə dünyəvi dövlət qura bilməyən ermənilər dilənçi payı qrantlar, diaspora yardımı və 60-cı illərdən qalma köhnə sovet silahları ilə ovundurulmuş, aldadılmışlar. Nəticədə, bütün regionun Azərbaycan öncüllüyündəki iqtisadi layihələrindən kənarda qalmış, sərhədlərinin belə rus əsgərləri tərəfindən qorunduğu, iri müəssisələrinin Rusiya mülkiyyətinə verildiyi Ermənistan adlı bir miskin dövlət halına gəlmişdir. Ermənilər qanunsuz statusu hər vəchlə qoruyub saxlamağa çalışır, unudurdular ki, dünyəvi inkişaf hər danışıqlarda Azərbaycan dövlətinin onlara təklif etdiyi imtiyazlar, hüquqların təminatı, insanca daha yaxşı yaşamaq ola bilərdi.

Bu gün bədnam "artsax" kəlməsinə görə üzr istəyən erməni rəsmilərinin gözü, deyəsən, açılıb. Yevlağa, Xocalıya müzakirələrə gələn erməni təmsilçiləri Şimaldan, Cənubdan yanacaq, ərzaq dilənməklə qarınlarının doymayacaqlarını dərk edərək Azərbaycan dövlətinin onlara uzatdığı yardım əlindən möhkəm tutublar. Ancaq hər kadrdan gördüyümüz kimi ürəklərindəki kin, nifrət gözlərindən oxunsa da, gələcəkdə bir daha xəyanət yolunu tutsalar, antiterror əməliyyatından bir gün sonra içdikləri "Sirab" suyunun, yedikləri Zirə çörəyinin burunlarından gələcəklərini də yaxşı bilirlər. Bunu biz Azərbaycan xalqı yox, 200 illik tarix deyir. Bu gün Laçın yolundan keçən minsifət ermənilər heç bir təzyiq altında olmadıqları halda yenə hiylə işlədərək gah Qorbaçovu, gah özlərini lənətləyir, gah da azərbaycanlılarla duz-çörək

kəsdiklərini utanmadan deyirlər. Qorbaçovu deyə bilmərəm, amma Uca şəhidlərimizin ruhuna and içərəm ki, nə qədər ki, onlar Azərbaycanın ərazilərinə kəc gözlə baxır, bircə nəfər də olsun, erməni ilə bir duz-çörək söhbəti olmayacaq. İstəyir lap min il keçsə də!

Bununla yanaşı, biz sabahımıza nikbinik. Bu nikbinlik 10 noyabr 2020-ci ildən sonra Qarabağda başlanan genişmiqyaslı quruculuq və bərpa işlərində, erməni işğalının yaralarının sağalması yönündə dövlətimizin güclü iradəsi hesabına daha da möhkəmlənir. İşğaldan azad olunmuş yerlərdə inşa olunan ağıllı kəndlər, hava limanları və yollar ermənilərin nə qədər sökücü və dağıdıcı olsalar da, xalqımızın bu dağıntıların üzərində yeni bir cənnət Qarabağ inşa edəcəyini artıq bütün dünyaya nümayiş etdirir. Mədəniyyət paytaxtımız Şuşanın, Qafqazın Xirosiması Ağdamın, Zəngəzurun qapısı Zəngilanın ardınca Xankəndiyə də dəvət olunacaq dünya liderləri, diplomatlar və media təmsilçiləri, əslində, erməni nağılındakı yeraltı təpəgözlərin nə qədər təhlükəli olduğunu bir daha görəcəklər. Reinteqrasiya proseslərində dinc quruculuq işləri ilə yanaşı, belə reallıqların da gündəmdə saxlanılması işğal xülyalarından qurtula bilməyən revanşistlərin ağzının yumulmasının ən yaxşı dinc vasitəsi olacaq. Hər halda bu qədər rüsvayçı məğlubiyyətdən sonra yeni bir "Dəmir yumruq" zərbəsi yeməkdənsə, Qarabağa gələcək "dark turizm" həvəskarlarının paylaşımları qarşısında üzü qızarmaq ermənilər üçün ən yüngül cəza olacaq. Əgər utanan üzləri varsa!

Otuz il ərzində Qarabağı viran qoymuş qondarma rejimin süqutundan sonra yaranan yeni mərhələ, yəni reinteqrasiya təkcə dağıntıların və qırılmış əlaqələrin yenidən bərpası, sülh münasibətlərinin qurulması ilə deyil, ermənilərin beyninin dərinliyinə qədər nüfuz etmiş xəstəliyin müalicəsi ilə də davam etdiriləcək çətin bir proses kimi görünür. Çünki Qarabağda qalmaq və Azərbaycan vətəndaşı kimi daha yaxşı

yaşamaq seçimi edən erməniəsilli vətəndaşlar hər nə qədər səmimi və ya qeyri-səmimi bir istəklə ölkəmizdə yaşasalar da, hələ uzun müddətcə onlar ən azından Ermənistanın və xaricdəki ermənilərin psixoloji təsirləri altında qalaraq tipik erməni davranışlarından əl çəkməyəcəklər. Misal üçün, sabah hansısa bir səbəbdən Xankəndidə bir elektrik və ya qaz kəsintisi, yaxud bir sel ucbatından körpü dağıntısı olarsa, bunun erməni lobbisi tərəfindən necə və hansı hay-həşirlə tirajlanacağını, az qala "soyqırımı" səbəbi kimi qələmə veriləcəyini proqnoz etmək çətin deyil. 30 sentyabrdakı Los-Anceles erməni provokasiyaları bunun isti faktıdır. Ona görə də ermənilərlə onların başa düşəcəyi dilin istənilən yerdə və məqamda hələ qorunub saxlanılması, bunun müsbət təcrübəsinin həmişə nəzərdə tutulmasının gələcək reinteqrasiya proseslərində faydalı olacağını düşünmək olar.

Azad Qarabağda bir daha qanlar axıdılmaması, insanların köçkün düşməməsi naminə ediləcək hər cür humanitar addımı dəstəkləyən Azərbaycan dövləti üçün onun milliyətindən və dinindən asılı olmayaraq, hər bir vətəndaşının rahat və xoşbəxt yaşayışı, bu zəngin bölgənin insanlarının da zənginlik içində olması ən böyük arzusudur. Belə olduqda çox yaxında, bəlkə də, heç 5-10 il keçməmiş Azərbaycanın güclü iqtisadi və mədəni potensialını, beynəlxalq nüfuzunu öz şəxsi rifahında görəcək sadə ermənilər də bu dəfə onlara bu qara tarixi yaşatmış bütün ideoloqlarının mənfur izlərini öz yaddaşlarından söküb atacaq, azərbaycanlılarla birgə yaşayacaqlar.

***"Şərq Qapısı" qəzeti, 5 oktyabr 2023-cü il***
***https://serqqapisi.gov.az/xeberler/xankendi-azerbaycan-torpagidir***

## İstədiyimiz bu Bayraq idi

Qalib ölkəmizin yaxın tarixi, onu yazanlar və bu tarixi öyrənənlər üçün müqəddəs olan üç rəngə mənəvi bağlılıq şanlı Bayrağımızla fəxr edib onunla zirvələri fəth etməyin nə

qədər həyəcanlı bir hiss olduğunu hər kəsin ürəyində yaşatmaqdadır. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev əlli milyonluq azərbaycanlının baş tacı olan üçrəngli Azərbaycan Bayrağını Xankəndi səmalarında ucaldaraq artıq



İstədiyimiz bu bayraq idi

Qalib ölkəmizin yaxın tarixi, onu yazanlar və bu tarixi öyrənənlər üçün müqəddəs olan üç rəngə mənəvi bağlılıq şanlı Bayrağımızla fəxr edib onunla zirvələri fəth etməyin nə qədər həyəcanlı bir hiss olduğunu hər kəsin ürəyində yaşatmaqdadır. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev əlli milyonluq azərbaycanlının baş tacı olan üçrəngli Azərbaycan Bayrağını Xankəndi səmalarında ucaldaraq artıq bu torpaqlarda bir daha terrora, separatizmə yol verilməyəcəyini bəyan etməsi ilə bu həyəcanı birə-min daha da artırdı. Bu hamımızın gözlədiyi Bayraq idi!

Otuz il ərzində Qarabağda olmazın cinayətlər törətmiş və ötən ay keçirilmiş birgünlük antiterror əməliyyatından sonra yaxalanmış erməni separatçılarının ədalət məhkəməsinə çıxarıldığı bu günlərdə Xankəndiyə mənsub olduğu ölkənin bayrağının gətirilməsi onsuz da olduqca sıx olan dünya gündəminə bir anda damğa vurmaqla aparıcı informasiya kanallarının da xəbər başlıqlarına oturdu. İki yüz il əvvəl çar Rusiyasının Cənubi-Qafqazı işğal etməsi ilə başlayan və bütün bölgəni qana bulayan bədnam erməni xülyasının birdəfəlik sona çatması və yeni bir tarixi dövrün başlaması kimi də anons olunan bu mühüm tarixi hadisə ölkəmiz üçün üçqat bir sevinclə qeyd olunan əlamətdar gün kimi tarix səhifəsinə yazılacaq. Ulu Öndər Heydər Əliyevin 100 illik yubiley ilində və Prezident cənab İlham Əliyevin dövlət başçımız seçilməsinin 20-ci ildönümü günündə Xankəndinin də Azərbaycan Bayrağına qovuşması Uca Ədalətin, nəhayət, bərqərar olduğu gün kimi yadda qalacaq.

Bu gün Azərbaycan Bayrağı dalğalanan hər yer bizim üçün Vətəndir. İdman yarışında bayraq daşıyan xanımın əlindən Bayrağımızı qapıb qaçan hay töküntülərinin bir zamankı Fransa boyda iddialarından artıq əsər-əlamət belə qalmayıb. Adi günlərdə kiçik bir hadisəni böyüdüb fil boyda şişirdən erməni mediasının bu dəfə milçək kimi kiçilərək deməyə söz tapmaması hay dövlətinin, əslində, nə qədər cılız bir çərçivəyə sığışdığını dünyaya göstərir. Halbuki Xankəndiyə gətirilən Azərbaycan Bayrağının yolçuluğu çox uzun və şərəflidir. Uca şəhidlərimizin qanı ilə al rəngə boyanmış bu müqəddəs bayraq bir gün onu Qarabağın hər yerində ucaldacağına söz vermiş dövlət başçımız cənab İlham Əliyevin ***"Sözümüz imzamızdır!"*** zəmanəti və ***"Qarabağ Azərbaycandır!"*** şüarı ilə şanlı bir Zəfər Yolu keçərək əvvəlcə Qarabağın incisi Şuşada, oradan da Xanın kəndində əbədi dalğalanmaq üçün yüksəklərə ucaldıldı. Qarabağdan qara buludların çəkilməsi ilə mavi rəngin də səmalara hakim kəsilməsinə sevinən Günəş də bu günün ən gözəl gün olduğunu bayram edirdi. Bu bayramı yaşaya bilmək üçün uzun illər səbir etmiş Azərbaycan xalqı isə bu dövrdə təkcə öz iqtisadiyyatını və ordusunu gücləndirmədi. Xankəndiyə qədər gələn yolda Azərbaycan Şimaldan və Cənubdan gələn təzyiqlərə dözüb, Minsk qrupu adlı qurumun nazı ilə də oynadı. Dövlət başçımız bu dövrdə daxili islahatları bir gün belə dayandırmadan Qərbin topasaqqal ser və müsyölərinə də demokratiya dərsi keçdi. İşğala məruz qalmış Azərbaycanın haqlı mövqeyini görməkdə kor qalan, ölkəmizin artan beynəlxalq nüfuzunu eşitməkdə kar olan Avropa və Amerikanın acığına hər keçən gün öz Prezidentinin ətrafında sıx birləşən xalqımızın artan inamı ilə sanki üst-üstə düşən tarixi hadisələr də günbəgün bizi Böyük Zəfərə yaxınlaşdırırdı. Türk dünyasının güclənməsi, qardaş Türkiyənin güclü lideri ilə bir dünya dövlətinə çevrilməsi, Avropada və dünyada siyasi konyunkturanın da Azərbaycanın xeyrinə dəyişilməsi ölkəmizin haqq mübarizəsində, Qarabağın işğaldan azad olunmasında şansımızı birə-beş artırırdı. Bütün bunlar və 44 günlük müharibə öncəsi Xankəndidə yuvalanmış hay təlxəklərinin sərsəm bəyanatları və onlarla qol-qola girib yallı getməyə çalışan erməni baş nazirinin səy-səy çıxışları, əslində, Azərbaycan əsgərinin qarşısında nə qədər çürük bir cəmiyyətin və nə qədər qondarma ordunun dayandığını göstərirdi. Hal belə ikən hələ Aprel döyüşlərində qabığı çatlamış erməni hərb maşınının sükanı arxasında dayanan sərxoş cinayətkarların bir daha ayılmaması üçün başlarına endirilən "Dəmir yumruq" isə yüzillik bir xəstəliyə düçar olmuş erməni cəmiyyətinin də terapiyası üçün göydəndüşmə olacaqdı. Beləcə, bir vaxtlar az qala İrəvan parlamentindəki rüsvayçı silahlı basqını belə dırnaqarası soyqırımı iddiası kimi dünya gündəminə ixrac etməyə çalışan iftiraçı erməni mediası bu gün Xənkəndidə yüksələn Azərbaycan Bayrağı barədə danışmaqdan belə qorxmaqla öz layiq olduğu yerinə oturdu. Necə deyərlər: haradan-haraya!

Dövlət başçımızın Xankəndidə yüksəltdiyi üçrəngli bayrağımız artıq əmin əllərdədir. Torpaq bütünlüyü tam təmin olunmuş Azərbaycan beynəlxalq ictimaiyyətə köhnə dünyadan miras qalmış bütün dondurulmuş münaqişələrin bir an öncə necə ədalətlə həll edilməsi dərsini keçməklə bunun üçün nələr lazım olduğunu bir daha göstərdi. Müzəffər Ali Baş Komandan yetişdirdiyi vətənpərvər gəncliyin gücü ilə Qarabağ münaqişəsinə son nidanı qoymaqla gələcək nəsillərə bir daha belə bir qanlı mirasın qalmaması üçün bu gün daha qətiyyətlidir. Çünki azad Qarabağda həyat yenidən başlayır!

**Əli CABBAROV**
***Naxçıvan Dövlət Universitetinin dosenti***

bu torpaqlarda bir daha terrora, separatizmə yol verilməyəcəyini bəyan etməsi ilə bu həyəcanı birə-min daha da artırdı. Bu hamımızın gözlədiyi Bayraq idi!

Otuz il ərzində Qarabağda olmazın cinayətlər törətmiş və ötən ay keçirilmiş birgünlük antiterror əməliyyatından sonra yaxalanmış erməni separatçılarının ədalət məhkəməsinə çıxarıldığı bu günlərdə Xankəndiyə mənsub olduğu ölkənin bayrağının gətirilməsi onsuz da olduqca sıx olan dünya gündəminə bir anda damğa vurmaqla aparıcı informasiya kanallarının da xəbər başlıqlarına oturdu. İki yüz il əvvəl çar Rusiyasının CənubiQafqazı işğal etməsi ilə başlayan və bütün bölgəni qana bulayan bədnam erməni xülyasının birdəfəlik sona çatması və yeni bir tarixi dövrün başlaması kimi də anons olunan bu mühüm tarixi hadisə ölkəmiz üçün üçqat bir sevinclə qeyd olunan əlamətdar gün kimi tarix səhifəsinə

yazılacaq. Ulu Öndər Heydər Əliyevin 100 illik yubiley ilində və Prezident cənab İlham Əliyevin dövlət başçımız seçilməsinin 20-ci ildönümü günündə Xankəndinin də Azərbaycan Bayrağına qovuşması Uca Ədalətin, nəhayət, bərqərar olduğu gün kimi yadda qalacaq.

Bu gün Azərbaycan Bayrağı dalğalanan hər yer bizim üçün Vətəndir. İdman yarışında bayraq daşıyan xanımın əlindən Bayrağımızı qapıb qaçan hay töküntülərinin bir zamankı Fransa boyda iddialarından artıq əsər-əlamət belə qalmayıb. Adi günlərdə kiçik bir hadisəni böyüdüb fil boyda şişirdən erməni mediasının bu dəfə milçək kimi kiçilərək deməyə söz tapmaması hay dövlətinin, əslində, nə qədər cılız bir çərçivəyə sığışdığını dünyaya göstərir. Halbuki Xankəndiyə gətirilən Azərbaycan Bayrağının yolçuluğu çox uzun və şərəflidir. Uca şəhidlərimizin qanı ilə al rəngə boyanmış bu müqəddəs bayraq bir gün onu Qarabağın hər yerində ucaldacağına söz vermiş dövlət başçımız cənab İlham Əliyevin ***"Sözümüz imzamızdır!"*** zəmanəti və ***"Qarabağ Azərbaycandır!"*** şüarı ilə şanlı bir Zəfər Yolu keçərək əvvəlcə Qarabağın incisi Şuşada, oradan da Xanın kəndində əbədi dalğalanmaq üçün yüksəklərə ucaldıldı. Qarabağdan qara buludların çəkilməsi ilə mavi rəngin də səmalara hakim kəsilməsinə sevinən Günəş də bu günün ən gözəl gün olduğunu bayram edirdi. Bu bayramı yaşaya bilmək üçün uzun illər səbir etmiş Azərbaycan xalqı isə bu dövrdə təkcə öz iqtisadiyyatını və ordusunu gücləndirmədi. Xankəndiyə qədər gələn yolda Azərbaycan Şimaldan və Cənubdan gələn təzyiqlərə dözüb, Minsk qrupu adlı qurumun nazı ilə də oynadı. Dövlət başçımız bu dövrdə daxili islahatları bir gün belə dayandırmadan Qərbin topasaqqal ser və müsyölərinə də demokratiya dərsi keçdi. İşğala məruz qalmış Azərbaycanın haqlı mövqeyini görməkdə kor qalan, ölkəmizin artan beynəlxalq nüfuzunu eşitməkdə kar olan Avropa və Amerikanın acığına hər keçən gün öz Prezidentinin ətrafında sıx birləşən xalqımızın artan inamı ilə sanki üst-üstə düşən tarixi hadisələr də günbəgün bizi Böyük Zəfərə yaxınlaşdırırdı. Türk dünyasının güclənməsi, qardaş Türkiyənin güclü lideri ilə bir dünya dövlətinə çevrilməsi,

Avropada və dünyada siyasi konyunkturanın da Azərbaycanın xeyrinə dəyişilməsi ölkəmizin haqq mübarizəsində, Qarabağın işğaldan azad olunmasında şansımızı birə-beş artırırdı. Bütün bunlar və 44 günlük müharibə öncəsi Xankəndidə yuvalanmış hay təlxəklərinin sərsəm bəyanatları və onlarla qolqola girib yallı getməyə çalışan erməni baş nazirinin səy-səy çıxışları, əslində, Azərbaycan əsgərinin qarşısında nə qədər çürük bir cəmiyyətin və nə qədər qondarma ordunun dayandığını göstərirdi. Hal belə ikən hələ Aprel döyüşlərində qabığı çatlamış erməni hərb maşınının sükanı arxasında dayanan sərxoş cinayətkarların bir daha ayılmaması üçün başlarına endirilən ***"Dəmir yumruq"*** isə yüzillik bir xəstəliyə düçar olmuş erməni cəmiyyətinin də terapiyası üçün göydəndüşmə olacaqdı. Beləcə, bir vaxtlar az qala İrəvan parlamentindəki rüsvayçı silahlı basqını belə dırnaqarası soyqırımı iddiası kimi dünya gündəminə ixrac etməyə çalışan iftiraçı erməni mediası bu gün Xənkəndidə yüksələn Azərbaycan Bayrağı barədə danışmaqdan belə qorxmaqla öz layiq olduğu yerinə oturdu. Necə deyərlər: haradan-haraya!

Dövlət başçımızın Xankəndidə yüksəltdiyi üçrəngli bayrağımız artıq əmin əllərdədir. Torpaq bütünlüyü tam təmin olunmuş Azərbaycan beynəlxalq ictimaiyyətə köhnə dünyadan miras qalmış bütün dondurulmuş münaqişələrin bir an öncə necə ədalətlə həll edilməsi dərsini keçməklə bunun üçün nələr lazım olduğunu bir daha göstərdi. Müzəffər Ali Baş Komandan yetişdirdiyi vətənpərvər gəncliyin gücü ilə Qarabağ münaqişəsinə son nidanı qoymaqla gələcək nəsillərə bir daha belə bir qanlı mirasın qalmaması üçün bu gün daha qətiyyətlidir. Çünki azad Qarabağda həyat yenidən başlayır!

***"Şərq Qapısı" qəzeti, 18 oktyabr 2023-cü il***
***https://serqqapisi.gov.az/xeberler/istediyimiz-bu-bayraq-idi-1***

# Tarixə dönən və gorbagor olmuş kəlmələr

***Əziz şəhidlərimizin xatirəsinə***

Dünya düzəninə öz imzasını qoymuş elə hadisələr vardır ki, onlar bir tarixi dövrün sona çatması və bunun ardınca yeni bir dövrə başlanılması ilə özünü yaddaşlarda yaşadır. Əgər uzaq keçmişdəki mühüm hadisələri bir anlığa unutmuş olsaq, II Dünya müharibəsindən sonrakı dövrdən başlayaraq SSRİ-nin süqutu ilə Soyuq müharibənin bitməsi, sonrasında Amerikanın təkqütblü dünyada özündən uydurduğu düşmənlə mübarizəsi, eləcə də dünyanın işgüzar mərkəzinin Qərbdən Çinə doğru yerdəyişməsi ilə qlobal enerji, kommunikasiya və logistika xətlərinin də yeni marşrutlar üzərinə çıxması ötən 70 il ərzində müharibələrdən yorğun düşmüş qoca dünyanın qət etdiyi məsafənin bir hissəsidir.


Tarixə dönən və gorbagor olmuş kəlmələr...

08-11-2023 [10:07]

Əli Cabbarov

(ƏZİZ ŞƏHİDLƏRİMİZİN XATİRƏSİNƏ)

***

**Dünya düzəninə öz imzasını qoymuş elə hadisələr vardır ki, onlar bir tarixi dövrün sona çatması və bunun ardınca yeni bir dövrə başlanılması ilə özünü yaddaşlarda yaşadır.**

Əgər uzaq keçmişdəki mühüm hadisələri bir anlığa unutmuş olsaq, II Dünya müharibəsindən sonrakı dövrdən başlayaraq SSRİ-nin süqutu ilə Soyuq müharibənin bitməsi, sonrasında Amerikanın təkqütblü dünyada özündən uydurduğu düşmənlə mübarizəsi, eləcə də dünyanın işgüzar mərkəzinin Qərbdən Çinə doğru yerdəyişməsi ilə qlobal enerji, kommunikasiya və logistika xətlərinin də yeni marşrutlar üzərinə çıxması ötən 70 il ərzində müharibələrdən yorğun düşmüş qoca dünyanın qət elədiyi məsafənin bir hissəsidir.

Ötən əsrin 90-cı illərindən etibarən isə dünyada ".com" erasına başlanılmaqla paralel olaraq sivilizasiyalararası konfliktlərin də yeni konturlara keçməsi ilə aslində, tarixi nisbətən daha irəliyə dayanan yeni konfliktlərə də qaynar yağ töküldü. İki yüz il ərzində qonşu torpaqları hesabına dövlət qurmaq istəyən ermənilər çoxdan gözlədikləri fürsəti göydə qapıb yenidən öz cinayət əməllərinə geri döndülər: erməni faşizmi Cənubi-Qafqazda yenidən baş qaldırdı!



Ötən əsrin 90-cı illərindən etibarən isə dünyada *".com"* erasına başlanılmaqla paralel olaraq sivilizasiyalararası konfliktlərin də yeni konturlara keçməsi ilə, əslində, tarixi nisbətən daha irəliyə dayanan yeni konfliktlərə də qaynar yağ töküldü. İki yüz il ərzində qonşu torpaqları hesabına dövlət qurmaq istəyən ermənilər çoxdan gözlədikləri fürsəti göydə qapıb yenidən öz cinayət əməllərinə geri döndülər: erməni faşizmi Cənubi Qafqazda yenidən baş qaldırdı! Bu gün artıq otuz ildən çox davam etmiş Qarabağın erməni işğalının tamamilə tarixə gömüldüyü, Azərbaycanın öz dövlət suverenliyini tam şəkildə təmin edərək Xankəndidə Qələbə paradı keçirdiyi bir zamanda ötən bu dövrdən yaddaşlarımıza iz salmış bəzi kəlmələri bir daha xatırlatmaq, bəlkə də, yerinə düşərdi. Təkcə ona görə yox ki, bu ifadələrin

bəziləri bizi heç zaman dost olaraq görmək istəməyən erməni toplumunun əsl xislətini əsla unutmamaq və unutdurmamaq üçün yaddaşımızda yaşamalıdır. Bu həm də ona görə lazımdır ki, gələcək nəsillər, bəlkə də, yüz illər sonra yer üzündə həyatın tamamən başqa bir üslubda və texnoloji zəmində olacağı bir dövrdə də oxuyub bilsinlər ki, insanlar nə qədər müharibələrdən yorulub, əbədi sülh və sevgi arayışında olsalar da, mütləq haradasa gizlənmiş bir şeytan vardır ki, onun fitvası ilə bu gözəl dünyamız yenidən qaranlığa bürünə, günahsız insanların qanı axıdıla bilər. Hələ 35 il əvvəl, Xankəndidə Azərbaycanın pulu, nefti, qazı, çörəyi, suyu ilə yağ-bal içində yaşayan haylar "miatsum" quruldaşmaları ilə küçəyə axışdıqları vaxt ozamankı gənclik, bəlkə də, ilk dəfə olaraq "separatizm" kəlməsi ilə tanış oldu. Etimologiyası da, əsasən, fransız mənşəli olan bu kəlmənin elə indinin özündəki kimi, şorbasının Parisdə bişirilib, çömçəsinin də Berlindən uzadıldığı "erməni separatizmi" timsalında sonradan Gürcüstan, Moldova, Ukraynaya da sıçrayıb hər yeri qana bulaması, bəlkə də, təsadüfi deyildi. Bununla da 1988-ci ildə Xankəndidə, bax bu meydana doluşmuş meymun sürüsünün beynini zəhərləmiş bədnam "hayastan" xülyası sonrakı illərdə daha dəhşətli bir apokalipsisin – "erməni terrorizmi"nin qanlı simptomları kimi bütün hayları yoluxduran bir pandemiya kimi dünyanın başına bəla olacaqdı. Doğrudur, hazırda Qarabağda basdırılmış minaların partlaması ilə davam edən erməni terrorizmi hələ tam gorbagor olmasa da, daha əvvəlki illərdə erməni işğalı ilə leksikonumuza daxil olan onlarla sayda kəlmələr oldu ki, bu gün onların bəziləri yada düşdükcə ürəklər dağlanır, yaxud da ermənilərin yuxusunu qaçıran "dəmir yumruq"lar düyünlənir. Amansızlığı və qəddarlığı ilə bənzəri olmayan Xocalı soyqırımı, onun qurbanlarını lentə almış Milli Qəhrəman Çingiz Mustafayevin qulaqlardan getməyən həmin o **"Allah!"** kəlmələri heç bir azərbaycanlı tərəfindən heç zaman unudulmayacaq. Dərələyəzin,

Kəlbəcərin qarlı dağ aşırımlarında don vurub qaralmış çılpaq ayaqlarını daha ata bilməyib anasının ardınca “Ana!” hıçqırtısı ilə gözlərini yuman balaca qızcığazların bu son kəlməsi isə sonralar çığ kimi böyüyərək Qarabağ fatehlərimizin ürəyindəki qisas alovuna dönəcəkdi. Ancaq bütün belə unuda bilməyəcəyimiz kəlmələrlə yanaşı, 1994-cü ildən 2020-ci ilin 27 sentyabrına qədərki dövrdə o qədər yaddaşımızı məşğul edib, sonradan “status-kvo” kimi cəhənnəmə getmiş kəlmələr də vardır ki, onlar da, sözün əsl mənasında, bugünkü erməni revanşistlərinin və onların havadarlarının bir növ vizit kartı idilər. Otuz il ərzində, guya, münaqişəni danışıqlar yolu ilə həll etməyə çalışan, əslində isə bir turizm firmasının işindən artığını görə bilməyən “ATƏT-in Minsk qrupu”, onların iştirakı ilə qoşunların təmas xətti boyunca keçirilən “monitorinqlər” və bu təmas xəttinin arxasında milyonlarla dollara başa gəlmiş mifik “Ohanyan səddi” də bu gün artıq göndərilmiş yerlərindədir. Gözəl Qarabağ, mədəniyyət paytaxtımız Şuşa özünün füsunkar cazibəsi ilə buraya səfər edən hər bir kəsi məftun edib. Ancaq otuz il əvvəlki Qarabağdan fərqli olaraq bu gün erməni işğalından geriyə qalanlar 1945-ci il Xirosimasından heç də fərqlənmir. Dünyanın ən məzlum və ən əzabkeş xalqı cildində siyasətçilərin gözünə girib Xocalıda, Meşəlidə, Ağdabanda soyqırımı törədən, sonradan isə ədalət məhkəməsində timsah göz yaşları tökən ermənilər işğal altında saxladıqları torpaqlarda daşı daş üstə qoymayaraq, əslində, təkcə sürünənlərin deyil, gəmiricilər dəstəsinin də unikal bir biotəsnifat nümunəsi olduqlarını bütün dünyaya sübut etdilər. Nəticədə, işğaldan sonra Qarabağa səyahət edən istər yerli, istərsə də əcnəbi turistlər, eləcə də diplomatlar, səfirlər və dövlət başçıları üçün dünyanın heç bir yerində analoqu olmayan bir “Qaranlıq turizmi” destinasiyası miras qalıb. Nə qədər acı, nə qədər təəssüfverici olsa da, bu kəlmə hələ on illərlə bizimlə bərabər qalacaq və bütün dünya erməniliyinin

üzünə tərs şapalaq kimi dəyəcəkdir. Elə buna görə də Qarabağın dağıdılmış yaşayış məskənlərinin, məscidlərinin, evlərin sökülüb satılmış divar daşlarının boş qalmış yerlərinin, susuzluqdan yanıb kül olmuş meyvə bağlarının, kəsilmiş çinarlarının, quruyub yox olmuş çaylarının, ayaq altında tapdalanıb əzilmiş otların və çiçəklərinin son halı bu dünyada erməni vandalizmini ifşa edə bilmək üçün ən tutarlı kəlmələr olacaqdır. Dünya biləcək ki, torpaqlarımıza uydurma adlar yapışdırıb, təpəgözə oxşayan heykəllər quran ermənilər, özlərinin də gələcəyinə inanmadığı və varlığını da heç zaman tanımadığı bədnam "artsax" adlı bir oyuncaq dövlət qurub, mərkəzini də çoxdan gorbagor olmuş daşnak terrorçu "stepan"ın adı ilə kertləşdirmişdilər. Və bütün bunların hamısı qəhrəman Azərbaycan əsgərinin cəmisi birgünlük antiterror əməliyyatı ilə cəhənnəmə vasil olduğunda isə hayların bütün dünyanın başını ağrıdıb, Aralıq dənizindən Xəzərə qədər xəyal etdikləri nəhəng "hayastan" xəritəsi də elə cinayətkar xunta başçısının stolunun üstündəcə gorbagor oldu. Elə görünür, bunu bir "nəhayət" kimi görüb özləri üçün də bayram edən qərbli havadarlar erməni baş nazirini avroparlamentdə ayaq üstə alqışlamaqla, əslində, bütün erməniləri ələ salırdılar. Bu gün artıq Azərbaycan ərazisində erməni separatizminin kökü tamamilə kəsilmiş, keçmişi ləkəli hay töküntüləri ***"erməni millət deyil",*** – deyə-deyə rədd olub getmişlər. Ermənilərin, doğrudan da, millət olmadığı isə onların döyüş meydanında uduzanda dinc əhaliyə divan tutması, öz məğlubiyyətinin səbəbini sülhməramlıda axtarması və bütün imkanlar tükənəndə on illər boyu sığındıqları ağalarını satması ilə bir daha sübut olundu. Bizim üçün tam qalibiyyətlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra ikiyüzillik sərsəm erməni iddialarının birdəfəlik yox edilməsindən geriyə qalanlarsa, Vətən sevgisi ilə dastana dönən minlərlə şəhidimizin əziz xatirəsi və dövlət

başçımızın hər bir azərbaycanlının dilində əbədi yaşayacaq *“Qarabağ Azərbaycadır!”* kəlməsi olacaq.

***[https://www.mia.az/w1056979/1056979](https://www.mia.az/w1056979/1056979)***
***8 noyabr 2023-cü il***

## Şahbuz dağlarında son payız (esse)

***Görkəmli coğrafiyaşünas alim***
***Nazim Bababəylinin xatirəsinə***

Bütün yay boyu hər yeri yandırıb, sonunda yorğun düşən Günəşin ılıq şəfəqləri yavaş-yavaş Dərələyəzin zirvələrindən üzü güneyə doğru əyildikcə Şahbuz dağları da özünün payız kürkünə sıx-sıx bürünərək qarlı qışa doğru boylanır.

Vaxt daraldıqca, Salvartının o üzündən əsən soyuq payız küləklərinə həmişəki kimi sinə gərən Üçqardaş özünün kiçik qardaşı Keçəldağla əl-ələ verib bu qışda da kimsənin eşitmədiyi yeni bir nağılla uşaqların görşünə gələcək.


Şahbuz dağlarında son payız (Esse)

20-11-2023 [12:09]

Əli Cabbarov,

Naxçıvan Dövlət Universitetinin dosenti

---

(Görkəmli coğrafiyaşünas alim Nazim Bababəylinin xatirəsinə)

Bütün yay boyu hər yeri yandırıb, sonunda yorğun düşən Günəşin ılıq şəfəqləri yavaş-yavaş Dərələyəzin zirvələrindən üzü güneyə doğru əyildikcə Şahbuz dağları da özünün payız kürkünə sıx-sıx bürünərək qarlı qışa doğru boylanır.

Vaxt daraldıqca, Salvartının o üzündən əsən soyuq payız küləklərinə həmişəki kimi sinə gərən Üçqardaş özünün kiçik qardaşı Keçəldağla əl-ələ verib bu qışda da kimsənin eşitmədiyi yeni bir nağılla uşaqların görşünə gələcək.

Gündüzlərində Batabat dolaylarına qədər enib otlayan dağ keçilərinin ürkək qaçışları, gecəsində, ayazdan bal kimi şirinləşmiş qara yemişanın iştahına gələn tənbəl ayıların fənər kimi yanan gözləri isə bu nağılın “biri varmış” qəhrəmanlarındandır. Səfərbəy səngərinin sərt yamaclarında güzgü kimi parlayan qırmızı qayaların büründüyü səssizliyi pozan dağlar gözəli Gurbulaq şəlaləsi də bu qışı yaxşıca dincəlib yeni baharda öz sevgisinin ardınca doğma Araza qədər uzanan səsli nəğməsiylə Küküçayın büllur kimi dupduru suyuna şərbət kimi qarışacaq.

Beləcə, son payızda qar Şahbuz dağlarından üzüaşağı endikcə yeddi rənglə bəzənmiş bağçasıyla xudahafizləşən qoca bağban da ağaclarını bu qışa əmanət edib, ömürünün ən

sakit, ən rahat bir fəslinə başlayacaq. Onillərdir, hər ibadətində Vətəni, övladları, nəvələri üçün aydın səma, nurlu sabahlar diləyən babanın da arzuları bu payızda çin çıxdı. Artıq, gələn yazdan Qarabağdan daha güllə səsləri gəlməyəcək, daha əsgər analarımız gözü yaşlı qalmaycaqlar.

Hər il Üzən adaya yağan qalın qar artıq gələn yaz əridiyində, Biçənək aşırımından Laçın dağlarınadək köç edəcək qaranquşların sevincindən bütün dünya sevinəcək.

***Zəngəzura salam olsun!***



***https://www.mia.az/mobil/1057497***
***20 noyabr 2023-cü il***

## Dərələyəzi bir daha görəcəyimiz günü gözləyirik

***Şahbuz rayonunun Kükü kəndində məskunlaşmış dərələyəzlilərlə müsahibə***

Çox da uzaq olmayan 35 il əvvəl, 1988-ci ilin əvvəllərində Şörəyeldən Zəngəzura, Sərdarabaddan Göyçəyədək bütün Qərbi Azərbaycan torpaqlarında yaşayan yüz minlərlə soydaşımıza rahatca öz həyatlarını yaşadığı bir vaxtda bir gün, sadəcə, canlarını qurtara bilmək üçün evindən qaçqın düşəcəyini desəydilər, bu, bəlkə də, onlara dünyanın ən bədduası kimi səslənərdi. Yüz illər boyu yaşayıb, məzarlıqlarında yeddi nəsildən uzaq babalarının başdaşını da

tanıyan bu insanların şirin yuxusunu qaçıracaq bu qaçqınlığı o dönəmdə kimsə ağlına belə gətirməzdi: gizlincə, Fransadakı ağalarının saraylarında oturub Ermənistandakı bütün azərbaycanlıları qovmaq və Qarabağı Azərbaycandan qoparmaq kimi bədnam planlar quran ermənilərdən başqa!


Qərbi Azərbaycan: Tarixi faktların və şahidlərin dili ilə

Dərələyəzi bir daha görəcəyimiz günü gözləyirik

Şahbuz rayonunun Kükü kəndində məskunlaşmış dərələyəzlilərlə müsahibə

Haylar bu məkrli planları ilə iki il ərzində 250 minə yaxın soydaşımızı öz dədə-baba torpaqlarından sürgün etməklə, əslində, bugünkü dünyanın ən rəzil, ən məğlub milləti gününə düşmələrinə də yol açmış oldular. Halbuki Ermənistanda yaşayan azərbaycanlılar özlərinin savadı, bacarığı, tarixi-mədəni keçmişi, qonaqpərvərliyi ilə həmişə ermənilərdən bir pillə üstün olmuş, bu sovet respublikasının iqtisadi inkişafına mühüm töhfə vermişlər. Qərbi azərbaycanlıların ozamankı qapısını bağlayıb çıxdığı həmin villatipli evlər, abad həyətlər, tarixi binalar bu gün öz sahiblərinin dilindən düşmür. Belə ailələrdən biri də 1988-ci ildən Şahbuz rayonunun Kükü kəndində məskunlaşmış Dərələyəz mahalının Axta kənd sakinləridir.

Cavanşir Taroyev və Qnyaz Məmmədov 30 ildən artıqdır ki, yaşadıqları Kükü kəndinin camaatı ilə tam qaynayıb-qarışıblar. 1988-ci ilin soyuq, qarlı bir dekabr günündə öz doğma kəndlərindən zorla çıxarılanda qadınlar, uşaqlar və qocalarla birgə Dərələyəz dağlarının çətin keçilən yamacları ilə Naxçıvana pənah gətirən digər həmyerliləri kimi onların da hansı çətinliklər keçirdiyindən, əslində, çox da danışmaq istəmirlər. Təbiətən mərd və məğrur bu insanların

üzlərindəki Vətən həsrəti onları bir daha xatırlamaq istəmədikləri bu çətinliklərdən danışmağa qoymur sanki. Halbuki ilk gəldikləri qışda sığındıqları qonşu kənd məktəbinin kiçik laboratoriya otağındakı çətin vəziyyəti, həyatda qalmaq üçün harada gəldi iş axtarmalarını təsvir etməyə belə dəyməz. Sonrakı illərdə dövlətin və yerli adamların yardımlarını, birbirindən aralı düşmüş qohumları, dostları tapmaqda hansı çətinliklər çəkdiyini də dərələyəzli qonşularımız deyirlər. Dərələyəz isə, əslində, Naxçıvanın qonşusu olmayıb, elə 1920-lərə qədər Naxçıvanın öz ərazisi olub. Ona görə də Axta kəndindən Küküyə pənah gətirmiş bu ailə də nə qədər yuvasından ayrı düşsə də, ikinci vətənində özünü həmişə rahat hiss edib. Cavanşir kişi çox söhbətcil, təbiətən şair bir insandır. Dərələyəz haqqında danışanda deyir ki, Səfərbəy səngərinin *(Dərələyəz silsiləsinin ən yüksək zirvəsi olan Kükü dağının el arasındakı adı)* o biri üzü də elə buralarla sanki eynidir. Düzdür, sərt yamacları daha az olsa da, eyni şirin bulaqlar, dadlı pencərlər, bağ-bağat orada da var idi. Deyir ki, bəzən uzun yaz günlərində Günəşin son şəfəqləri Keçəldağın zirvəsində ilişib qalanda sanki oradan Dərələyəzin enişlərinə baxmağa çağırırmış kimi gəlir adama. Amma nə edim ki, əlimiz çatmır. Dünyanın ədaləti budurmu, – deyir. O dövr Dərələyəzin Əzizbəyov rayonu sırf azərbaycanlıların məskunlaşdığı bölgələrdən biri olub. Rayondakı kənd, tarixi yer adları da bundan xəbər verir. Hətta üç-beş erməni ailəsinin yaşadığı Paşalı, Sultanbəyli, Mərdürüs kəndlərinin adı, göründüyü kimi, türk mənşəlidir. Rayon mərkəzindən, təxminən, 15 kilometr məsafədəki Axta kəndi isə nisbətən iri Gömür, Gabıd kəndləri ilə qonşu olub. Cavanşir kişi deyir ki, hələ sovetin güclü vaxtında da rayondakı müxtəlif dövlət idarələrində ermənilərin onlara qarşı kinli münasibətlərini həmişə hiss ediblər. Bunu İrəvana, yaxud qonşu Zəngəzur şəhərlərinə yolu düşəndə də görüblər. 1987-ci ildən açıq şəkildə azərbaycanlıların sıxışdırılmasına başlanılmışdı. Ən

çox gecələr yerli əhalidə vahimə yaratmaq üçün basqınlar edilir, qonşu Cul kəndindən odlu silahlarla atəş açılır, birbaşa öldürmək məqsədilə onları hədəf alırdılar. 1988-ci ildən isə ermənilər kəndləri mühasirədə saxlayır, soydaşlarımızı rayon mərkəzinə getməyə qoymurdular. Əzizbəyov rayonu isə azərbaycanlı adı daşısa da, demək olar ki, bütün idarələrdə ermənilər vəzifə daşıyırdılar. Bunu Qnyaz Məmmədovun o dövrdən qalmış, daha doğrusu, rayon mərkəzindəki texniki peşə məktəbinə aid 1982-ci il məzunlarının vinetkasına da baxanda görmək olar. Burada bütün məzunların azərbaycanlı olduğu halda bütün rəhbər heyətin bir nəfərdən başqa erməni olması da, əslində, çox şeydən xəbər verir. Halbuki həmsöhbətlərim o zaman kəndlərindəki bütün təhsil işçilərinin adlarını yaxşı xatırlayırlar: məktəb direktoru Telman müəllim, Qasım müəllim, Sevindik müəllim kimi ziyalılar o zamanlar ucqar Ermənistan kəndində azərbaycanlı övladlara təhsil verərdilər. Kənddə yalnız 8 illik məktəb olduğundan uşaqlar 10 illik təhsil ala bilmək üçün 3 kilometr aralı Gömürə gedərmişlər. Təhsildən söz düşmüşkən, danışırlar ki, o zamanlar azərbaycanlıların Ermənistanda vəzifə tutmamaları üçün məktəblərdə onlara yalnız Azərbaycan və rus dili öyrədilərdi. Elə buna görə idi ki, gənclər ali təhsil almaq üçün, əsasən, Bakıya, ya da ki, Naxçıvana gələrdilər. Dərələyəzlilər əsl təsərrüfatcıldırlar. Bu bölgənin insanları bağçılıq, bostançılıq, heyvandarlıq və arıçılıqla hələ yüz illər əvvəldən məşğul olurmuşlar. Deyilənlərə görə, hələ o vaxtlar o mahalın camaatı Naxçıvana gəlib meyvə qurusu alıb apararmışlar. Ayrıca olaraq sovet dövründə bölgədə tütünçülük də inkişaf etdirilmişdi. Dərələyəz mahalında yaşamış insanların bu dağlarda bitən dərman bitkilərinə olan həvəsi isə elə otuz il əvvəl necə olubsa, indi də elədir. Keçəldağın ələyəzi, Kükü dağının əvəliyi, cacığı, baldırğanı, yarpızı, dağ göbələyi ozamankı kimi indi də çox sevilir. Cavanşir kişi deyir ki, qohumlarımızın əksəriyyəti indi Bakı şəhərində kompakt

halda yaşasalar da, Şahbuz dağlarında bitən bu nemətləri həmişə arzulayırlar. Biz də imkan olan kimi onlara kiçik pay tuturuq. Torpaq çəkir axı. Dərələyəzli qonşularımızla bu noyabr tətilində, Böyük Zəfərimizin 3-cü ildönümünü qürurla qeyd etdikdən az sonra görüşüb, geniş bağ-bağatlı həyətlərində söhbət edə bildik. Hamı kimi onların da üzü gülürdü. Artıq ordumuz tam qələbə qazanmış, bütün qaçqınlar kimi onlara da fəlakət və acı həyat gətirmiş erməni faşizmi darmadağın edilmişdi. Doğma Qarabağa Böyük qayıdış başladığından onların da ürəyindəki Dərələyəzə dönə bilmək ümidləri cücərir, köhnə xatirələr yenidən baş qaldırır. Xatirələr isə boldur: Dərələyəzin Meşəbulağı, Yoxuşbulağı, Xanonun gölü, Həyligöl, Binələr, Ağkənd, Mərədüzü, Qarakilsənin Şəki şəlaləsi, Arpaçayın qızıl balığı, Gorusa, Laçına və Ağdama etdikləri səfərlər… Hamısı indi həsrətlə yada salınsa da, o zamanlar kəndli gənclərin Azərbaycan televiziyasına, xüsusən də "Neftçi"nin oyunlarına baxmaq üçün kənddə uca bir təpənin başında Şuşadan gələn televiziya siqnalının tutulduğu bir evə toplaşmaları çox şirin xatirə oldu. Bu gün bütün qərbi azərbaycanlılar kimi, dərələyəzlilər də nikbindirlər. Onlara qucaq açmış ikinci Vətən – Azərbaycan Respublikası gücləndikcə bu nikbinlik daha da artır. Dərələyəzin bir addımlığından, Qanlıgölün Südlübulağın evlərinə gələn şərbət kimi şirin suyundan dəmlənmiş samovar çayına məni qonaq edən qonşularım – bir daha Dərələyəzə qayıda bilsəydiniz orada öz həyatınızı yenidən necə qurmağı arzulayardınız sualıma – ***Müharibəsiz yaşamaq istərdik,*** – deyə cavab verdilər.

***"Şərq Qapısı" qəzeti, 22 nyabr 2023-cü il***
***https://serqqapisi.gov.az/xeberler/dereleyezi-bir-daha-goreceyimiz-gunu-gozleyirik***

# Zəngəzura salam olsun

44 günlük Vətən müharibəsindəki ağır məğlubiyyətindən sonra Vaşinqton, Paris və İrəvanın qaranlıq otaqlarında oturub Azərbaycana qarşı yenidən kirli planlar cızan ermənilər hələ 36 il əvvəl, 1987-ci ilin noyabrında başabəla sovet akademiki Aqanbekyanın fransız kommunistlərinin yayım orqanı olan və buna görə də keçmiş SSRİ-də də geniş təbliğ olunan "Humanite" verdiyi o qəzetinə sərsəm müsahibəni unutmamalıdırlar.



Tarixi Azə

*44 günlük Vətən müharibəsindəki ağır məğlubiyyətindən sonra Vaşinqton, Paris və İrəvanın qaranlıq otaqlarında oturub Azərbaycana qarşı yenidən kirli planlar cızan ermənilər hələ 36 il əvvəl, 1987-ci ilin noyabrında başabəla sovet akademiki Aqanbekyanın fransız kommunistlərinin yayım orqanı olan və buna görə də keçmiş SSRİ-də də geniş təbliğ olunan "Humanite" qəzetinə verdiyi o sərsəm müsahibəni unutmamalıdırlar.*

## Zəngəzura salam olsun

İndi məlum olur ki, on illərlə "kirvə" niqabının arxasında gizlənib azərbaycanlıların qanını tökməyə hazırlaşan hayların iç üzünü, əslində, ifşa edən o yazı bu gün məşhur olmuş "Allah haqqı erməni millət deyil" adlı ştamp ifadənin, sadəcə, bir girişi idi. Çünki kökü olmayan erməni cəmiyyətinə bundan artıq qiyməti nə okeanın, nə də Arazın o tayında da heç kim belə açıq-aydın verə bilmir. Ona görə də ağalarının birinin qalstukundan, o birinin də saqqalından yapışıb ortada qalmış Paşinyan hökuməti bir də yuxudan ayılanda onun qatarının artıq çoxdan getdiyini görəcəkdir. Bununla da münaqişə sonrası ölkəmizin sülh təkliflərini bir-bir boşa sərf edən Ermənistan fürsətlərdən uzaqlaşdığı bir dönəmdə xalqımızın addım-addım Qərbi Azərbaycana yaxınlaşması tarixin bizə verdiyi haqq-ədalət mükafatıdır.

Azərbaycanlılar bir gün mütləq Qərbi Azərbaycana qayıdacaqlar. Bu qayıdış fundamental insan hüquqlarından biri olub, hər bir soydaşımızın əzəli ata yurduna dönə bilmək haqqıdır. Çünki Qərbi Azərbaycan deyəndə təkcə XX əsrdə dəfələrlə, ən son isə 1988-ci ildən zorla deportasiya edilmiş 260 mindən çox soydaşımızın yaşadığı kənd və şəhərlər deyil, eyni zamanda təbiət gözəli dağlar, çaylar, göllər və şəlalələr, Azərbaycan xalqının tarixi köklərinin izlərinin yaşandığı yaşı min ildən artıq olan abidələr, qədim yurd yerləri yada düşür. Bu gün Qarabağ erməni separatizmindən tam azad olunsa da, hələ də bizdən uzaqda qalmış bu sərvətlərimizə də çata bilmək hər bir azərbaycanlının arzusudur. Odur ki, hazırda bu torpaqlarda kimlərin yaşamasından asılı olmayaraq, Qərbi Azərbaycanı hər mədəniyyət tədbirində, hər yazıda, hər söhbətdə yada salmaq, burada yaşamış insanları tanımaq, keçmişini öyrənmək, təbiətinə bələd olmaq, hətta gündəlik hava haqqında məlumatları ilə də tanış olmaq tamamilə təbii bir istək məsələsidir. Belə ki, indi təkcə Qərbi Azərbaycanda yaşamış soydaşlarımız deyil, ömründə heç bu torpaqları görməmiş bütün digər azərbaycanlılar üçün Bakı, Təbriz, Ərdəbil, Dərbənd qədər İrəvan da böyük Vətənimizin bir parçasıdır. Odur ki, bir gün Qərb torpaqlarımıza da ayaq basan həmyerlilərimiz bizim buradakı xoşməramlı elçilərimiz kimi yenidən doğulduqları torpaqlara qovuşacaq, ata yurdlarını ziyarət edəcəklər.

Qonşuları ilə yaşamağı bacarmayan ermənilər isə hələ də intuitiv xüsusiyyətlərinin əsirliyindən çıxmayıblar. Başlarının üstündə, yaxud gözlərinin önündəki reallığı görə bilməyən kor hay topluluğuna birisi bir şayiə buraxdısa sanki içinə çöp uzadılmış qaranlıq qarışqa yuvası kimi qaynaşacaq, bir-birlərini əzib qıracaqlar. Buna elə bu ilin sentyabrında keçirilmiş antiterror tədbirlərindən sonra da şahid olduq. Sən demə, Laçın yoluna düzülüb aradan çıxmaq istəyən həmin bu ermənilərin elə hamısının barmaq izlərində qan ləkələri varmış. Elə buna görə də bu gün Ermənistanın özündə də küçədə qalmış bu separatçıların aldığı ən böyük cəzanın elə öz qəbilədaşlarından gəlməsi təsadüfi deyildir. Belə ki, hazırda Ermənistan hökuməti ilə Qarabağ separatçılarının bir-birlərinə olan mövcud münasibətləri Kremlin bütün haylara olan münasibətindən heç də isti deyildir. Buna görə də qonşularsız yaşaya bilmək xəyalları ilə zəhərlənmiş erməni toplumunun gələcəyi belə getsə, üçgünlük göbələk ömrü qədər simvolik olacaq.

Qərbi Azərbaycana qayıdış strateji hədəf olub, bu torpaqlardan deportasiya olunmuş soydaşlarımızın hüquqlarının bərpası istiqamətində ölkəmizdə həyata keçirilən dövlət siyasətinin tərkib hissəsidir. Ulu Öndərin siyasətini davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ata vəsiyyətinə əməl edərək torpaqlarımızı işğaldan azad etdiyi kimi, Qərbi Azərbaycana qayıdış konsepsiyasını da uğurla həyata keçirir, bu istiqamətdə güclü diplomatik addımlar atır. Artıq görünməkdədir ki, Azərbaycan öz güclü iqtisadi-mədəni potensialı, gündən-günə artan siyasi nüfuzu ilə bu konsepsiyanı da gec-tez reallığa çevirməklə bu sahədə də beynəlxalq hüququn bərpasına nail olacaq. Bu mənada, ötən ay Naxçıvanda keçirilmiş "Qərbi Azərbaycana qayıdış" festival-konqresi özünün möhtəşəmliyi ilə bu məsələdə xalqımızın istəyini və dövlətimizin qətiyyətini ortaya qoydu. Bu mühüm tədbirdəki çıxışlar, dünyaya verilən mədəniyyət ismarıcları erməni toplumunun tarixdə nə qədər parazit, erməni ideoloqlarının isə nə qədər yalançı olduqlarını bir daha sübut etdi. Dünya gördü ki, Azərbaycan Ermənistan üzərində təkcə müzəffər Ordusu ilə deyil, iqtisadiyyatı və mədəniyyəti ilə də qələbə çalmışdır. Festivalda Qərbi Azərbaycandan olan soydaşlarımızın otuz il əvvəldən yaşatdığı xatirələr, səsləndirilən musiqi əsərləri, sərgilənən ədəbiyyat nümunələri, elmi araşdırmalar, məqalələr toplusu, rəsm əsərləri, İrəvan mətbəxi nümunələri bu torpaqlara qayıdışın ilk uğurlu addımlarından biri olmuş, uzun illər yuvasından ayrı düşmüş insanların ürəyində yeni ümidlər oyatmışdır.

Tarix Azərbaycan xalqını çox sınaqlara çəkmişdir. Lakin Şimaldan, Cənubdan, Avropadan, Amerikadan, haradan olursa olsun, ölkəmizə qarşı çıxanlar gec-tez öz cəzasını almış, haqq-ədalət qarşısında cavab vermişlər. Bu gün də müzəffər Ordusunun gücü ilə işğalçını məhv edib Qarabağdan qovan xalqımız öz qətiyyətli dövlət başçısı ilə yeni hədəflərə doğru addımlayır. Yolumuz Qərbi Azərbaycanadır.

*Zəngəzura salam olsun!*

Əli CABBAROV

İndi məlum olur ki, on illərlə "kirvə" niqabının arxasında gizlənib azərbaycanlıların qanını tökməyə hazırlaşan hayların iç üzünü, əslində, ifşa edən o yazı bu gün məşhur olmuş ***"Allah haqqı erməni millət deyil"*** adlı ştamp ifadənin, sadəcə, bir girişi idi. Çünki kökü olmayan erməni cəmiyyətinə bundan artıq qiyməti nə okeanın, nə də Arazın o tayında da heç kim belə açıq-aydın verə bilmir. Ona görə də ağalarının birinin qalstukundan, o birinin də saqqalından yapışıb ortada qalmış Paşinyan hökuməti bir də yuxudan ayılanda onun qatarının artıq çoxdan getdiyini görəcəkdir. Bununla da münaqişə sonrası ölkəmizin sülh təkliflərini bir-bir boşa sərf edən Ermənistan fürsətlərdən uzaqlaşdığı bir dönəmdə xalqımızın addım-addım Qərbi Azərbaycana yaxınlaşması tarixin bizə verdiyi haqq-ədalət mükafatıdır. Azərbaycanlılar bir gün

mütləq Qərbi Azərbaycana qayıdacaqlar. Bu qayıdış fundamental insan hüquqlarından biri olub, hər bir soydaşımızın əzəli ata yurduna dönə bilmək haqqıdır. Çünki Qərbi Azərbaycan deyəndə təkcə XX əsrdə dəfələrlə, ən son isə 1988-ci ildən zorla deportasiya edilmiş 260 mindən çox soydaşımızın yaşadığı kənd və şəhərlər deyil, eyni zamanda təbiət gözəli dağlar, çaylar, göllər və şəlalələr, Azərbaycan xalqının tarixi köklərinin izlərinin yaşandığı yaşı min ildən artıq olan abidələr, qədim yurd yerləri yada düşür. Bu gün Qarabağ erməni separatizmindən tam azad olunsa da, hələ də bizdən uzaqda qalmış bu sərvətlərimizə də çata bilmək hər bir azərbaycanlının arzusudur. Odur ki, hazırda bu torpaqlarda kimlərin yaşamasından asılı olmayaraq, Qərbi Azərbaycanı hər mədəniyyət tədbirində, hər yazıda, hər söhbətdə yada salmaq, burada yaşamış insanları tanımaq, keçmişini öyrənmək, təbiətinə bələd olmaq, hətta gündəlik hava haqqında məlumatları ilə də tanış olmaq tamamilə təbii bir istək məsələsidir. Belə ki, indi təkcə Qərbi Azərbaycanda yaşamış soydaşlarımız deyil, ömründə heç bu torpaqları görməmiş bütün digər azərbaycanlılar üçün Bakı, Təbriz, Ərdəbil, Dərbənd qədər İrəvan da böyük Vətənimizin bir parçasıdır. Odur ki, bir gün Qərb torpaqlarımıza da ayaq basan həmyerlilərimiz bizim buradakı xoşməramlı elçilərimiz kimi yenidən doğulduqları torpaqlara qovuşacaq, ata yurdlarını ziyarət edəcəklər.

Qonşuları ilə yaşamağı bacarmayan ermənilər isə hələ də intuitiv xüsusiyyətlərinin əsirliyindən çıxmayıblar. Başlarının üstündə, yaxud gözlərinin önündəki reallığı görə bilməyən kor hay topluluğuna birisi bir şayiə buraxdısa sanki içinə çöp uzadılmış qaranlıq qarışqa yuvası kimi qaynaşacaq, bir-birlərini əzib qıracaqlar. Buna elə bu ilin sen tyabrında keçirilmiş antiterror tədbirlərindən sonra da şahid olduq. Sən demə, Laçın yoluna düzülüb aradan çıxmaq istəyən həmin bu ermənilərin elə hamısının barmaq izlərində qan ləkələri

varmış. Elə buna görə də bu gün Ermənistanın özündə də küçədə qalmış bu separatçıların aldığı ən böyük cəzanın elə öz qəbilədaşlarından gəlməsi təsadüfi deyildir. Belə ki, hazırda Ermənistan hökuməti ilə Qarabağ separatçılarının bir-birlərinə olan mövcud münasibətləri Kremlin bütün haylara olan münasibətindən heç də isti deyildir. Buna görə də qonşularsız yaşaya bilmək xəyalları ilə zəhərlənmiş erməni toplumunun gələcəyi belə getsə, üçgünlük göbələk ömrü qədər simvolik olacaq. Qərbi Azərbaycana qayıdış strateji hədəf olub, bu torpaqlardan deportasiya olunmuş soydaşlarımızın hüquqlarının bərpası istiqamətində ölkəmizdə həyata keçirilən dövlət siyasətinin tərkib hissəsidir. Ulu Öndərin siyasətini davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ata vəsiyyətinə əməl edərək torpaqlarımızı işğaldan azad etdiyi kimi, Qərbi Azərbaycana qayıdış konsepsiyasını da uğurla həyata keçirir, bu istiqamətdə güclü diplomatik addımlar atır. Artıq görünməkdədir ki, Azərbaycan öz güclü iqtisadimədəni potensialı, gündən-günə artan siyasi nüfuzu ilə bu konsepsiyanı da gec-tez reallığa çevirməklə bu sahədə də beynəlxalq hüququn bərpasına nail olacaq. Bu mənada, ötən ay Naxçıvanda keçirilmiş ***“Qərbi Azərbaycana qayıdış”*** festival-konqresi özünün möhtəşəmliyi ilə bu məsələdə xalqımızın istəyini və dövlətimizin qətiyyətini ortaya qoydu. Bu mühüm tədbirdəki çıxışlar, dünyaya verilən mədəniyyət ismarıcları erməni toplumunun tarixdə nə qədər parazit, erməni ideoloqlarının isə nə qədər yalançı olduqlarını bir daha sübut etdi. Dünya gördü ki, Azərbaycan Ermənistan üzərində təkcə müzəffər Ordusu ilə deyil, iqtisadiyyatı və mədəniyyəti ilə də qələbə çalmışdır. Festivalda Qərbi Azərbaycandan olan soydaşlarımızın otuz il əvvəldən yaşatdığı xatirələr, səsləndirilən musiqi əsərləri, sərgilənən ədəbiyyat nümunələri, elmi araşdırmalar, məqalələr toplusu, rəsm əsərləri, İrəvan mətbəxi nümunələri bu torpaqlara qayıdışın ilk uğurlu addımlarından biri olmuş, uzun illər

yuvasından ayrı düşmüş insanların ürəyində yeni ümidlər oyatmışdır. Tarix Azərbaycan xalqını çox sınaqlara çəkmişdir. Lakin Şimaldan, Cənubdan, Avropadan, Amerikadan, haradan olursa olsun, ölkəmizə qarşı çıxanlar gec-tez öz cəzasını almış, haqq-ədalət qarşısında cavab vermişlər. Bu gün də müzəffər Ordusunun gücü ilə işğalçını məhv edib Qarabağdan qovan xalqımız öz qətiyyətli dövlət başçısı ilə yeni hədəflərə doğru addımlayır.

***Yolumuz Qərbi Azərbaycanadır. Zəngəzura salam olsun!***

***"Şərq Qapısı" qəzeti, 8 dekabr 2023-cü il***
***https://serqqapisi.gov.az/xeberler/zengezura-salam-olsun***

## Şahbuzdan Sankt-Peterburqa uzanan körpü

Müasir dövr Azərbaycan tarixi istər Vətənimizdə, istərsə də onun hüdudlarından kənarda yaşayan həmvətənlərimizin bir yumruq kimi birləşib vahid məqsəd uğrunda mübarizəsi ilə xarakterizə olunur. Taleyin hökmü ilə dünyanın müxtəlif yerlərində yaşayıb fəaliyyət göstərən azərbaycanlılar harada olmalarından asılı olmayaraq, həmişə ana Vətən Azərbaycanla nəfəs alıb, onun uğuruna sevinib, dar günündə həmrəy olmağa can atıblar. Belə həmvətənlərimizdən biri də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində yaşayan Müslüm Muradovdur.

Həmrəylik ayında Müslüm müəllimlə əlaqə saxlayıb qəzetimiz üçün yazı hazırlamaq niyyətimizi bildirəndə çox sevindi. Müslüm müəllimlə, təxminən, 13 il əvvəl, 2010-cu ilin yayında dövlət tədbirində iştirak üçün Naxçıvana dəvət edilmiş Sankt-Peterburqda çalışan elm və iş adamları ilə bir görüşdə tanış olmuşduq. Daha sonra beynəlxalq konfransla əlaqədar Sankt-Peterburqa səfərim zamanı dəyərli ziyalımızla daha yaxından tanış olub, onun bir azərbaycanlı kimi təəssübünü görmüşdüm. O zaman yenicə müdafiə etmiş bir

həmyerlisinin Beynəlxalq Turizm Akademiyasının konfransında iştirak etmək üçün Naxçıvandan Rusiyanın mədəniyyət paytaxtına səfər etməsinin Müslüm müəllimi nə



**Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları "Şərq qapısı" qəzetində görəcəksiniz.**

## Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq

### Şahbuzdan Sankt-Peterburqa uzanan körpü

Müasir dövr Azərbaycan tarixi istər Vətənimizdə, istərsə də onun hüdudlarından kənarda yaşayan həmvətənlərimizin bir yumruq kimi birləşib vahid məqsəd uğrunda mübarizəsi ilə xarakterizə olunur. Taleyin hökmü ilə dünyanın müxtəlif yerlərində yaşayıb fəaliyyət göstərən azərbaycanlılar harada olmalarından asılı olmayaraq, həmişə ana Vətən Azərbaycanla nəfəs alıb, onun uğuruna sevinib, dar günündə həmrəy olmağa can atıblar. Belə həmvətənlərimizdən biri də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində yaşayan Müslüm Muradovdur. Həmrəylik ayında Müslüm müəllimlə əlaqə saxlayıb qəzetimiz üçün yazı hazırlamaq niyyətimizi bildirəndə çox sevindi.

Müslüm müəllimlə, təxminən, 13 il əvvəl, 2010-cu ilin yayında dövlət tədbirində iştirak üçün Naxçıvana dəvət edilmiş Sankt-Peterburqda çalışan elm və iş adamları ilə bir görüşdə tanış olmuşduq. Daha sonra beynəlxalq konfransla əlaqədar Sankt-Peterburqa səfərim zamanı dəyərli ziyalımızla daha yaxından tanış olub, onun bir azərbaycanlı kimi təəssübünü görmüşdüm. O zaman yenicə müdafiə etmiş bir həmyerlisinin Beynəlxalq Turizm Akademiyasının konfransında iştirak etmək üçün Naxçıvandan Rusiyanın mədəniyyət paytaxtına səfər etməsinin Müslüm müəllimi nə qədər sevindirdiyini indi də xatırlayıram. Ona görə də bu dəfə onun fəaliyyəti haqqında bir yazı yazmaq fikrimi bildirəndə həmin köhnə xatirələr yenidən canlandı.

Müslüm Sultan oğlu Muradov 1971-ci il avqustun 14-də Qərbi Azərbaycanın Dərələyəz mahalının Qaraqaya kəndində anadan olub. 1978-ci ildə atasının başqa işə keçməsi ilə əlaqədar ailəsi Naxçıvana, Şahbuz rayonunun Ayrınc kəndinə köçüb. Burada orta məktəbi əla qiymətlərlə bitirəndən sonra 1988-ci ildə ozamankı Leninqrad İnşaat Mühəndisləri İnstitutuna daxil olub, 1996-cı ildə Sankt-Peterburq Memarlıq-İnşaat Universitetini Sənaye və mülki tikinti mühəndisliyi ixtisası üzrə bitirib. Həmin ildə Sankt-Peterburq Memarlıq-İnşaat Universitetində aspiranturaya qəbul olub. Burada gənc aspirant Müslüm Muradov professor Boris Mixaylovun elmi rəhbərliyi ilə 2001-ci ildə "Kontrplak borulardan istifadə etməklə plitə-konstruksiyaların təkmilləşdirilməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib və universitetdə elmi fəaliyyətə başlayıb. Elmi işlə yanaşı olaraq 1996-cı ildə "İnterles" Məhdud Məsuliyyətli Cəmiyyətini quraraq bu günə qədər baş icraçı direktor kimi uğurlu biznes fəaliyyətini də davam etdirir. Hazırda Sankt-Peterburq şəhərində yaşayır, elmi fəaliyyəti ilə yanaşı, xeyriyyəçi və ictimai işlərdə də fəallığı ilə yaxşı tanınır.

Müslüm müəllim tanınmış ziyalı və uğurlu iş adamı olmaqla yanaşı, əsl diaspor fəalı, ölkəmizi hər yerdə dəstəkləyən vətənpərvərdir. O bu fəaliyyətini, necə deyərlər, vaxtı olanda deyil, gündəlik iş planına daxil olan təşkilati işlər qaydasında həyata keçirir. Şübhəsiz, 380 minə yaxın üzvü olan Sankt-Peterburq Azərbaycan diaspor təşkilatının qurucularından biri və rəyasət heyətinin üzvü kimi onun bu sahədəki fəaliyyəti də çoxşaxəli olmalıdır. Belə ki, Sankt-Peterburqda yaşayan və fəaliyyət göstərən Azərbaycan diasporunun Rusiyada ən aktiv olması və nüfuz qazanması burada təmsil edilən həmyerlilərimizin daim birlik içində olmaları, onların bütün məsələlərdə vahid bir ailə kimi toplanıb yekun fikrə gəlmələri ilə sıx bağlıdır. Müxtəlif illərdə onun da fəal üzvü olduğu Sankt-Peterburqdakı diasporumuz Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin inkişafı və stabilliyi üçün xeyli işlər görmüş, ölkəmizdən 3 min kilometr uzaqda bir çox hallarda çətinliklərlə qarşılaşsalar da, bu şəhərdə və vilayətin digər bölgələrində Azərbaycan reallıqlarını dünyaya çatdırmaq məqsədilə elmi konfranslar, milli folklor konsertləri, incəsənət proqramları, muğam tədbirləri, teatr tamaşaları, poeziya axşamları təşkil etmiş, 20 Yanvar və Xocalı soyqırımı günlərində anım tədbirləri keçirmişlər.

Ötən dövrdə Sankt-Peterburq Azərbaycan diasporu üçün ən yaddaqalan mühüm hadisələr, şübhəsiz, 2002-ci ildə Ümummilli Liderimiz Heydər Əliyev və Rusiya prezidenti Vladimir Putinin iştirakı ilə Sankt-Peterburq şəhərində görkəmli şairimiz Nizami Gəncəvinin abidəsinin açılışı və 2005-ci ildə dövlət başçımız cənab İlham Əliyevin iştirakı ilə Ulu Öndərin 1949-1950-ci illərdə ali təhsil aldığı, şəhərin Qoroxovaya küçəsində yerləşmiş SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin ali məktəbinin binasına xatirə lövhəsinin vurulması tədbirləri olmuşdur. Bundan ruhlanan diaspor üzvləri fəallıqlarını daha da artıraraq 2008-ci ildə Mədəni İnformasiya Mərkəzi – "Naxçıvan" Cəmiyyəti yaradır və Müslüm müəllim də həmin təşkilatın sədrinin birinci müavini seçilir. Bu təşkilatın yaradılmasının tarixçəsi isə olduqca maraqlıdır. Belə ki, Moskvada güclü olan erməni diasporu o dövrdə "Naxçıvan" adlı üzdəniraq bir kilsə tikmək qərarına gəlir və hətta bu adla bir neçə veb-sayt da yaradırlar. Buna cavab olaraq Sankt-Peterburq Azərbaycan diasporu tərəfindən "Naxçıvan" Cəmiyyəti yaradılaraq saxta erməni təbliğatı ifşa olunur. 2011-ci ildə isə Müslüm Muradov Dünya Azərbaycanlılarının III Qurultayında Sankt-Peterburq diaspor heyətinin üzvü kimi iştirak edərək milli diaspor hərəkatındakı həmvətənlərimiz arasında əlaqələrin güclənməsinə öz töhfəsini vermişdir.

Müslüm Muradov hərtərəfli fəaliyyəti ilə ölkəmizi onun hüdudlarından kənarda layiqincə təmsil edən azərbaycanlılardandır. O, gənclərin dostu, sənət, poeziya həvəskarı və ən vacibi xaricdə ölkəmizə antitəbliğat aparanlara qarşı mübarizənin də fəal üzvüdür. Diaspor üzvləri təkcə Sankt-Peterburq vilayətində deyil, Rusiyanın digər yerlərində yaşayan həmyerlilərimizə kömək etmək, xüsusən tələbələrin təhsil almasında və gələcəkdə ölkəmizə faydalı insanlar kimi yetişməsində dəstək göstərməkdə həmişə həmrəydirlər. Elə Müslüm müəllimin iki oğlu – Coşqun və Ramal da Sankt-Peterburqun tanınmış universitetlərini magistr dərəcəsi ilə bitirərək burada mühüm mövqelər tutmağa müvəffəq olub və hətta Sankt-Peterburq Azərbaycan Gənclər Birliyinin idarə heyətinin üzvləri seçiliblər.

Ölkəmizə qarşı 30 il ərzində davam etmiş erməni işğalı harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının ürəyinin yarası olub. Soydaşlarımız erməni faşizminin başının əzilməsini həsrətlə gözləyib və 2020-ci ilin 8 noyabrında arzuladıqları həmin o günə qovuşublar. Ermənistanın ağ bayraq qaldırıb təslim olduğu Böyük Zəfər Gününə gedən yolda Ali Baş Komandanımızın rəhbərliyi ilə döyüşə atılan qəhrəman əsgərlərimizin şücaəti qürbətdəki azərbaycanlıların da qürur mənbəyi, dilinin əzbəri olmuşdur. Qələbəmizdən sonra Rusiyada yaşayan ən böyük Azərbaycan diasporu təşkilatlarından biri olan Sankt-Peterburqdakı azərbaycanlılar da xalqımızın sevincini qürurla bölüşürdülər. Çünki onlar da digər fəal soydaşlarımız kimi dəfələrlə Rusiyada güclü olan erməni lobbisinin təxribat cəhdlərinin qarşısını almaq üçün yayılan əsassız və feyk xəbərlərə, qərəzli çıxışlara, Azərbaycanın qarşılaşdığı ədalətsizliklərə qarşı etiraz edirdilər. Sankt-Peterburqdakı diaspor üzvlərinin dəstəyi ilə Rusiya Yazıçılar İttifaqının üzvü İqor Pompeyevin yazdığı "20 Yanvar hadisələrinin acı həqiqətləri" adlı kitabın geniş tirajda çap olunması bu baxımdan diqqətçəkicidir. Ayrıca olaraq şair təbiətli Müslüm müəllimin Böyük Zəfərimizlə bağlı qələmə aldığı şeirləri də dostları, onu tanıyanlar tərəfindən həvəslə oxunub paylaşılır.

Müslüm Muradov Rusiyada yaşayan milyonlarla azərbaycanlıdan biridir. Təhsili, işi və biznesi ilə əlaqədar o ılıq Baltik sahillərini seçsə də, özü və yaxınları üçün isti ana qucağı – Azərbaycan həmişə doğma və əzizdir. İlin, günün hansı dövrü olsa da, Muradovlar ailəsi üçün Şahbuzdan Sankt-Peterburqa uzanan etibarlı bir körpü vardır. Bu, Ulu Öndər Heydər Əliyevin xalqımıza miras qoyduğu dünya azərbaycanlılarının həmrəylik bağıdır. Həmrəylik ayında Müslüm müəllimin "Şərq qapısı" qəzetinin dəyərli oxucularına hədiyyəsi isə onun vətənpərvərlik ruhu dolu şeirləridir.

**Əli CABBAROV**

### ŞUŞAM mənim

Qarabağın ürəyi, yurdumun bəzəyisən,
İgidlərin məskəni, yerlərin göyçəyisən,
Çiçəklərin incəsi, sən Xarı çiçəyisən.
Alınmaz qalam mənim,
Qürurum, Şuşam mənim.

Muğamın beşiyisən, Üzeyirin bəstəsi,
Xan əminin "Zabul"u, Cabbarın "Şikəstə"si,
Bülbülün həzin səsi, Rəşidin zümzüməsi,
Mədəniyyət ocağım,
Varlığım, Şuşam mənim.

Vaqifin şeiriyyəti, Natəvanın qəzəli,
Qarabağın incisi, Azərbaycan gözəli!
Xan bağının ətirli xarıbülbül çiçəyi,
Cıdır düzüm, Topxanam,
İsa bulağım mənim.
Cənnətməkanım mənim,
Qürurum, Şuşam mənim.

Cismən ayrı yaşadıq, səndən ayrı olmadıq,
Bu illərdə bir an da biz səni unutmadıq,
Həmişəlik qayıtdıq, uzun həsrəti atdıq.
Şükür qovuşdurana,
Cənnətməkanım mənim,
Varlığım, Şuşam mənim.

**Müslüm MURADOV**

qədər sevindirdiyini indi də xatırlayıram. Ona görə də bu dəfə onun fəaliyyəti haqqında bir yazı yazmaq fikrimi bildirəndə həmin köhnə xatirələr yenidən canlandı.

Müslüm Sultan oğlu Muradov 1971-ci il avqustun 14-də Qərbi Azərbaycanın Dərələyəz mahalının Qaraqaya kəndində anadan olub. 1978-ci ildə atasının başqa işə keçməsi ilə əlaqədar ailəsi Naxçıvana, Şahbuz rayonunun Ayrınc

kəndinə köçüb. Burada orta məktəbi əla qiymətlərlə bitirəndən sonra 1988-ci ildə ozamankı Leninqrad İnşaat Mühəndisləri İnstitutuna daxil olub, 1996-cı ildə Sankt-Peterburq Memarlıq-İnşaat Universitetini Sənaye və mülki tikinti mühəndisliyi ixtisası üzrə bitirib. Həmin ildə Sankt-Peterburq Memarlıq-İnşaat Universitetində aspiranturaya qəbul olub. Burada gənc aspirant Müslüm Muradov professor Boris Mixaylovun elmi rəhbərliyi ilə 2001-ci ildə “Kontrplak borulardan istifadə etməklə plitə-konstruksiyaların təkmilləşdirilməsi” mövzusunda namizədlik dissertasiyasını müdafiə edib və universitetdə elmi fəaliyyətə başlayıb. Elmi işlə yanaşı olaraq 1996-cı ildə “İnterles” Məhdud Məsuliyyətli Cəmiyyətini quraraq bu günə qədər baş icraçı direktor kimi uğurlu biznes fəaliyyətini də davam etdirir. Hazırda SanktPeterburq şəhərində yaşayır, elmi fəaliyyəti ilə yanaşı, xeyriyyəçi və ictimai işlərdə də fəallığı ilə yaxşı tanınır. Müslüm müəllim tanınmış ziyalı və uğurlu iş adamı olmaqla yanaşı, əsl diaspor fəalı, ölkəmizi hər yerdə dəstəkləyən vətənpərvərdir. O bu fəaliyyətini, necə deyərlər, vaxtı olanda deyil, gündəlik iş planına daxil olan təşkilati işlər qaydasında həyata keçirir. Şübhəsiz, 380 minə yaxın üzvü olan Sankt-Peterburq Azərbaycan diaspor təşkilatının qurucularından biri və rəyasət heyətinin üzvü kimi onun bu sahədəki fəaliyyəti də çoxşaxəli olmalıdır. Belə ki, Sankt-Peterburqda yaşayan və fəaliyyət göstərənAzərbaycan diasporunun Rusiyada ən aktiv olması və nüfuz qazanması burada təmsil edilən həmyerlilərimizin daim birlik içində olmaları, onların bütün məsələlərdə vahid bir ailə kimi toplanıb yekun fikrə gəlmələri ilə sıx bağlıdır. Müxtəlif illərdə onun da fəal üzvü olduğu Sankt-Peterburqdakı diasporumuz Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin inkişafı və stabilliyi üçün xeyli işlər görmüş, ölkəmizdən 3 min kilometr uzaqda bir çox hallarda çətinliklərlə qarşılaşsalar da, bu şəhərdə və vilayətin digər bölgələrində Azərbaycan reallıqlarını dünyaya çatdırmaq

məqsədilə elmi konfranslar, milli folklor konsertləri, incəsənət proqramları, muğam tədbirləri, teatr tamaşaları, poeziya axşamları təşkil etmiş, 20 Yanvar və Xocalı soyqırımı günlərində anım tədbirləri keçirmişlər. Ötən dövrdə Sankt-Peterburq Azərbaycan diasporu üçün ən yaddaqalan mühüm hadisələr, şübhəsiz, 2002-ci ildə Ümummilli Liderimiz Heydər Əliyev və Rusiya prezidenti Vladimir Putinin iştirakı ilə Sankt-Peterburq şəhərində görkəmli şairimiz Nizami Gəncəvinin abidəsinin açılışı və 2005-ci ildə dövlət başçımız cənab İlham Əliyevin iştirakı ilə Ulu Öndərin 1949-1950-ci illərdə ali təhsil aldığı, şəhərin Qoroxovaya küçəsində yerləşmiş SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin ali məktəbinin binasına xatirə lövhəsinin vurulması tədbirləri olmuşdur. Bundan ruhlanan diaspor üzvləri fəallıqlarını daha da artıraraq 2008-ci ildə Mədəni İnformasiya Mərkəzi – "Naxçıvan" Cəmiyyəti yaradır və Müslüm müəllim də həmin təşkilatın sədrinin birinci müavini seçilir. Bu təşkilatın yaradılmasının tarixçəsi isə olduqca maraqlıdır. Belə ki, Moskvada güclü olan erməni diasporu o dövrdə "Naxçıvan" adlı üzdəniraq bir kilsə tikmək qərarına gəlir və hətta bu adla bir neçə veb-sayt da yaradırlar. Buna cavab olaraq Sankt-Peterburq Azərbaycan diasporu tərəfindən "Naxçıvan" Cəmiyyəti yaradılaraq saxta erməni təbliğatı ifşa olunur. 2011-ci ildə isə Müslüm Muradov Dünya Azərbaycanlılarının III Qurultayında Sankt-Peterburq diaspor heyətinin üzvü kimi iştirak edərək milli diaspor hərəkatındakı həmvətənlərimiz arasında əlaqələrin güclənməsinə öz töhfəsini vermişdir. Müslüm Muradov hərtərəfli fəaliyyəti ilə ölkəmizi onun hüdudlarından kənarda layiqincə təmsil edən azərbaycanlılardandır. O, gənclərin dostu, sənət, poeziya həvəskarı və ən vacibi xaricdə ölkəmizə antitəbliğat aparanlara qarşı mübarizənin də fəal üzvüdür. Diaspor üzvləri təkcə Sankt-Peterburq vilayətində deyil, Rusiyanın digər yerlərində yaşayan həmyerlilərimizə kömək etmək, xüsusən

tələbələrin təhsil almasında və gələcəkdə ölkəmizə faydalı insanlar kimi yetişməsində dəstək göstərməkdə həmişə həmrəydirlər. Elə Müslüm müəllimin iki oğlu – Coşqun və Ramal da Sankt-Peterburqun tanınmış universitetlərini magistr dərəcəsi ilə bitirərək burada mühüm mövqelər tutmağa müvəffəq olub və hətta Sankt-PeterburqAzərbaycan Gənclər Birliyinin idarə heyətinin üzvləri seçiliblər.

Ölkəmizə qarşı 30 il ərzində davam etmiş erməni işğalı harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının ürəyinin yarası olub. Soydaşlarımız erməni faşizminin başının əzilməsini həsrətlə gözləyib və 2020-ci ilin 8 noyabrında arzuladıqları həmin o günə qovuşublar. Ermənistanın ağ bayraq qaldırıb təslim olduğu Böyük Zəfər Gününə gedən yolda Ali Baş Komandanımızın rəhbərliyi ilə döyüşə atılan qəhrəman əsgərlərimizin şücaəti qürbətdəki azərbaycanlıların da qürur mənbəyi, dilinin əzbəri olmuşdur. Qələbəmizdən sonra Rusiyada yaşayan ən böyük Azərbaycan diasporu təşkilatlarından biri olan Sankt-Peterburqdakı azərbaycanlılar da xalqımızın sevincini qürurla bölüşürdülər. Çünki onlar da digər fəal soydaşlarımız kimi dəfələrlə Rusiyada güclü olan erməni lobbisinin təxribat cəhdlərinin qarşısını almaq üçün yayılan əsassız və feyk xəbərlərə, qərəzli çıxışlara, Azərbaycanın qarşılaşdığı ədalətsizliklərə qarşı etiraz edirdilər. Sankt-Peterburqdakı diaspor üzvlərinin dəstəyi ilə Rusiya Yazıçılar İttifaqının üzvü İqor Pompeyevin yazdığı "20 Yanvar hadisələrinin acı həqiqətləri" adlı kitabın geniş tirajda çap olunması bu baxımdan diqqətçəkicidir. Ayrıca olaraq şair təbiətli Müslüm müəllimin Böyük Zəfərimizlə bağlı qələmə aldığı şeirləri də dostları, onu tanıyanlar tərəfindən həvəslə oxunub paylaşılır.

Müslüm Muradov Rusiyada yaşayan milyonlarla azərbaycanlıdan biridir. Təhsili, işi və biznesi ilə əlaqədar o ılıq Baltik sahillərini seçsə də, özü və yaxınları üçün isti ana qucağı – Azərbaycan həmişə doğma və əzizdir. İlin, günün

hansı dövrü olsa da, Muradovlar ailəsi üçün Şahbuzdan Sankt-Peterburqa uzanan etibarlı bir körpü vardır. Bu, Ulu Öndər Heydər Əliyevin xalqımıza miras qoyduğu dünya azərbaycanlılarının həmrəylik bağıdır. Həmrəylik ayında Müslüm müəllimin "Şərq qapısı" qəzetinin dəyərli oxucularına hədiyyəsi isə onun vətənpərvərlik ruhu dolu şeirləridir.

## ŞUŞAM mənim

Qarabağın ürəyi, yurdumun bəzəyisən,
İgidlərin məskəni, yerlərin göyçəyisən,
Çiçəklərin incəsi, sən Xarı çiçəyisən.
Alınmaz qalam mənim,
Qürurum, Şuşam mənim.

Muğamın beşiyisən, Üzeyirin bəstəsi,
Xan əminin "Zabul"u, Cabbarın "Şikəstə"si,
Bülbülün həzin səsi, Rəşidin zümzüməsi,
Mədəniyyət ocağım,
Varlığım, Şuşam mənim.

Vaqifin şeiriyyəti, Natəvanın qəzəli,
Qarabağın incisi, Azərbaycan gözəli!
Xan bağının ətirli xarıbülbül çiçəyi,
Cıdır düzüm, Topxanam,
İsa bulağım mənim.
Cənnətməkanım mənim,
Qürurum, Şuşam mənim.

Cismən ayrı yaşadıq, səndən ayrı olmadıq,
Bu illərdə bir an da biz səni unutmadıq,
Həmişəlik qayıtdıq, uzun həsrəti atdıq.
Şükür qovuşdurana,
Cənnətməkanım mənim,
Varlığım, Şuşam mənim.

**Müslüm MURADOV**

***"Şərq Qapısı" qəzeti, 8 dekabr 2023-cü il***
***https://serqqapisi.gov.az/xeberler/sahbuzdan-sankt-peterburqa-uzanan-korpu***

## *Qalib bəllidir: Azərbaycan xalqı!*

*Ölkəmizin erməni faşizmi üzərində Böyük Qələbəsinin ardından Xankəndi stadionunda daha bir tarixi qələbə qazanıldı. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevin topa rəmzi toxunuşu ilə başlanılan "Qarabağ"-MOİK oyunu bütün dünyaya Böyük Zəfərimizi futbol dili ilə də elan etdi: top artıq Azərbaycanda, onun güclü rəhbərindədir!*

Futbol 90 dəqiqədir və nəticəsi nə olursa-olsun, həmişə qazanan idman, fiziki sağlamlıq, sağlam düşüncə və insanlar arasında sülh və sevgi hissləridir. Odur ki, qalib



## Qalib bəllidir: Azərbaycan xalqı!

*Ölkəmizin erməni faşizmi üzərində Böyük Qələbəsinin ardından Xankəndi stadionunda daha bir tarixi qələbə qazanıldı. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevin topa rəmzi toxunuşu ilə başlanılan "Qarabağ"-MOİK oyunu bütün dünyaya Böyük Zəfərimizi futbol dili ilə də elan etdi:* ***top artıq Azərbaycanda, onun güclü rəhbərindədir!***

Futbol 90 dəqiqədir və nəticəsi nə olursa-olsun, həmişə qazanan idman, fiziki sağlamlıq, sağlam düşüncə və insanlar arasında sülh və sevgi hissləridir. Odur ki, qalib dövlətimiz Qarabağı sonuncu separatist ünsürdən azad etdikdən sonra burada apardığı sürətli yenidənqurma işləri ilə paralel olaraq mühüm sosial-mədəni infrastruktur sahələrinin də yenilənməsinə ciddi fikir vermiş və çox qısa müddətdə, cəmi 3 aya Xankəndi stadionunu da böyük futbol oyunları üçün yararlı hala salmışdır. Həmin stadion ki hələ ötən əsrin ortalarında Azərbaycanın öz maliyyə vəsaitləri hesabına inşa edilmiş, burada gözəl, yaddaqalan oyunlar keçirilmiş, işğal dövründə isə separatist ünsürlərin bərbad top meydançasına, erməni baş nazirin isə səy-səy bəyanatlarına şahidlik etmişdi. Bu gün isə öz əsl sahiblərini mavi, qırmızı, yaşıl rəngləri ilə salamlayan Xankəndi stadionundakı oynanan futbol başlama vuruşundan final fitinə qədər bütün izləyicilərin yaddaşında xalqımızın böyük qələbəsinin simvolik bir rəmzi kimi qaldı. Beləcə, 30 il ərzində hər vasitə ilə "separatist oyunu" uzatmaq istəyən Ermənistan və onun Qarabağdakı tör-töküntüləri bu dəfə Xankəndi stadionunda böyük hesabla məğlubiyyətə uğradıldılar.

Azərbaycan futbolunun Avropada layiqli təmsilçisi "Qarabağ" futbol komandası öz doğma stadionuna qayıtmaqla dünya idman ictimaiyyətini də Qarabağa qaytarmağa nail oldu. Əsl futbol bayramı yaşanan Xankəndiyə toplaşan bütün insanlar, istər "Qarabağ", istərsə də MOİK azarkeşləri, dəvət olunmuş veteran futbolçular, elə sahədəki futbolçular özləri də 30 ildən sonra bu torpaqlara qayıdan böyük sülhü, onun böyük memarı Prezident cənab İlham Əliyevi ayaq üstə alqışladılar. Dünya gördü ki, Azərbaycan xalqı öz torpaqlarına mədəniyyət, musiqi, turizm və idmanla qayıdır. Bunlar isə həmin sahələrdir ki, bütün dünyada, elə bu gün Azərbaycanın qələbəsini həzm edə bilməyən bəzi Avropa ölkələrində sosial-mədəni inkişafın əsas göstəriciləri hesab olunurlar. Onların əksinə olaraq Xankəndi stadionunda səslənən möhtəşəm Azərbaycan Himnini əli ürəyinin başında oxuyan minlərlə insan dünyaya xalqımızın sülh, əməkdaşlıq tərəfdarı olduğunu, bizim heç vaxt müharibə tərəfdarı olmadığımızı bir daha sübut edib, yeni bir tarixi dövrün də başlandığına şahidlik etdilər.

Xankəndidəki futbol oyununa qədər Azərbaycan erməni faşizminə, onu bəsləyən qüvvələrə sarsıdıcı zərbələr endirib. Xankəndi stadionunda meydana çıxan MOİK futbolçularına azarkeşlik edən əsgərlərimiz hələ üç il əvvəl düşmənə endirdiyi "dəmir yumruq" zərbəsi ilə bütün Cənubi Qafqazdakı reallıqları yenidən formalaşdırdılar. Dövlət başçımızın meydanın mərkəzindəki topa endirdiyi ilk zərbə isə siyasət oyunçularına da bir ustad dərsi olmaqla, yarışan bütün tərəflərə sağlam rəqabət aparmağı, çalışmaqla, dinc əməkdaşlıqla qalib gəlməyin yolunu göstərdi. Ölkə Prezidenti göstərdi ki, Azərbaycanın Xankəndidəki möhtəşəm Zəfər paradı hələ davam edir və bundan sonra işğal izlərinin aradan qaldırılacağı hər bir şəhərimizdə bu eyni təntənə ilə davam edəcək. Şübhəsiz, regionda gedən bütün siyasi oyunları dərindən oxuya bilən dövlət başçımız istədiyi oyunçuya qırmızı, istədiyinə sarı vərəqə göstərməklə kimin Cənubi Qafqazda baş hakim olduğunu hər yerdə deyə biləcək gücdədir. Ona görə də Xankəndidəki bu tarixi oyun, ölkəmizdə Xalq-Ordu birliyinin təntənəsi kimi bütün dünya ölkələrinin siyasi liqaları arasında ən güclüsünün məhz Azərbaycanda olduğunun da bir nümayişi idi. Odur ki, bu oyundan sonra hər kəs – istər revanşistlər, istər küskünlər, istərsə də onları qızışdıran azarkeşlər papaqlarını qabaqlarına qoyub bir daha düşünməli, siyasətdəki "fair-play" qaydalarına ciddi əməl etməlidirlər.

Azərbaycanda da çox sevilən futbol milyonların oyunudur, dünyada azarkeş kütləsinə və iqtisadi dövriyyəsinə görə ön sırada olan bir idman növüdür. Futbol həvəskarlarının yaddaşında gözəlliyinə və tamaşaçı marağına görə yüzlərlə, bəlkə də, minlərlə oyun iz buraxmışdır. Ancaq tarixi-bəşəri dəyərinə görə indiyə qədər iki futbol oyunu hər zaman yaddaşlarda qalacaq. Birinci belə oyun 1914-cü ilin dekabrın 25-də Birinci Dünya müharibəsində düşmən tərəflər olmuş ingilis və alman əsgərlərinin yeni il ərəfəsində Belçikanın Varneton şəhəri ətrafındakı üzbəüz səngərlərdən çıxaraq yoldaşlıq oyunu keçirmələri olmuşdur. Avropa futbolunun baş idarəsi UEFA tərəfindən isə həmin futbol matçında iştirak etmiş əsgərlərin şərəfinə 100 il sonra abidə qoyulmuşdur. İkinci belə bir tarixi əhəmiyyətli oyunun 109 il sonra məhz eyni ayda Xankəndidə keçirilməsi isə regionda yeni müharibə ssenariləri cızanların bütün planlarını alt-üst etməklə yeni oyun qaydalarının da yazılmasında bir dövrün başlanğıcı oldu: ədalətli olan gec-tez qalib gələcək.

*Əgər yeni oyun başlasa, bu dəfə "Qarabağ"-"Zəngəzur" arasında olacaq!*

**Əli CABBAROV**

dövlətimiz Qarabağı sonuncu separatist ünsürdən azad etdikdən sonra burada apardığı sürətli yenidənqurma işləri ilə paralel olaraq mühüm sosial-mədəni infrastruktur sahələrinin də yenilənməsinə ciddi fikir vermiş və çox qısa müddətdə, cəmi 3 aya Xankəndi stadionunu da böyük futbol oyunları üçün yararlı hala salmışdır. Həmin stadion ki hələ ötən əsrin ortalarında Azərbaycanın öz maliyyə vəsaitləri hesabına inşa edilmiş, burada gözəl, yaddaqalan oyunlar keçirilmiş, işğal dövründə isə separatist ünsürlərin bərbad top meydançasına, erməni baş nazirin isə səy-səy bəyanatlarına şahidlik etmişdi. Bu gün isə öz əsl sahiblərini mavi, qırmızı, yaşıl rəngləri ilə salamlayan Xankəndi stadionundakı oynanan futbol başlama vuruşundan final fitinə qədər bütün izləyicilərin yaddaşında xalqımızın böyük qələbəsinin simvolik bir rəmzi kimi qaldı. Beləcə, 30 il ərzində hər vasitə ilə ***"separatist oyunu"*** uzatmaq istəyən Ermənistan və onun Qarabağdakı tör-

töküntüləri bu dəfə Xankəndi stadionunda böyük hesabla məğlubiyyətə uğradıldılar.

Azərbaycan futbolunun Avropada layiqli təmsilçisi “Qarabağ” futbol komandası öz doğma stadionuna qayıtmaqla dünya idman ictimaiyyətini də Qarabağa qaytarmağa nail oldu. Əsl futbol bayramı yaşanan Xankəndiyə toplaşan bütün insanlar, istər “Qarabağ”, istərsə də MOİK azarkeşləri, dəvət olunmuş veteran futbolçular, elə sahədəki futbolçular özləri də 30 ildən sonra bu torpaqlara qayıdan böyük sülhü, onun böyük memarı Prezident cənab İlham Əliyevi ayaq üstə alqışladılar. Dünya gördü ki, Azərbaycan xalqı öz torpaqlarına mədəniyyət, musiqi, turizm və idmanla qayıdır. Bunlar isə həmin sahələrdir ki, bütün dünyada, elə bu gün Azərbaycanın qələbəsini həzm edə bilməyən bəzi Avropa ölkələrində sosial-mədəni inkişafın əsas göstəriciləri hesab olunurlar. Onların əksinə olaraq Xankəndi stadionunda səslənən möhtəşəm Azərbaycan Himnini əli ürəyinin başında oxuyan minlərlə insan dünyaya xalqımızın sülh, əməkdaşlıq tərəfdarı olduğunu, bizim heç vaxt müharibə tərəfdarı olmadığımızı bir daha sübut edib, yeni bir tarixi dövrün də başlandığına şahidlik etdilər.

Xankəndidəki futbol oyununa qədər Azərbaycan erməni faşizminə, onu bəsləyən qüvvələrə sarsıdıcı zərbələr endirib. Xankəndi stadionunda meydana çıxan MOİK futbolçularına azarkeşlik edən əsgərlərimiz hələ üç il əvvəl düşmənə endirdiyi “dəmir yumruq” zərbəsi ilə bütün Cənubi Qafqazdakı reallıqları yenidən formalaşdırdılar. Dövlət başçımızın meydanın mərkəzindəki topa endirdiyi ilk zərbə isə siyasət oyunçularına da bir ustad dərsi olmaqla, yarışan bütün tərəflərə sağlam rəqabət aparmağı, çalışmaqla, dinc əməkdaşlıqla qalib gəlməyin yolunu göstərdi. Ölkə Prezidenti göstərdi ki, Azərbaycanın Xankəndidəki möhtəşəm Zəfər paradı hələ davam edir və bundan sonra işğal izlərinin aradan qaldırılacağı hər bir şəhərimizdə bu eyni təntənə ilə davam

edəcək. Şübhəsiz, regionda gedən bütün siyasi oyunları dərindən oxuya bilən dövlət başçımız istədiyi oyunçuya ***qırmızı***, istədiyinə ***sarı*** vərəqə göstərməklə kimin Cənubi Qafqazda baş hakim olduğunu hər yerdə deyə biləcək gücdədir. Ona görə də Xankəndidəki bu tarixi oyun, ölkəmizdə Xalq-Ordu birliyinin təntənəsi kimi bütün dünya ölkələrinin siyasi liqaları arasında ən güclüsünün məhz Azərbaycanda olduğunun da bir nümayişi idi. Odur ki, bu oyundan sonra hər kəs – istər revanşistlər, istər küskünlər, istərsə də onları qızışdıran azarkeşlər papaqlarını qabaqlarına qoyub bir daha düşünməli, siyasətdəki *"fair-play"* qaydalarına ciddi əməl etməlidirlər.

Azərbaycanda da çox sevilən futbol milyonların oyunudur, dünyada azarkeş kütləsinə və iqtisadi dövriyyəsinə görə ön sırada olan bir idman növüdür. Futbol həvəskarlarının yaddaşında gözəlliyinə və tamaşaçı marağına görə yüzlərlə, bəlkə də, minlərlə oyun iz buraxmışdır. Ancaq tarixi-bəşəri dəyərinə görə indiyə qədər iki futbol oyunu hər zaman yaddaşlarda qalacaq. Birinci belə oyun 1914-cü ilin dekabrın 25-də Birinci Dünya müharibəsində düşmən tərəflər olmuş ingilis və alman əsgərlərinin yeni il ərəfəsində Belçikanın Varneton şəhəri ətrafındakı üzbəüz səngərlərdən çıxaraq yoldaşlıq oyunu keçirmələri olmuşdur. Avropa futbolunun baş idarəsi UEFA tərəfindən isə həmin futbol matçında iştirak etmiş əsgərlərin şərəfinə 100 il sonra abidə qoyulmuşdur. İkinci belə bir tarixi əhəmiyyətli oyunun 109 il sonra məhz eyni ayda Xankəndidə keçirilməsi isə regionda yeni müharibə ssenariləri cızanların bütün planlarını alt-üst etməklə yeni oyun qaydalarının da yazılmasında bir dövrün başlanğıcı oldu: ədalətli olan gec-tez qalib gələcək.

***Əgər yeni oyun başlasa, bu dəfə "Qarabağ"-"Zəngəzur" arasında olacaq!***

*"Şərq Qapısı" qəzeti, 23 dekabr 2023-cü il*
***https://serqqapisi.gov.az/xeberler/qalib-bellidir-azerbaycan-xalqi***

# Vətənini, xalqını təmsil etmək üçün dövlətinə bağlı olmalısan



## Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq

***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları "Şərq qapısı" qəzetində görəcəksiniz.***

### Vətənini, xalqını təmsil etmək üçün dövlətinə bağlı olmalısan

Azərbaycanın milli dövlətçilik tarixinin ən güclü dönəmini yaşadığımız bir dövrdə dostlarımızla mövcud əlaqələrin daha da möhkəmləndirilməsi, xalqımızın bədxahlarına qarşı bir yumruq kimi birləşib, daha da həmrəy olmağımız günün aktual məsələlərindəndir. Bu mənada, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyasını ölkəmizin hüdudlarından kənarda inkişaf etdirən Moskvada yaşayan həmvətənlərimizin milli diaspor təşkilatı və onun hazırkı sədri, həmyerlimiz ***Bəxtiyar Həsənov*** haqqında söhbət açmaq dünya azərbaycanlılarının həmrəyliyi ayında olduqca maraqlı olardı.

Bəxtiyar Həsənov 1974-cü ildə Ordubad rayonunun Dəstə kəndində anadan olub. Orta təhsilini bu kənddəki 1 nömrəli məktəbdə, ali təhsilini isə Kazan Dövlət Humanitar-Pedaqoji Universitetində alıb. İxtisasca şərqşünasdır. İki övlad atası olan Bəxtiyar Həsənov hazırda Rusiyada "Bakhticom" şirkətlər qrupunun təsisçisi və rəhbəridir.

Bəxtiyar müəllimin Moskva kimi strateji, siyasi və milli münasibətlərin çox həssas olduğu bir paytaxt şəhərində uğurlu biznes fəaliyyəti ilə yanaşı, ölkəmizin maraqları baxımından olduqca vacib olan diaspor fəaliyyətinə başçılıq etməsi ona göstərilmiş etimaddan xəbər verir. Ötən dövrün təcrübəsi göstərir ki, diaspor fəalı olmaq üçün Rusiya kimi geniş imkanlara malik, lakin, eyni zamanda bir çox iri güclərin maraqlarının kəsişdiyi bir ölkədə bu xüsusi bacarıq tələb edir. Məhz bu keyfiyyətlərə malik olan Bəxtiyar Həsənovun Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinin sədri kimi fəaliyyəti qısa müddətdə bu təşkilatın yenidən həyata qaytarılmasına və uğurlu bir komanda qurulmasına ciddi töhfə verib.

2022-ci ildən Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinə rəhbərlik edən Bəxtiyar Həsənov ilk olaraq Rusiya Federasiyası və eləcə də Moskva şəhəri rəsmiləri ilə münasibətlərin qaydaya salıb, Moskva meri, Rusiya Milli siyasət və regionlararası əlaqələr Departamentinin, Moskva Millətlər Evinin rəhbərləri ilə əlaqələri sıxlaşdırıb, diaspor təşkilatının mövqelərini möhkəmləndirib. Qonşu ölkədə diaspor fəaliyyətinin gücləndirilməsi məqsədilə Rusiyadakı rəsmi qurumlarla yanaşı, ölkəmizdə fəaliyyət göstərən Azərbaycan-rus icması ilə də əlaqələrin möhkəmləndirilməsi də bu müddətdə diqqətdə saxlanılıb.

Müstəqil Azərbaycan Respublikasının qurucusu, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ölkəmizdə olduğu kimi, Rusiya Federasiyasında da geniş və hərtərəfli qeyd olunmaqdadır. Bu mənada, yola salmaqda olduğumuz il Bəxtiyar Həsənovun sədri olduğu Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı və ya iştirakı ilə keçirilən çoxsaylı silsilə xarakterli əhəmiyyətli tədbirlərlə yadda qalıb. Ümummilli Liderin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev – epoxal şəxsiyyət" adlı müsabiqə, Rusiyanın Federasiya Şurası, Azərbaycan Prezidentinin Administrasiyası, TASS informasiya agentliyi və Heydər Əliyev Fondunun təşkil etdiyi "Rusiyada qəlbimin bir hissəsi var" adlı sərgi, "Rusiya və Azərbaycan arasındakı münasibətlərin inkişafında teologiya və multikulturalizm təcrübələrinin rolu" mövzusunda dəyirmi masa və onlarla belə tədbirlər keçirilib.

Moskvadakı diaspor təşkilatımız həmvətənlərimizin koordinasiyalı fəaliyyəti, müxtəlif xeyriyyə aksiyaları və ünvanlı yardımlarla yanaşı, eyni zamanda əlamətdar günlərdə tədbirlərin keçirilməsi, günün aktual məsələləri ilə bağlı görüşlərin təşkili ilə də seçilir. Cari ildə muxtariyyət nəzdində soydaşlarımıza hüquqi yardım mərkəzinin yaradılması, Rusiyada miqrasiyanın tənzimlənməsi məsələləri çərçivəsində soydaşlarımıza hüquqi və maddi yardımlar göstərilməsini də qeyd etmək lazımdır.

Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyəti həm müsəlman icması, həm də pravoslav icma ilə də xüsusi əlaqələr yaradaraq din xadimləri və dindarlara aktiv yardımlar edir, Rusiyada konfessiyalararası sülhə töhfə verməyə çalışır. Bunlarla yanaşı, Moskvadakı diaspor təşkilatımızın fəaliyyəti çərçivəsində müştərək layihələr kimi azərbaycanlıların SSRİ və Rusiya neft sənayesinə verdiyi töhfələrə həsr olunan beynəlxalq elmi konfransda, Moskva Dövlət Avtoyol Texniki Universitetində keçirilmiş "Mənim ölkəm" adlı ənənəvi beynəlxalq festivalda azərbaycanlı tələbələrin iştirakını və onların təqdimatında "Bahar yurdu" mahnısını və "Qarabağ" ansamblının rəqsini qeyd etmək olar.

Bundan əlavə, çox mühüm məsələ kimi Rusiya Federasiyasının subyektlərində fəaliyyət göstərən digər Azərbaycan ictimai təşkilatları ilə əlaqələrin möhkəmləndirilməsi məqsədilə Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinin nümayəndə heyətinin Sankt-Peterburq, Arxangelsk, Komi, Orenburq və Rusiyanın digər subyektlərindəki Azərbaycan diaspor təşkilatlarının rəhbərləri ilə də görüşlərini xüsusi olaraq qeyd etmək lazımdır. Təşkilatın təşəbbüsü ilə Moskvada yaşayan azərbaycanlı qadınları bir araya gətirmək məqsədilə paytaxtın təhsil ocaqlarının tanınmış müəllimləri, şairələr, publisistlər, uğurlu iş adamları olan qadınlar, eləcə də yaradıcı peşələrin təmsilçiləri, mədəniyyət və incəsənət xadimləri ilə görüş keçirilib, ötən il görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunmuş poeziya axşamı təşkil olunub. Ümumilikdə isə ötən ilin payızından Moskva azərbaycanlılarının elmi elitasının nümayəndələri ilə – tanınmış alimlər, akademik dairələrin təmsilçiləri, mədəniyyət və incəsənət xadimləri və digər görkəmli soydaşlarımızla görüşlər müntəzəm xarakter alıb.

Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyəti öz fəaliyyətini Rusiya paytaxtı hüdudlarından kənarda da genişləndirir. 2023-cü il fevralın əvvəlində qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələdən sonra bütün həmvətənlərimiz kimi Rusiyada yaşayan həmvətənlərimiz də səfərbər oldular. Bəxtiyar Həsənovun başçılıq etdiyi Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyəti zərərçəkmiş insanlara zəruri yardımın göstərilməsi, təbii fəlakət səbəbindən dağıdılmış infrastrukturun bərpası, bu bəlanın nəticələrinin aradan qaldırılması üçün maliyyə vəsaitinin mərkəzləşdirilmiş qaydada toplanması ilə bağlı təşəbbüs göstərib.

Bəxtiyar müəllim qısa müddətdə qazanılan uğurları doğma Vətəni ilə bağlılıqda görür. Onunla telefon söhbətimizdə Şuşa şəhərində dünya azərbaycanlılarının tarixi əhəmiyyətli Zəfər Qurultayında iştirakından, müntəzəm olaraq Bakıya, Naxçıvana, doğma Ordubada səfərlərindən xüsusi olaraq qürurla bəhs etdi. Elə Bəxtiyar müəllimin Naxçıvana son səfəri də uğurlu alınmış, yeni layihələr üzərində fikir mübadiləsi aparılmışdır. Naxçıvanın tarixinin, mədəniyyətinin Rusiyada təbliğ olunması, turizm-sağlamlıq potensialının tanıdılması perspektivləri müzakirə edilmiş, Nəcəfqulu Rəfiyevin qəhrəmanlıq göstərdiyi Belarusun Baranoviçi şəhəri ilə Ordubadın qardaşlaşması müqaviləsi təşəbbüsü yüksək qiymətləndirilmişdir.

Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətini qarşıda mühüm vəzifələr gözləyir. Bu mühüm diaspor təşkilatımızın rəhbəri Bəxtiyar Həsənovun sözlərinə görə isə Rusiya ərazicə böyük, tərkibinə görə çoxmillətli olsa da, burada insanların dilini tapmaq üçün ilk olaraq öz dilini yaxşı bilməli, millətinə bağlı olmalısan. Beş dildə sərbəst danışa bilən Bəxtiyar Həsənovun da diaspor sədri kimi uğurlarının əsasında bu dayanır.

Əli CABBAROV

Azərbaycanın milli dövlətçilik tarixinin ən güclü dönəmini yaşadığımız bir dövrdə dostlarımızla mövcud əlaqələrin daha da möhkəmləndirilməsi, xalqımızın bədxahlarına qarşı bir yumruq kimi birləşib, daha da həmrəy olmağımız günün aktual məsələlərindəndir. Bu mənada, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyasını ölkəmizin hüdudlarından kənarda inkişaf etdirən Moskvada yaşayan həmvətənlərimizin milli diaspor təşkilatı və onun hazırkı sədri, həmyerlimiz Bəxtiyar Həsənov haqqında söhbət açmaq dünya azərbaycanlılarının həmrəyliyi ayında olduqca maraqlı olardı.

Bəxtiyar Həsənov 1974-cü ildə Ordubad rayonunun Dəstə kəndində anadan olub. Orta təhsilini bu kənddəki 1 nömrəli məktəbdə, ali təhsilini isə Kazan Dövlət Humanitar-Pedaqoji Universitetində alıb. İxtisasca şərqşünasdır. İki övlad atası olan Bəxtiyar Həsənov hazırda Rusiyada "Bakhticom" şirkətlər qrupunun təsisçisi və rəhbəridir.

Bəxtiyar müəllimin Moskva kimi strateji, siyasi və milli münasibətlərin çox həssas olduğu bir paytaxt şəhərində uğurlu biznes fəaliyyəti ilə yanaşı, ölkəmizin maraqları baxımından olduqca vacib olan diaspor fəaliyyətinə başçılıq etməsi ona göstərilmiş etimaddan xəbər verir. Ötən dövrün təcrübəsi göstərir ki, diaspor fəalı olmaq üçün Rusiya kimi geniş imkanlara malik, lakin, eyni zamanda bir çox iri güclərin maraqlarının kəsişdiyi bir ölkədə bu xüsusi bacarıq tələb edir. Məhz bu keyfiyyətlərə malik olan Bəxtiyar Həsənovun Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinin sədri kimi fəaliyyəti qısa müddətdə bu təşkilatın yenidən həyata qaytarılmasına və uğurlu bir komanda qurulmasına ciddi töhfə verib.

2022-ci ildən Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinə rəhbərlik edən Bəxtiyar Həsənov ilk olaraq Rusiya Federasiyası və eləcə də Moskva şəhəri rəsmiləri ilə münasibətlərin qaydaya salıb, Moskva meri, Rusiya Milli siyasət və regionlararası əlaqələr Departamentinin, Moskva Millətlər Evinin rəhbərləri ilə əlaqələri sıxlaşdırıb, diaspor təşkilatının mövqelərini möhkəmləndirib. Qonşu ölkədə diaspor fəaliyyətinin gücləndirilməsi məqsədilə Rusiyadakı rəsmi qurumlarla yanaşı, ölkəmizdə fəaliyyət göstərən Azərbaycan-rus icması ilə də əlaqələrin möhkəmləndirilməsi də bu müddətdə diqqətdə saxlanılıb.

Müstəqil Azərbaycan Respublikasının qurucusu, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ölkəmizdə olduğu kimi, Rusiya Federasiyasında da geniş və hərtərəfli qeyd olunmaqdadır. Bu mənada, yola salmaqda olduğumuz il

Bəxtiyar Həsənovun sədri olduğu Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı və ya iştirakı ilə keçirilən çoxsaylı silsilə xarakterli əhəmiyyətli tədbirlərlə yadda qalıb. Ümummilli Liderin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev – epoxal şəxsiyyət" adlı müsabiqə, Rusiyanın Federasiya Şurası, Azərbaycan Prezidentinin Administrasiyası, TASS informasiya agentliyi və Heydər Əliyev Fondunun təşkil etdiyi "Rusiyada qəlbimin bir hissəsi var" adlı sərgi, "Rusiya və Azərbaycan arasındakı münasibətlərin inkişafında teologiya və multikulturalizm təcrübələrinin rolu" mövzusunda dəyirmi masa və onlarla belə tədbirlər keçirilib.

Moskvadakı diaspor təşkilatımız həmvətənlərimizin koordinasiyalı fəaliyyəti, müxtəlif xeyriyyə aksiyaları və ünvanlı yardımlarla yanaşı, eyni zamanda əlamətdar günlərdə tədbirlərin keçirilməsi, günün aktual məsələləri ilə bağlı görüşlərin təşkili ilə də seçilir. Cari ildə muxtariyyət nəzdində soydaşlarımıza hüquqi yardım mərkəzinin yaradılması, Rusiyada miqrasiyanın tənzimlənməsi məsələləri çərçivəsində soydaşlarımıza hüquqi və maddi yardımlar göstərilməsini də qeyd etmək lazımdır.

Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyəti həm müsəlman icması, həm də pravoslav icma ilə də xüsusi əlaqələr yaradaraq din xadimləri və dindarlara aktiv yardımlar edir, Rusiyada konfessiyalararası sülhə töhfə verməyə çalışır. Bunlarla yanaşı, Moskvadakı diaspor təşkilatımızın fəaliyyəti çərçivəsində müştərək layihələr kimi azərbaycanlıların SSRİ və Rusiya neft sənayesinə verdiyi töhfələrə həsr olunan beynəlxalq elmi konfransda, Moskva Dövlət Avtoyol Texniki Universitetində keçirilmiş "Mənim ölkəm" adlı ənənəvi beynəlxalq festivalda azərbaycanlı tələbələrin iştirakını və onların təqdimatında "Bahar yurdu" mahnısını və "Qarabağ" ansamblının rəqsini qeyd etmək olar.

Bundan əlavə, çox mühüm məsələ kimi Rusiya Federasiyasının subyektlərində fəaliyyət göstərən digər Azərbaycan ictimai təşkilatları ilə əlaqələrin möhkəmləndirilməsi məqsədilə Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinin nümayəndə heyətinin Sankt-Peterburq, Arxangelsk, Komi, Orenburq və Rusiyanın digər subyektlərindəki Azərbaycan diaspor təşkilatlarının rəhbərləri ilə də görüşlərini xüsusi olaraq qeyd etmək lazımdır. Təşkilatın təşəbbüsü ilə Moskvada yaşayan azərbaycanlı qadınları bir araya gətirmək məqsədilə paytaxtın təhsil ocaqlarının tanınmış müəllimləri, şairələr, publisistlər, uğurlu iş adamları olan qadınlar, eləcə də yaradıcı peşələrin təmsilçiləri, mədəniyyət və incəsənət xadimləri ilə görüş keçirilib, ötən il görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunmuş poeziya axşamı təşkil olunub. Ümumilikdə isə ötən ilin payızından Moskva azərbaycanlılarının elmi elitasının nümayəndələri ilə – tanınmış alimlər, akademik dairələrin təmsilçiləri, mədəniyyət və incəsənət xadimləri və digər görkəmli soydaşlarımızla görüşlər müntəzəm xarakter alıb.

Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyəti öz fəaliyyətini Rusiya paytaxtı hüdudlarından kənarda da genişləndirir. 2023-cü il fevralın əvvəlində qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələdən sonra bütün həmvətənlərimiz kimi Rusiyada yaşayan həmvətənlərimiz də səfərbər oldular. Bəxtiyar Həsənovun başçılıq etdiyi Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyəti zərərçəkmiş insanlara zəruri yardımın göstərilməsi, təbii fəlakət səbəbindən dağıdılmış infrastrukturun bərpası, bu bəlanın nəticələrinin aradan qaldırılması üçün maliyyə vəsaitinin mərkəzləşdirilmiş qaydada toplanması ilə bağlı təşəbbüs göstərib.

Bəxtiyar müəllim qısa müddətdə qazanılan uğurları doğma Vətəni ilə bağlılıqda görür. Onunla telefon söhbətimizdə Şuşa şəhərində dünya azərbaycanlılarının tarixi

əhəmiyyətli Zəfər Qurultayında iştirakından, müntəzəm olaraq Bakıya, Naxçıvana, doğma Ordubada səfərlərindən xüsusi olaraq qürurla bəhs etdi. Elə Bəxtiyar müəllimin Naxçıvana son səfəri də uğurlu alınmış, yeni layihələr üzərində fikir mübadiləsi aparılmışdır. Naxçıvanın tarixinin, mədəniyyətinin Rusiyada təbliğ olunması, turizm-sağlamlıq potensialının tanıdılması perspektivləri müzakirə edilmiş, Nəcəfqulu Rəfiyevin qəhrəmanlıq göstərdiyi Belarusun Baranoviçi şəhəri ilə Ordubadın qardaşlaşması müqaviləsi təşəbbüsü yüksək qiymətləndirilmişdir.

Moskva Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətini qarşıda mühüm vəzifələr gözləyir. Bu mühüm diaspor təşkilatımızın rəhbəri Bəxtiyar Həsənovun sözlərinə görə isə Rusiya ərazicə böyük, tərkibinə görə çoxmillətli olsa da, burada insanların dilini tapmaq üçün ilk olaraq öz dilini yaxşı bilməli, millətinə bağlı olmalısan. Beş dildə sərbəst danışa bilən Bəxtiyar Həsənovun da diaspor sədri kimi uğurlarının əsasında bu dayanır.

***"Şərq Qapısı" qəzeti, 30 dekabr 2023-cü il***

***https://serqqapisi.gov.az/xeberler/vetenini-xalqini-temsil-etmek-ucun-dovletine-bagli-olmalisan***

# Mündəricat


Ön söz ........................................................................ 5
Azərbaycanın şanlı Zəfər yolu ................................... 6
Naxçıvanın turizm marşrutları *Dünən, bu gün, sabah* ............................................................................ 9
Zəngəzurun turizm potensialı .................................... 13
Zəngəzurun turizm potensialı (II hissə) ..................... 21
Dünyada ekofəallıq: onun təkamülü və fəlsəfi-sosioloji zəmini ........................................................ 28
Münxen Təhlükəsizlik Konfransından dünyaya verilən ən sərrast ismarış .......................................... 33
24 fevral – rus tarixinin qara səhifəsi ...................... 37
Dayanıqsız Metsamor AES regionda ən böyük təhlükədir ................................................................... 41
Torpaq yolda sürünən sülhməramlı oyunu ............... 44
Hay hotelinin xidmətçisi Rasmussen ........................ 48
Dahi Nizami yurdundan ədalətli dünya nizamı uğruna böyük çağırışlar ............................................. 50
Aprel döyüşləri – qaranlıq dünyaya işıq saçan Zəfər yolu .................................................................. 54
Mina təhlükəsi erməni terrorunun yeraltı üzüdür ..... 57
Yaşıl enerjidən istifadə dövrün tələbi, iqtisadi və mədəni inkişafın göstəricisidir .................................. 61
35 illik boşanma davasının acı sonu: davay do svidaniya .................................................................... 65
Yeni yüz ilin qurucusu: Qardaş Türkiyə ................... 68
"TikTok" Parisi partladır ........................................... 74
Bir bulaq, bir şəlalə – Gurbulaq ................................ 77
Qafqaz əsiri ................................................................ 80
Qarabağda aparılan antiterror əməliyyatları Azərbaycanın konstitusional hüququdur .................. 82
Xankəndi AZƏRBAYCAN torpağıdır! ..................... 87
İstədiyimiz bu Bayraq idi .......................................... 94

Tarixə dönən və gorbagor olmuş kəlmələr ............... 98
Şahbuz dağlarında son payız (esse) .......................... 102
Dərələyəzi bir daha görəcəyimiz günü gözləyirik .... 103
Zəngəzura salam olsun ............................................ 108
Şahbuzdan Sankt-Peterburqa uzanan körpü ........... 111
Qalib bəllidir: Azərbaycan xalqı! ............................ 116
Vətənini, xalqını təmsil etmək üçün dövlətinə bağlı olmalısan ................................................................ 120

QEYD

**Əli Cabbarov**

# ZƏNGƏZURA
## *salam olsun*

Çapa imzalanmış 20.12.2023.
Formatı 64X90 1/16 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 7.5 ç.v.
Sifariş № 736. Tiraj 20 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 14